www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 11 fevral 2015-ci il Çərşənbə № 31 (6059) Qiymət 40 qəpik

**Xəbər**

## Suriyada döyüşmüş bir azərbaycanlı tutuldu, biri öldürüldü

yazısı səh.7-də

**Gündəm**

### Avropa Birliyi Dağlıq Qarabağ separatçıları ilə birbaşa təmasa keçdi - xain addım...



Prezidentin Münhendəki Qarabağ çağırışlarına Qərbdən tərs reaksiya; Donbas, Krım, Abxaziya separatçılarını sıxışdıran Qərb təmsilçisi İrəvanda "DQR"in "xarici işlər naziri" ilə görüşdü

yazısı səh.9-da

### Tofiq Yaqublunun "birləşin" təklifinə Müsavatdan reaksiya

yazısı səh.3-də

### Nəqliyyat Nazirliyində kadr dəyişikliklərinin ilginc səbəbləri

yazısı səh.11-də

### Hacı Məmmədovdan təzə xəbər

yazısı səh.3-də

### Mənzil bazarına vergi şoku

yazısı səh.15-də

### ABŞ Konqresindəki Azərbaycan dinləmələrinə YAP-dan etiraz

yazısı səh.9-da

### Neft sektorunda yeni ixtisar dalğası: daha 500 nəfərə bildiriş gəldi

yazısı səh.15-də

### Rəsul Cəfərov məhkəmədə ifadə verməkdən imtina etdi

yazısı səh.5-də

### Bu gün Minskdə Ukraynaya dair kritik toplantı olacaq

yazısı səh.4-də

### Prokuror Sumqayıt xəvariclərinə cəza istədi

yazısı səh.5-də

### Qərbin əlindəki "böyük silah" - İsveçrə bankları

yazısı səh.7-də

### "Çudo-peçka"ların bahalı və keyfiyyətsiz "çudo" məhsulları

yazısı səh.14-də

## "Azərenerji" ASC-nin əsas səlahiyyətləri "Azərişıq"a verildi

# ETİBAR PİRVERDİYEVİN İŞIĞI SÖNDÜ

Baba Rzayev yeni yaradılan qurumun sədri təyin olundu; iqtidar elitasının ən zəngin simalarından sayılan Pirverdiyevin taleyi qeyri-müəyyənlik içində; zaman-zaman adı korrupsiyada hallanan "Azərenerji" bossunun istintaqa cəlb ediləcəyi də istisna deyil




yazısı səh.6-da

# Hakimiyyətdən müxalifət liderlərinə görüş çağırışı

Dəvətlilər sırasında Müsavat da var; partiya sədrləri prosesin prezidentin tapşırığı ilə başladığını deyirlər

yazısı səh.8-də



Rail Rzayev

## Sirr qalan qətlin 6-cı ili...

yazısı səh.10-da



## Əli İnsanovun 1,5 milyon dollarını müsadirə etmək istəyirlər

yazısı səh.3-də



## Aslan Aslanovun ölkədən çıxmasına qeyri-rəsmi qadağa qoyulub

yazısı səh.12-də

## Hörmətli xanımlar və bəylər!

Fevralın 12- də saat 15-də Müsavat Partiyasının qərargahında dəyərli dostumuz, mərhum Zəfər Quliyevin anım tədbiri keçiriləcək.

Tədbir MSDM, Müsavat Partiyası, EL hərəkatı, «Yeni Müsavat» qəzeti və minval.az saytının birgə təşəbbüsü ilə keçirilir.

Sizi bu tədbirdə iştiraka dəvət edirk.

❑ Hörmətlə, İsa Qəmbər

# Prezident DİN üçün yeni alınan avtomobillərə baxıb



**Prezident İlham Əliyev Bakının Azadlıq meydanında Daxili İşlər Nazirliyinin müxtəlif qurumları, o cümlədən yol polisi əməkdaşları üçün yeni alınan və müasir avadanlıqla təchiz edilən avtomobillərin istifadəyə verilməsi mərasimində iştirak edib.**

APA-nın məlumatına görə, daxili işlər naziri, general-polkovnik Ramil Usubov Silahlı Qüvvələrin Ali Baş Komandanı, prezident İlham Əliyevə raport verib.

Məlum olub ki, yol polisi əməkdaşları üçün 400, digər qurumların əməkdaşları üçün isə 300 avtomobil alınıb. Avtomobillərin hər biri yeni və müasir avadanlıqla təchiz edilib, e-patrol sistemi quraşdırılıb. Sistem yol-patrul xidməti (YPX) avtomobilinin həm dayandığı, həm də hərəkət etdiyi hallarda fəaliyyət göstərir. Sistemin üzərində nömrəoxuma, ümumi müşahidə kameraları, gecə görüntüsü üçün 30 metr mənzili olan “infrared” işıqlandırma sistemi və GPS modulu quraşdırılıb. Avtomobildə daxili kompyuter qurğusu mövcuddur ki, nömrəoxuma prosesi həmin kompyüterdə aparılır. Sistem nömrəoxuma kameraları vasitəsilə üzərində quraşdırıldığı YPX avtomobilinin yerləşdiyi zolaqdan 2 zolağadək sağda, 2 zolağadək solda hərəkət edən və ya dayanmış nəqliyyat vasitələrinin nömrə nişanlarını və sürətlərini oxumaq imkanına malikdir.

E-patrol sistemi tərəfindən isə nömrəsi və sürəti oxunmuş nəqliyyat vasitələri barədə məlumatlar tarix, saat, eləcə də GPS koordinatı da əlavə edilməklə mərkəzi serverdə arxivləşdirilir. Həmçinin nömrəsi oxunan hər bir nəqliyyat vasitəsinin axtarışda olub-olmaması, cərimə ödənişlərini uzun müddət gecikdirməsi və digər məlumatlar real vaxt rejimində sorğulanaraq YPX avtomobilində quraşdırılmış bort kompyuter qurğusuna ötürülür. Sürət həddini aşmış nəqliyyat vasitələri barədə məlumatlar da Baş Dövlət Yol Polisi İdarəsinin mərkəzi informasiya sisteminə göndərilir.

Qeyd edilib ki, saxlanılan şəxslərin daşınması üçün “Mercedes” markalı 20 mikroavtobus alınıb.

Prezident İlham Əliyev mikroavtobuslara da baxıb.




## Azay Quliyev ATƏT-in Komitə iclasına sədrlik edəcək

**ATƏT Parlament Assambleyasının (PA) qış sessiyasında qurumun Siyasi Məsələlər və Təhlükəsizlik Komitəsinin iclasını komitənin sədr müavini, Milli Məclisin üzvü Azay Quliyev aparacaq. Bunu APA-ya açıqlamasında Milli Məclisin sədr müavini, Azərbaycanın ATƏT PA-da nümayəndə heyətinin rəhbəri Bahar Muradova bildirib.**

B. Muradova qeyd edib ki, ATƏT PA-nın qış sessiyasında da Dağlıq Qarabağ məsələsi gündəmə gətiriləcək: “ATƏT-in elə bir tədbiri yoxdur ki, orada müzakirə olunan məsələlər çərçivəsində fürsətdən istifadə edib, Dağlıq Qarabağ problemini gündəmə gətirməyək. Bu dəfə də belə olacaq. Orada yay sessiyasına hazırlıq üzrə aralıq məruzələr dinləniləcək. O məruzələrdə ATƏT-in fəaliyyət sahəsinə aid olan münaqişələrin qarşısının alınması, nəticələrin aradan qaldırılması istiqamətində fəaliyyət əksini tapır. Təbii ki, həlli uzadılmış münaqişələr və Ukraynadakı hadisələrin müzakirəsi çərçivəsində də Dağlıq Qarabağ məsələsi gündəlikdə olacaq”.

Bahar Muradova ATƏT-də müzakirə olunan bütün məsələlərin Azərbaycanı maraqlandırdığını və bütün məsələlərlə bağlı Azərbaycanın öz mövqeyini səsləndirdiyini qeyd edib.

Qeyd edək ki, ATƏT PA-nın qış sessiyası fevralın 18-20-də Vyanada keçiriləcək.

## Rusiya Yanukoviçi Ukraynaya verməyəcək

**Ukraynanın sabiq prezidenti Viktor Yanukoviç və onun komanda üzvləri Kiyevə təhvil verilməyəcək. APA-nın “İnterfaks”a istinadən verdiyi məlumata görə, Rusiya baş prokuroru Yuri Çayka Ukrayna tərəfinin müvafiq tələbinə mənfi cavab verəcəyini bildirib.**

“Biz Ukrayna Baş Prokurorluğundan olan həmkarlarımızın sorğusuna mütləq cavab verəcəyik. Cavab mənfi olacaq. Çünki bu şəxslərin təqibində siyasi motivlər görürük”, - deyə o vurğulayıb.

Y. Çayka bildirib ki, Rusiya qanunvericiliyi siyasi amillərlə təqib olunan şəxslərin təhvil verilməsini nəzərdə tutmur.

### Başsağlığı

**Milli Strateji və Düşüncə Mərkəzinin sədri İsa Qəmbər Köçəri Nağıbəyliyə anasının vəfatından kədərləndiyini bildirir, dərin hüznlə başsağlığı verir.**

***

**Müsavat Partiyasının başqanı Arif Hacılı və partiyanın Divanı Köçəri Nağıbəyliyə anasının vəfatından kədərləndiyini bildirir, dərin hüznlə başsağlığı verir.**

***

**Elşad Paşasoy Fəxrəddin və Malik Mehdiyevlərə anaları Bahar xanımın vəfatından kədərləndiyini bildirir, dərin hüznlə başsağlığı verir.**


## “Elm” tədris mərkəzi

### MAGIC LANGUAGES

- Ali məktəblər xarici dillər
- kompyuter kursları
- Magistratura - dövlət qulluğu - məntiq
- 1.C. mühasibat - anbar - bank işi
- Məktəbə qədər həftədə 5 dəfə
- Sürücülük kursları (1 aya 100 AZN)

**Ünvan:** 1. «Neftçilər» metrosu 40 mert. R.Rüstəmov-44
Tel:/Faks: (012) 421-10-46; 408-44-43;
Mob: (055) 660-60-95; (050)203-55-95
**Ünvan:** 2. «İnşaatçılar» metrosu 60 metr. «İran» klinikasının yanı
Tel:/Faks: (012) 434-88-28; 408-44-74;
Mob: (055) 660-07-05




## Taner Yıldız Azərbaycana gələcək

**Türkiyənin energetika və təbii sərvətlər naziri Taner Yıldız Azərbaycana səfər edəcək. “APA -Economics”in Türkiyə mətbuatına istinadən verdiyi məlumata görə, nazir fevralın 12-də keçiriləcək “Cənub Qaz Dəhlizi” layihəsinin həyata keçirilməsi üçün cəlb edilmiş ölkələrin enerji nazirlərindən ibarət Məşvərət Şurasında iştirak etmək üçün Bakıya gələcək.**

Məlumata görə, T.Yıldızın toplantı çərçivəsində digər ölkələrin nazirləri ilə görüşləri də nəzərdə tutulub.

## Ukrayna qoşunları Mariupol ətrafındakı 5 yaşayış məntəqəsini azad edib

**Donetsk vilayətinin strateji əhəmiyyətli Mariupol şəhəri ətrafında hücuma keçən Ukrayna qoşunları azı 5 yaşayış məntəqəsini azad ediblər. APA -nın “112.ua” saytına istinadən verdiyi xəbərə görə, bunu Ukrayna Milli Təhlükəsizlik və Müdafiə Şurasının katibi Aleksandr Turçinov bildirib.**

A. Turçinov deyib ki, hücum əməliyyatı zamanı Pavlopol, Kominternevo, Lebedinskoye, Berdyanskoye, Şirokino və digər yaşayış məntəqələri nəzarətə götürülüb: “Düşmən çox ciddi itkilərə məruz qalıb. Mariupol ətrafındakı terrorçu qruplaşmalara zərbə vuran qoşunlarımız şəhərin etibarlı müdafiəsini və dinc sakinlərin artilleriya zərbələrindən qorunmasını təmin ediblər”.

Qeyd edək ki, hücum əməliyyatında əsasən Milli Qvardiyanın bölmələri iştirak edib.

## Rusiya Azərbaycanın ət məhsullarını yoxlayır

**Rusiyanın Veterinar və Fitosanitar Nəzarət üzrə Federal Xidməti (“Rosselxoznadzor”) Azərbaycanın ət məhsulları istehsalı müəssisələrinin qiymətləndirilməsi prosesini başa çatdırır.**

“Trend” xəbər verir ki, bu barədə jurnalistlərə Bakıda səfərdə olan Rusiya Federasiyası hökuməti sədrinin müavini Arkadi Dvorkoviç bildirib.

O qeyd edib ki, bu xüsusi proses yaxın vaxtlarda başa çatacaq: “Qiymətləndirmənin yekununa görə hansısa iradlar olarsa, biz onları tərəfdaşlarımıza göndərəcəyik. Ümid edirik ki, tezliklə Azərbaycanın ət məhsulları Rusiya bazarına çıxacaq”.

## Lamiyə Quliyevanın övladı ilə bağlı DNT analizinin cavabı məlum olub

**Ədliyyə Nazirliyi Penitensiar Xidmətin 4 saylı cəzaçəkmə müəssisəsində saxlanılan Lamiyə Quliyevanın dünyaya gətirdiyi övladı ilə bağlı keçirilən DNT analizinin cavabı məlum olub. Bu barədə APA-ya məlumat verən Penitensiar Xidmətin rəisinin mətbuat məsələləri üzrə köməkçisi Yaşar İsakov bildirib ki, analizin cavabı aidiyyəti orqanlara təhvil verilib.**

Xatırladaq ki, 1987-ci il təvəllüdlü Lamiyə Quliyeva 2003-cü ildə həbs edilib. Cinayət Məcəlləsinin 120-ci (qəsdən adam öldürmə) maddəsinə əsasən təqsirləndirilən L. Quliyeva və keçmiş nişanlısı Vüqar Əliyev 2003-cü ilin mayında Şəmkir rayonunun sabiq icra başçısı Aslan Aslanovun oğlu Ruslanı qətlə yetirməkdə təqsirləndirilirlər. Respublika Ağır Cinayətlərə Dair İşlər üzrə Məhkəmənin hökmü ilə Vüqar Əliyev ömürlük, Lamiyə Quliyeva isə 10 il müddətinə azadlıqdan məhrum edilib. 2010-cu ildə isə L. Quliyevanın barəsində 317-ci (cəzaçəkmə müəssisəsinin və ya istintaq təcridxanasının normal fəaliyyətini pozma) maddəsi ilə cinayət işi başlanılıb. Həmin cinayət işi ilə əlaqədar onun cəzası 5 il 6 ay artırılıb.

Hazırda Vüqar Əliyev Qobustan həbsxanasında cəza çəkir.

Onu da qeyd edək ki, L. Quliyeva bir müddət əvvəl ana olub. Həmin məsələ ilə bağlı Ədliyyə Nazirliyi və Baş Prokurorluq birgə araşdırma aparır.


## Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!

Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!

Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz və ya email yazmağınız kifayətdir.

**Telefon: (012) 434 93 01, 434 01 33**




## Nicat Quliyevə atası ilə görüşə icazə verilmir

**Həbsdə olan keçmiş nazir Nicat Quliyevin 84 yaşlı atası Əmir Quliyev ağır durumda olsa da Penitensiar Xidmət N.Quliyevə atası ilə görüşmək imkanı yaratmır. Bu barədə “Turan”a N.Quliyevin vəkili Əfqan Məmmədov bildirib.**

Ə.Məmmədov Ə.Quliyevin hazırda Bakı Sağlamlıq Mərkəzində müalicə aldığını və durumunun həddən artıq ağır olduğunu deyib. Keçmiş nazirin qanunsuz odlu silah gəzdirməyə görə ən yüksək həddə - 3 il cəza aldığını və cəzasının yarısını çəkdiyini deyən vəkil xatırladıb ki, qanun məhbusun atası ilə görüşə bilməsinə icazə verir.

Bununla bağlı vəkil fevralın 5-də Penitensiar Xidmət rəhbərliyinə müraciət etsə də hələ də cavab ala bilməyib. Təkrar olaraq bir daha müraciət etməyi nəzərdə tutur.

“Ən aşağısı şəxsin keçmiş nazir olması, atanın vəziyyətinin ağır durumda olması nəzərə alınmalıdır və həm də məhbus Bakı şəhərində atası ilə görüşəcək” deyə, Ə.Məmmədov qeyd edib.

N.Quliyev 2013-cü ilin avqustunda həbs edilib. Ona qarşı qanunsuz silah saxlamaq ittihamı irəli sürülüb. Məhkəmə onu bu cinayət əməlinə görə nəzərdə tutulan cəzanın ən yüksəkk həddi ilə 3 il müddətinə azadlıqdan məhrum edib. Keçmiş nazir artıq cəzasının yarısını çəkib.

## Hulusi Kılıç Türkiyə XİN-dəki vəzifəsindən istefa verib

**Türkiyənin Azərbaycandakı keçmiş səfiri Hulusi Kılıç Xarici İşlər Nazirliyinin İkitərəfli Siyasi Əlaqələr İdarəsinin müdiri vəzifəsindən istefa verib. APA-nın Türkiyə mətbuatına istinadən verdiyi məlumata görə, diplomat iyun ayında keçiriləcək parlament seçkilərində namizədliyini irəli sürməsi ilə əlaqədar dövlət işindən ayrılıb.**

H. Kılıç əvvəllər Türkiyənin Suriyanın Hələb şəhərində baş konsulu, 2008-2012-ci illərdə Türkiyənin Azərbaycanda səfiri vəzifəsində çalışıb. O, Azərbaycan prezidenti tərəfindən “Dostluq” ordeni ilə təltif olunan ilk türk diplomatıdır. H. Kılıç Rəcəb Tayyib Ərdoğanın baş nazir olduğu dövrdə onun protokol müdiri vəzifəsini də həyata keçirib.



**Yazarımız Tofiq Yaqubluya Azadlıq!**

# Yaşasın təpəgöz!

**Pryanikə “qrud qaleti”, vafliyə “taxta qaleti”, tennis topuna “hayva topu” və s. dediyimiz uşaqlıq illərimiz idi. Biz də bütün sovet pionerləri kimi SSRİ rəhbərlərinin kommunizm haqqındakı nağıllarına sadəlövhcəsinə inanırdıq. Sonradan öyrəndik ki, böyüklərimizin çoxu bu nağıllara inanmırlarmış. Rəhbərlər biz uşaqları rahatca aldada bilirdilər.**

Bizim iqtidar heç bunu da bacarmır. Yeni yapçılar, hətta birinci sinfə gedən ətcə balaları da aldada bilmirlər. Ötən il sentyabrın 15-də TV-lərdən biri 1-ci sinfə gedən ətcə balalarla söhbət edirdi. Əlində mikrofon tutmuş nərmə-nazik müxbir qız birincilərdən böyüyəndə nəçi olacaqlarını soruşurdu. Uşaqlardan biri müəllim, biri həkim, biri idmançı, biri deputat və s. olacağını dedi. Biri isə dedi ki, böyüyəndə hərbiçi olub Qarabağı azad edəcək. Görürsünüzmü, hətta bu ətca bala da bilir ki, indiki iqtidar torpaqlarımızı işğaldan azad edə bilməz və böyüyəndə özü bu məsələni həll etməli olacaq. Baxmayaraq, yapçılar səhərdən-axşamadək zəhləmizi aparırlar ki, Ermənistanda adam qalmayıb, iqtisadiyyatı tamam çöküb, ordusu dağılıb və s. üstəlik də Lazım kişi yetişmək üzrədir, artıq Biləcəriyə çatıb. Sabah, olmasa birigün Şuşada kabab yeyəcəyik, amma bələkdən təzəcə çıxmış uşaqları da buna inandıra bilmirlər. Çünki dediklərinə özləri də inanmırlar.

Yeri gəlmişkən, iqtidar torpaqlarımızın azad olunmamasında günahkar özünü yox, ATƏT-in Minsk Qrupunu bilir. Bütün günü onu söyməklə məşğuldur. Biləsiniz ki, o, üzdə belə edir, əslində ən çox sevdiyi beynəlxalq təşkilat elə Minsk Qrupudur. Bunun aydınlığını verim *(“aydınlıq vermək” həbsxana terminidir)*. ATƏT arada bir iqtidardan seçkiləri düz keçirməyi, insan haqlarına hörmət göstərməyi, siyasi məhbusları azad etməyi, vətəndaşların əmlakını başına uçurmamağı və s. tələb edir. YAP qırğıları dərhal əks hücuma keçirlər. “ATƏT getsin bir milyon qaçqının hüquqlarını bərpa etsin, girovluqda olan vətəndaşlarımızı azad etsin, işğal altında olan tarixi mədəniyyət abidələrimizin dağıdılmasının qarşısını alsın və s.” Yəni ATƏT çox yaramaz və haramzada təşkilatdır. Minsk Qrupu da belə bir təşkilatın övladıdır. Adama deyərlər Minsk Qrupu torpaqlarımızı azad etmir, özün hərəkətə keç. Demirsənmi Ermənistan canlı meyitdir.

Sovet vaxtı bir teletamaşaya baxmışdım. İdarənin müdiri işə həmişə gecikən, işçilərlə yola getməyən, işini yerinə yetirməyən, gününü sərxoşluqla keçirən Odnoqlazov soyadlı işçini kabinetinə çağırıb möhkəm danlayır. Odnoqlazov onun danlağına səbir və təmkinlə qulaq asır. Axırda müdir deyir ki, belə getsə, onu işdən çıxartmalı olacaq. Odnoqlazov arxayınlıqla deyir ki, məni işdən çıxara bilməzsiniz. Müdir qeyzlə soruşur ki, nəyə görə onu işdən çıxara bilməz, axı əlində kifayət qədər qanuni əsas var. Odnoqlazov deyir ki, əlbəttə ki, mən çox keyfiyyətsiz işçiyəm. Amma idarə və şəxsən sizin üçün çox vacib kadram. İclaslarda kimisə tənqid etmək, kimisə cəzalandırmaq, kiminsə karikaturasını divar qəzetinə vurmaq, kimisə on üçüncü maaşdan məhrum etmək və s. işlər lazım gələndə məndən istifadə edirsiniz. Axı idarədə hamı tanışlarınız, dostlarınız və qohumlarınızdır, onların heç birinə qarşı belə addım ata bilməzsiniz. Ona görə də məni işdə saxlamağa məcbursunuz.

“Odnaqlazov”un ruscadan türkcəmizə tərcüməsi “birgözlü” deməkdir, yəni təpəgöz. İqtidar ATƏT-i xalqa təpəgöz kimi təqdim edir, bütün uğursuzluqlarını onun üstünə atır. Camaata deyir ki, bu təpəgözün bizə irad tutmağa haqqı yoxdur, çünki yuxarıda sadaladığım problemlərimizi həll etmir. Amma onu üzdə söysə də, ürəyində çox istəyir. Bu təşkilat iqtidar üçün Odnoqlazovun rolunu oynayır. Ölkədə mövcud olan problemlər müəyyən sahələrə aiddir. Həmin sahələrə isə ailə-qohum hakimiyyətinin bir doğma üzvü rəhbərlik edir. Onlara güldən ağır söz demək olmaz. Əvəzində onun ATƏT, Minsk Qrupu kimi təpəgözü var, söy onu, bacardığın qədər söy!

**Müsavat Partiyasının başqan müavini Tofiq Yaqublu həbsxanadan göndərdiyi köşə yazısında təmsil olunduğu partiya ilə AXCP-nin birliyinə nail olunması üçün növbəti dəfə çağırış edib. Tofiq Yaqublu bildirib ki, Azərbaycanın demokratik müxalifətinin birgə fəaliyyət göstərməsinin zəruriliyi 2+2 kimi aydın məsələdir. Bu da ki, Müsavat Partiyası ilə AXCP-nin səmimi və sıx əməkdaşlığı deməkdir: “Bu partiyalar ayrı-ayrılıqda başlarına nə qədər nominal partiyalar toplayırlarsa toplasınlar, bununla nə özlərini, nə hakimiyyəti, nə də beynəlxalq mərkəzləri aldada bilməyəcəklər.**

Hamı hər şeyi çox gözəl bilir. Təəssüf ki, bu iki partiya arasında münasibətlər o qədər zorlanıb ki, indiki şəraitdə onun normallaşması mümkün görünmürmüş kimidir. Bəs onda siyasət elmi nədən ötrüdür? Çalışmalıyıq, çünki bunu həm özümüzün, həm də məmləkətimizin qurtuluşu tələb edir.

Eşitdim ki, Müsavat Partiyasının başqanı Arif Hacılı AXCP sədri Əli Kərimli ilə görüşüb. Sözsüz ki, birinci cəhddən sonra bütün əyrilərin düzələcəyinə heç sadəlövhlər də inanmazdılar. Məncə, məşhur bir mahnıda deyildiyi kimi, bu məsələdə vüqarımız dağ olub yolumuzu kəsməməlidir. Müsavatçılar “bunlarla əməkdaşlıq mümkün deyil”, “cəbhəçilərlə razılığa gəlmək çətindir”, “bunlarla bir yerdə olmaq alınmır”, cəbhəçilər isə “gördünüzmü, müsavatçılar məcbur olub ayağımıza gəldilər”, “MŞ-ni dağıdanlarla birləşmək olmaz”, “birləşsək onlar yenə ayrılacaqlar” və s. kimi ritorikanı dayandırmalıdırlar. Çünki başqa yolumuz yoxdur. Odur ki, Arif bəy başladığı bu təşəbbüsü ruhdan düşmədən davam etdirməlidir. Əks təqdirdə, belə çıxacaq ki, o, bu təşəbbüsü real nəticə üçün yox, qarşılıqlı ittihamlarda əlavə bir arqument qazanmaq üçün edibmiş”.

# Tofiq Yaqublunun “birləşin” təklifinə Müsavatdan reaksiya

## “Biz üzərimizə düşəni etdik…”



Səxavət Soltan

Göründüyü kimi, Tofiq Yaqublu Müsavat başqanının növbəti dəfə AXCP sədri ilə görüşməsini təklif edir. Bəs Arif Hacılının təklifi ilə bu yaxınlarda Əli Kərimli ilə keçirilən görüşdən sonra AXCP yetkililərinin Müsavata ünvanlanan aşağılayıcı fikirlərdən sonra birlik və görüş təşəbbüsü mümkündürmü? Xoşməramlı təşəbbüsə AXCP yetkililərinin məlum yanaşmalarından sonra növbəti dəfə eyni addımı atmanın mənası qalırmı?

**Müsavat başqanının müavini Səxavət Soltanlı bildirdi ki, Tofiq Yaqublu həbsdə olduğu üçün ola bilsin informasiyaları lazımi qədər toplaya bilmir. Amma bu fikirlərində də yenə müsavatçı kimi, ağayana düşünür. Lakin artıq Müsavat üzərinə düşən böyüklüyü edib, bundan sonra digər qüvvələr düşünüb-daşınmalıdır:** “Bu istiqamətdə qınaqlar və təkliflər də yəqin ki, AXCP-yə yönəlməlidir. Məntiq də bunu deyir ki, bu məsələdə AXCP düşünməli və qınanmalıdır. Müsavatın xoş məramına adekvat münasibət göstərmək də AXCP-yə daha çox lazımdır. Top onların meydanındadır. Biz üzərimizə düşəni etdik, yeni vəziyyət yaranacaqsa, yəqin bir daha müzakirə olunacaq”.

❑ **E.SEYİDAĞA**

# Hacı Məmmədovdan təzə xəbər

## Sabiq baş əməliyyat müvəkkilinin kamerasında televizor və radio var




Hacı Məmmədov

**İşgəncələrə Qarşı Azərbaycan Komitəsinin sədri, hüquq müdafiəçisi Elçin Behbudov və müavini Elçin Şirinov Milli Təhlükəsizlik Nazirliyinin (MTN) müvəqqəti saxlanma yerində və istintaq təcridxanasında monitorinq keçiriblər.**

Bu barədə APA-ya məlumat verən E.Behbudov bildirib ki, orada saxlanılan Daxili İşlər Nazirliyinin (DİN) sabiq baş əməliyyat müvəkkili Hacı Məmmədovun vəziyyəti ilə maraqlanıblar: “Bəzi mətbuat orqanlarında Hacı Məmmədovun psixoloji problemlərinin olması barədə məlumatlar yayılıb. Bunlar yalandır. Hacı Məmmədovun psixoloji vəziyyəti normaldır. Evdən gələn azuqəni qəbul edir. Qanunvericiliyə uyğun olaraq kamerasında televizor və radio var”.

**E.Behbudov orada saxlanılan jurnalist Rauf Mirqədirov və hüquq müdafiəçisi Arif Yunusla da maraqlandığını deyib:** “Onların da səhhəti normaldır. Hər hansı problem yoxdur. Leyla Yunus da dindirilmə ilə bağlı olaraq bir həftə orada saxlanılıb”.

**Hüquq müdafiəçisi orada saxlanılan Qafqaz Müsəlmanları İdarəsinin sabiq əməkdaşı Elşən Mustafayevlə də görüşdüklərini bildirib:** “Elşən Mustafayevin saxlanma şəraitindən və ona qarşı münasibətdən şikayəti yoxdur. Daha sonra biz orada saxlanılan Zərdab rayon sakini Mikayılov Rövşən Baba oğlu ilə də görüşdük. Həmin şəxs 4 ay Suriyada döyüşlərdə iştirak edib. İŞİD silahlı birləşməsinin üzvü olub və orada təlimlər keçib. Oraya getməyə peşman olduğunu bildirdi”.




# Əli İnsanovun 1,5 milyon dollarını müsadirə etmək istəyirlər

## “Banque de Luxembourg” bankına yatırılan pulları sabiq nazir “İnsanovin” dərmanının satışından əldə edib

**Fevralın 10-da Bakı Ağır Cinayətlər Məhkəməsində məhkum sabiq səhiyyə naziri Əli İnsanovun adına “Banque de Luxembourg” kommersiya bankında aşkar edilmiş və 2000-2002-ci illərdə qoyulan 1,5 milyon ABŞ dollarının müsadirə olunması məsələsinə baxılması ilə əlaqədar Bakı Şəhəri Nəsimi Rayon İcra Şöbəsinin təqdimatına baxılıb.**

Prosesdə Əli İnsanovun hüquqlarını müdafiə edən vəkil Ağaveys Şahverdi “Banque de Luxembourg” bankına yatırılan 1,5 milyon ABŞ dollarının Əli İnsanovun ixtira etdiyi “İnsanovin” dərmanının satışından yığılan vəsait olduğunu qeyd edərək bununla bağlı müvafiq orqanlara sorğular verilməsi, həmçinin Əli İnsanovun işlədiyi dövrdə vergi ödəyicisi kimi dövlət büdcəsinə ödədiyi vergilər barədə Vergilər Nazirliyinə də sorğu göndərilməsi barədə vəsatətlər verib.

Məhkəmə vəsatətlərin təmin olunması barədə qərar qəbul edib.

Qeyd edək ki, Ə.İnsanov 2006-cı ildə dövlət çevrilişinə cəhd ittihamı ilə həbs olunub. İstintaq zamanı ona qarşı korrupsiya cinayətləri irəli sürülüb və o, Ağır Cinayətlərə Dair İşlər üzrə Məhkəmənin hökmü ilə 11 il azadlıqdan məhrum edilib.

Məhkəmənin qərarı ilə Əli İnsanova məxsus olan mülklər, maşınlar satılıb, əldə olunan pullar dövlətin hesabına köçürülüb.

❑ **Xəbər xidməti**

YENİ MÜSAVAT
N 31 (6059) 11 fevral 2015

# "Bəzi deputatlar Aslan Aslanovu müdafiə etməyə görə növbəyə dayanıblar"

## Azər Ayxan: "Onlar açıqca etiraf edirlər ki, hakimiyyət daxilində qanlı kompromat savaşı gedir"

**Türmədə ana olan məhbus Lamiyə Quliyeva mövzusu mətbuata qarşı hücumları da artırıb. Bəzi iqtidar deputatları və redaktorlar mövzunu gündəmdə saxlayan, mütəmadi bu barədə yazan media orqanlarını ağır dillə tənqid və təhqir edir. Son bir həftədə isə sözügedən hücumlar xüsusən intensivləşib.**

Mətbuata olan bu qınaq dolu hücumlarla bağlı "Yeni Müsavat" qəzeti baş redaktorunun birinci müavini **Azər Ayxanla** söhbətləşdik. A.Ayxan xatırlatdı ki, L.Quliyeva mövzusu ortaya çıxandan iqtidar mətbuatı və hakimiyyətin siyasətini müdafiə edən bir sıra deputatlar heç də xoş olmayan mövqe tutublar. Müsahibimizin sözlərinə görə, onlar bu mövzuda yazan qəzetləri sözün əsl mənasında şantaja məruz qoyur, mənəvi terror edirlər: "Əllərində heç bir fakt olmadan deyirlər ki, qəzetlər Lamiyə Quliyeva mövzusunu pul və sifariş aldıqları üçün gündəmdə saxlayırlar. Bir qədər də irəli gedərək adı bu mövzuya qarışmış Şəmkirin sabiq icra hakimiyyəti başçısı Aslan Aslanovu mətbuatda müdafiə edirlər. Deyirlər ki, qəzetlər Aslan Aslanovu vurmaq üçün hardansa, kimlərdənsə pul alıblar. Onlar dolayısı ilə hakimiyyətdə böyük bir informasiya müharibəsinin getdiyini və bu savaşda iştirak edən tərəflərdən birinin müstəqil mətbuata para ötürərək kimlərisə vurmaq xətti götürdüyünü iddia edirlər".

**A.Ayxan bildirdi ki, əslində burda A.Aslanov tək deyil. Onun sözlərinə görə, Penitensiar Xidmətin rəisi Mədət Quliyevin də mətbuatda sifarişlə "vurulması" iddiaları havada uçuşur. Baş redaktor müavini M.Quliyevin ötən həftə verdiyi müsahibədə açıq şəkildə bu xətti tutduğunu, "bir çox saytlar məni sifarişlə hədəfə alırlar" mesajı verdiyini xatırlatdı:** "Əcəba, biz sifarişmi yerinə yetiririk? Kimdən pul alıb, sifariş qəbul edib Mədət Quliyevi, Aslan Aslanovu və digərlərini "vururuq"? Bu iddianın müəllifləri dediklərinin mənasını, mahiyyətini anlamırlarmı? Adamlar açıqca etiraf edirlər ki, təmsil olunduqları düşərgədə "qanlı" informasiya müharibəsi gedir. Bəs ənənəvi təbliğat necədir? YAP-çılar demirlərmi ki, "hakimiyyət monolitdir. İqtidarda fikir ayrılığı yoxdur, heç kim bir-biri ilə düşmənçilik etmir". Bunun əksi olaraq isə bildirirlər ki, müxalifətçilər bir-birini qırırlar. İndi belə çıxır ki, Siyavuş Novruzov, Bəxtiyar Sadıqov və digərləri hakimiyyətdə informasiya müharibəsinin, kompromat savaşının getdiyini apaçıq ortaya qoyurlar".

**Müsahibimiz dedi ki, kifayət qədər pulu olan Aslan Aslanovu müdafiə etmək bəzi redaktor və deputatlar üçün cəlbedici ola bilər. Onun sözlərinə görə, yeri gələndə İlham Əliyevi bu şəkildə müdafiə etməyənlər Aslan Aslanovun müdafiəsi üçün növbəyə dayanıblar:** "Anladıq, başa düşdük, umacaqları var. Amma daha bu umacaqlarına, umsuqluqlarına bizi niyə alət edirlər, qarışdırırlar?! Biz nə edək?! Ölkənin ən aktual, ən tirajlı mövzusunda yazmayaqmı? Biri Lamiyə Quliyeva mövzusunu cəmiyyətin seksual çatışmazlığı adlandırır, o biri bunu sifarişlə yazılan yazılar kimi təqdim edir və sair. Amma biz buna bir qəzetçi kimi yanaşırıq. Olay baş verib: həbsxanada bu hakimiyyətdə təmsil olunmuş ən odioz məmurlardan biri tərəfindən ağır cəzaya məhkum olunmuş bir qadın əsrarəngiz şəkildə övlad dünyaya gətirib. Uşağın kimdən olub-olmaması qalsın bir yana, hadisənin özü başdan-ayağa cinayət və qanunsuzluqla doludur. Az qala bir aydır qəzetlər Lamiyənin cəza evində hansı şəkildə uşaq dünyaya gətirməsini araşdırır. Bunu dəstəkləyəcək, haqq qazandıracaq bircə qanunauyğunluq yoxdur. O qadının cəza çəkdiyi türmənin keçmiş rəisi də, ölkənin ən savadlı və təcrübəli hüquqşünasları da, vaxtilə türmədə yatmış məhbus qadın da subay bir qadın məhkumun kimdənsə uşağa qalmasının qanunsuz və cinayət olduğunu söyləyirlər. Araşdırmayaqmı, bu qanunsuzluğu yazmayaqmı?!"



"Bu mövzuya maraq nə seksual çatışmazlıq sindromudur, nə də sifariş" deyən A.Ayxanın sözlərinə görə, söhbət baş vermiş dəhşətli bir cinayətdən gedir. Onun sözlərinə görə, məhz bu səbəbdən bu cinayətin müəllifləri ifşa olunub, öz cəzalarını almayınca nə ictimaiyyətin bu mövzuya marağı azalacaq, nə də medianın.

**Baş redaktor müavini onu da dedi ki, Vüqar Əliyevin, Lamiyə Quliyevanın valideynlərinin müsahibələrini oxuyanda insan dəhşətə gəlir. Aslan Aslanov hamilə qadınları belə çəkinmədən türməyə basdırıb - oğlunun ölümündə heç bir günahları olmaya-olmaya:** "Əslində ən böyük mənəviyyatsızlıq və haqsızlıq budur və bu müzakirə olunmalıdır. Mətbuatı qınamaq isə indi ən asan məsələdir".

❑ Sevinc TELMANQIZI

# Bu gün Minskdə Ukraynaya dair kritik toplantı olacaq

## Rusiya, Fransa, Almaniya və Ukrayna liderləri "Normand formatı" üzrə bir araya gələcəklər; Qərbin Kiyevə ölümcül silahlar verib-verməyəcəyi, "sülh, yoxsa müharibə" sualına qəti cavab bu görüşdən sonra bilinəcək...

**Ukraynanın cənub-şərqində hərbi əməliyyatlar dünən də davam edib. Hələ ki Qərbin permanent səyləri döyüşlərin dayanmasına gətirməyib. ABŞ və Avropa Birliyinin Rusiyaya qarşı sanksiyaları daha da sərtləşdirəcəyi, hətta Ukrayna tərəfinə özünü qorumaq üçün müasir silahlar veriləcəyi barədə xəbərdarlıqlar da Kremlə effektli təsir göstərməyib.**



Bu üzdən bir sıra analitiklər Ukrayna böhranının Qərb-Rusiya hərbi qarşıdurmasına gətirəcəyi haqda bəyanatlar verməkdədirlər. Məhz belə kritik məqamda bu gün - fevralın 11-də Minskdə "Normand formatı" üzrə Ukrayna, Fransa, Rusiya prezidentləri və Almaniya kansleri arasında Donbas konfliktinin nizamlanması üzrə danışıqlar başlayacaq.

Ukrayna prezidenti Pyotr Poroşenko Minsk danışıqları ilə bağlı gözləntilərini yerli mediaya açıqlayarkən deyib ki, görüşdə sülh planının qəbul ediləcəyinə ümid edir. "Ukrayna, Almaniya, Fransa, Rusiya xarici işlər nazirlikləri təmsilçilərinin Berlində keçirdikləri görüş son dərəcə gərgin olsa da "Normand formatı"nda dövlət başçılarının danışıqları üçün nəticələr əldə etmək mümkün oldu". Bu sözləri isə Ukraynanın Almaniyadakı səfiri Andrey Melnik öz twitter hesabında yazıb.

Bu arada bəlli olub ki, Avropa Birliyi xarici işlər nazirləri Ukraynanın təşəbbüsü ilə Rusiyaya qarşı iqtisadi sanksiyaların sərtləşdirilməsini planının müzakirəsini təxirə salıblar. Plan fevralın 16-dan qüvvəyə minməli idi. Lakin qərarda bildirilirdi ki, hər şey Ukrayna ətrafında situasiya və Moskvanın davranışından asılı olacaq.

**Bu haqda Polşanın xarici işlər naziri Qjeroq Sxetına deyib ki, Ukrayna belə bir təşəbbüsü Rusiyanın fevralın 11-də təklif olunacaq sülh planını imzalayacağına ümid etdiyi üçün irəli sürüb. Sitat:** "Belə bir xahiş Ukraynadan gəlib. Kiyev ümid edir ki, Kreml Donbasla bağlı sülh planın imzalayacaq və bölgədə davamlı atəşkəs elan ediləcək. Bu təşəbbüs olmasaydı, yeni sanksiyalar müzakirə ediləcəkdi..."

Qərbin "Normand formatı" üzrə əsas hədəfləri bəllidir - indiki mərhələdə Donbasda atəşkəsə nail olmaq, Ukraynanın ayaq üstə durub köklü islahatları geridönməz şəkildə irəli aparmasına şərait yaratmaq, ən azından yaza kimi vaxt udmaq. Təbii ki, Rusiya ilə danışıqlarda Ukraynanın ərazi bütövlüyü müzakirə mövzusu deyil və olmayacaq.

Bu mesajı ABŞ və Almaniya liderləri - Barak Obama və Angela Merkel arasında sraöağün Vaşinqtonda keçirilən görüşdə bir daha səsləndi. Liderlər aydın formada bəyan elədilər ki, Qərb haqq işi uğrunda mübarizə aparan ukraynalıların arxasından çəkilməyəcək.

Amerika prezidenti xüsusi olaraq vurğuladı ki, ABŞ Rusiya qarşısında geri çəkilmək niyyətində deyil və Ukrayna məsələsində güzəştə getməyəcək. Hətta Obama lazım gələrsə, rəsmi Kiyevə özünü qorumaq üçün ən ölümcül silahların veriləbiləcəyinin mümkünlüyünü anons etdi.

Qeyd edək ki, artıq ABŞ Konqresində bununla bağlı qanunverici aktın qəbul edilməsi yönündə işlər gedir və həm respublikaçı, həm də demokrat senatorlar arasında hər hansı fikir ayrılığı yoxdur.

❑ Siyasət şöbəsi

# XİN separatçılarla görüşə münasibət bildirib

**"Azərbaycan tərəfindən dəfələrlə vurğulanıb ki, Azərbaycan Respublikasının Dağlıq Qarabağ bölgəsinin azərbaycanlı və erməni icması arasında təmaslar olmalıdır. Avropa İttifaqı bu təmasların təşviq edilməsində öz rolunu oynaya bilər".**

APA-nın məlumatına görə, bunu Xarici İşlər Nazirliyinin sözçüsü Hikmət Hacıyev Avropa İttifaqının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Herbert Salberin İrəvan şəhərində separatçı rejimin qondarma "xarici işlər naziri" Karen Mirzəyanla görüşünə aydınlıq gətirərkən deyib.

Onun sözlərinə görə, bu görüş barədə Azərbaycan tərəfinin əvvəlcədən məlumatı olub: "Azərbaycan Respublikasının Dağlıq Qarabağ bölgəsində yaşayan ermənilər də Azərbaycan Respublikasının vətəndaşıdırlar. Avropa İttifaqının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Herbert Salberin rəhbərlik etdiyi nümayəndə heyəti 2014-cü ilin oktyabr ayında Azərbaycanda səfərdə olan zaman Azərbaycan Respublikasının Dağlıq Qarabağ bölgəsinin azərbaycanlı icmasının üzvləri ilə də görüşüb və münaqişənin həllinə dair onların baxışlarını dinləyib".

YENİ MÜSAVAT
N 31 (6059) 11 fevral 2015

**Fevralın 10-da Bakı Ağır Cinayətlər Məhkəməsində İnsan Haqları Klubunun sədri Rəsul Cəfərovun növbəti məhkəmə prosesi keçirildi. Əvvəlki proseslərdə olduğu kimi, yenə də ictimai fəallar, xarici ölkə təşkilatları və səfirliklərin nümayəndələri hüquq müdafiəçisinə dəstək olmaq üçün məhkəmə binasının önünə toplaşmışdılar.**



# Rəsul Cəfərov məhkəmədə ifadə verməkdən imtina etdi

## İstintaqın "zərərçəkmiş" kimi tanıdığı şəxslər hüquq müdafiəçisinə qarşı iddialarının olmadığını dedilər

Proses başlamamışdan əvvəl məhkəmə zalının daha kiçik zalla əvəz olunması iştirakçıların əksəriyyətinin bayırda qalmalarına səbəb oldu. Bu da prosesə qatılmaq istəyənlərin etirazı ilə nəticələndi.

Məhkəmə saat 10:30-da başladı. Hakim Rasim Sadıxov proses barədə məlumat verərək bildirdi ki, əvvəlkilərdən fərqli olaraq, bu dəfə zərərçəkmiş şəxs Seymur Verdizadə ilk dəfə məhkəmədə iştirak edir. O, zərərçəkmiş şəxsə hüquqları barədə məlumat verdi.

Daha sonra hakim məhkəmənin iş üzrə sübutlarla və təqsirləndirilən şəxs, zərərçəkmişlər, şahidlərin ifadələri ardıcıllığı ilə davam edəcəyini elan etdi.

**Təqsirləndirilən şəxs Rəsul Cəfərov ifadə verməkdən imtina etdi:** "Mənə qarşı irəli sürülən ittihamlar aydın deyil. Bu səbəbdən məhkəmənin indiki anında ifadə verməkdən imtina edirəm. İstintaqda verdiyim ifadələri təsdiq edirəm. Bundan sonra nə sual verilsə, cavab verməkdən imtina edəcəm".

Rasim Sadıxov Rəsul Cəfərovun bu qərarının onun işini ağırlaşdıracağını və istintaqdakı ifadələrinin yalan kimi qəbul ediləcəyini bildirdi. Vəkil Əlibaba Rzayev Rəsul Cəfərovun istintaqdakı ifadəsinin indi verəcəyi ifadənin tərkib hissəsi olduğunu qeyd etdi. Ardınca təqsirləndirilən şəxsin 31 iyul və 2 avqustda istintaqda verdiyi ifadələr oxundu.

Daha sonra təqsirləndirilən şəxs ifadə vermədiyinə görə cinayət işi materiallarında qaranlıq qalan hissələrlə bağlı, hakimlər və dövlət ittihamçısı öz suallarını verdilər.

Rəsul Cəfərov verilən sualları cavablandırdı.

**Sual-cavab 1 saata yaxın davam etdi. Hüquq müdafiəçisi ona qarşı irəli sürülən 195 min manat yeyinti ilə bağlı ittihamların yalan olduğunu vurğuladı:** "Biz vergilərin qəbzlərini, eləcə də pulu hara xərcləmişiksə onun sənədini istintaqa təqdim etmişik. Mənə 195 min manat mənimsəmə ittihamı irəli sürülüb. Əslində burada da qanunsuzluq var. Hesablayanda görürük ki, bu istintaq sənədləri ilə 179 min manat edir. Apardığımız layihələrlə bağlı bütün qəzetlər yazıblar. Mən təkcə qrant layihələri həyata keçirməmişəm, ianələr də olub. Problemi olan şəxslərə kömək etmişəm. Daha çox 2700 manat yeyinti çox qabardılır. Bunu elan etmək zorundayam. Bu məbləğ həbsdə olan məhbus İlkin Rüstəmzadənin ailəsinə yardım kimi verilib".




Rəsul Cəfərova verilən suallar bitdikdən sonra hakim zərərçəkmişlərin ifadələrinin başlandığını elan etdi. Şahidlər proses zalından çıxarıldı.

**Zərərçəkmiş Anar Cəbiyev (Nağılbaz) ifadəsində bunları dedi:** "Rəsul Cəfərovu çoxdan tanıyıram. Qohum deyilik, amma yaxın qonşuyuq. Onunla heç bir düşmənçiliyim yoxdur. Ortaq bir layihəmiz olub. Əvəzində lazımi pulu almışam. Layihə prezident seçkiləri ilə bağlı idi. Mahnıda müxalif mövqeli heç nə yox idi. Natəvan Həbibi, Elşad Xose və başqa iki tanınmış müğənni də iştirak edirdi. Amma mahnı mənə məxsus idi. 1 aya hazır oldu və avqust ayında təqdim etdim. Pulu nağd şəklində aldım. Klip üçün 200 manat pul almışam. Mahnı xalqı seçkilərə ruhlandırmaq üzərində qurulmuşdu. İki dəfə istintaqda ifadə vermişəm. Mənə qarşı heç bir təzyiq olmayıb. Amma təəssüf ki, istintaq materiallarında məbləğ düzgün göstərilməyib. İstintaqda əvvəl şahid, sonra zərərçəkmiş qismində ifadə vermişəm".

**Anar Nağılbazın ifadəsindən sonra prokuror Mübariz Mirili ziddiyyətli məqamların ortaya çıxdığını bildirdi. O dedi ki, alınan məbləğlə bağlı fikirlər təzadlıdır. Zərərçəkmiş fikrini belə əsaslandırdı:** "Şahid kimi ifadələrimin Rəsul bəyin işində ciddi rol oynamayacağını dedilər. Hamıya məlumdur ki, mən Rizvan Cəbiyevin oğluyam. İmanlı şəxslərik. İfadə verdiyim zaman 1200 manat aldığımı zənn edirdim. Evdə baxdım ki, 1720 manat almışam. İfadəmin böyük rol oynamayacağını zənn edib bu məbləğ məsələsinə fikir vermədim".

**Məhkəmədə ilk dəfə iştirak edən zərərçəkmiş Seymur Verdizadə növbəti proseslərdə işləri ilə əlaqədar iştirak edə bilməyəcəyini, indi ifadə vermək istədiyini söylədi. Seymur Verdizadənin dediklərindən:** "Rəsul Cəfərovu ilk dəfə burada görürəm. Mənimlə jurnalist Ülvi Həsənli əməkdaşlıq edirdi. Qəzetimdə işləmək üçün mənə müraciət etdi. İşlədiyi müddətdə mənə dedi ki, belə bir layihə var. 1 saat çıxış edəcəksən, qonorar alacaqsan. Sonralar çıxışımın müqabilində 150 manat alanda layihənin rəhbərinin Rəsul Cəfərov olduğunu bildim. Bir gün Ülvi Həsənli mənə dedi ki, sən 200 manat almalı imişsən. Bir-iki günə 50 manatı verəcəm. Mən təbii ki, bundan imtina etdim. Onun tələbə olduğunu nəzərə aldım. 1 saata 150 manat almışam, camaat heç 5 saata bu məbləği ala bilmir. İndi nəyə görə zərərçəkmiş olmalıyam? Jurnalist kimi insanların hüquqlarını müdafiə edirəm. Heç özüm də bilməmişəm, nə üzrə istintaqa cəlb olunmuşam. Yalnız dekabr ayında zərərçəkmiş olduğumu anlamışam. Layihədən sonra Rəsul Cəfərovla heç bir əlaqəm olmayıb".

**Digər zərərçəkmiş şəxs Əmrah Heybətov Rəsul Cəfərovla uşaqlıq dostu olduğunu bildirdi:** "Rəsul bəyi yaxından tanıyıram. Sinif yoldaşı və qonşu olmuşuq. Ən yaxın uşaqlıq dostumdur. Özümü zərərçəkmiş kimi tanımıram. Üç dəfə istintaqda ifadə vermişəm. Mənə dedilər ki, təcili Rəsulun sənə ödədiyi məbləği deməlisən. Mən bildirdim ki, yadımda deyil. Onlar israrla tələb etdilər. Müstəntiq Qasım Məmmədov dedi ki, Rəsulun və sənin bu məsələdə günahı yoxdur. Sadəcə, ortada 9500 manat söhbəti gedir. İkinci ifadəmdə bir daha məbləğ tələb edəndə, təxminən 800-1000 manat arası olduğunu bildirdim. Sonra evə gələndə təsadüfən əlimə qəbz keçdi. Gördüm ki, mənə 1720 manat ödənilib. Təcili istintaqa müraciət etdim. 6 dekabrda istintaqa gəldiyim zaman Anar Nağılbazla rastlaşdım. O, mənə açıqca dedi ki, mənə dedilər, əgər zərərçəkmiş kimi ifadə verməsən, özün zərər çəkəcəksən. Onda anladım ki, təzyiqlər var. Qasım Məmmədov məndən ümumi soruşdu ki, gördüyün iş neçəyə başa gələr? Özü də dedi ki, ifadə üçün soruşmur. Mən də bildirdim ki, 400 manata başa gələ bilər. İndi görürəm ki, həmin fikirlərimi ifadəmin içərisinə yazıblar. Rəsul yaxınım olub. Ona qarşı zərrə qədər iddiam yoxdur".

**Məhkəmədə iştirak edən 3 zərərçəkmişin ifadəsindən sonra hakim prosesin 24 fevral saat 10:30-a təxirə salındığını elan etdi. Növbəti prosesin qalan iki zərərçəkmişin və şahidlərin ifadələri ilə davam edəcəyini bildirdi.**

**❑ Cavanşir ABBASLI**
**Foto müəllifindir**

# Məhkumun öldürülməsinə etiraz edən dustaqlar Qobustana göndərildi

## 14 saylı cəzaçəkmə müəssisəsində məhkumların bir qisminə məhkəmə qurulub



**Məhkum Elşad Babayevin saxlanıldığı 14 saylı cəzaçəkmə müəssisəsində öldürülməsinə etiraz edən məhkumların bir qisminə məhkəmə qurulub. Bu haqda "Yeni Müsavat"a daxil olan məlumatda deyilir ki, dustaq yoldaşlarının vəhşicəsinə döyülərək öldürülməsinə etiraz edən 10-a yaxın məhkum cəzaçəkmə müəssisəsində hakim qarşısına çıxarılıb. Məhkumların prosesin ərazi üzrə Qaradağ Rayon Məhkəməsində baxılması ilə bağlı vəsatətlərinə baxılmayıb. Cəzaçəkmə müəssisəsində baş tutan məhkəmədə məhkumların cəza müddəti artırılıb. Məhkumları növbəti dəfə məhkum edən məhkəmə hökmünə görə onlar təyin olunan cəzanı Qobustan qapalı həbsxanasında çəkəcəklər. Qobustana göndərilən məhkumlardan 2-nin adını dəqiqləşdirə bilmişik - İlham Həsənov və Rza Ağalı.**

E.Babayevin öldürülməsindən sonra 14 saylı cəzaçəkmə müəssisəsində məhkumların etiraz aksiyası olub. Bundan sonra müəssisəyə qara maskalılar daxil olaraq məhkumlara divan tutublar. 11 məhkum Vərəmli Məhkumlar üçün Müalicə Müəssisəsinə ("Tubzon") köçürülüb. Məhkumların ailələri yaxınlarının "Tubzon"a köçürülməsinin Elşad Babayevin öldürülməsinin gizlədilməsinə, ört-basdır olunmasına xidmət etdiyini bildiriblər.

Yada salaq ki, ötən il dekabrın 22-də məhkum Elşad Babayev 14 saylı cəzaçəkmə müəssisəsində döyülərək öldürülüb. Bundan sonra məhkumun meyiti Qaradağ Rayon Məhkəmə Tibb Ekspertizasına aparılıb. Bacısı S.Babayeva orada qardaşının fotolarını çəkib və ictimailəşdirib. İş üzrə araşdırma aparmalı olan istintaq orqanına də həmin fotoları təqdim edib. Qətldən 1 ay sonra Qaradağ Rayon Prokurorluğunda Cinayət Məcəlləsinin 309.1-ci - vəzifə səlahiyyətlərini aşma maddəsi ilə cinayət işi başlanıb. Prokurorluq orqanının bir məhkumun döyülərək, işgəncə verilərək öldürülməsinə yanaşması obyektiv araşdırmanın aparılacağını bəri başdan şübhə altına alır.

**❑ E.MƏMMƏDƏLİYEV**

# Prokuror Sumqayıt xəvariclərinə cəza istədi



**Fevralın 10-da Bakı Ağır Cinayətlər Məhkəməsində Sumqayıt şəhərində xəvariclərlə sələfilər arasında baş vermiş silahlı münaqişə ilə əlaqədar həbs edilmiş şəxslərin cinayət işi üzrə məhkəmə prosesi davam etdirilib.**

APA-nın məlumatına görə, prosesdə dövlət ittihamçısı çıxış edib. O, təqsirləndirilən şəxslərin 8 ildən 9 ilə qədər azadlıqdan məhrum edilmələrini istəyib.

Proses fevralın 19-da davam etdiriləcək.

Qeyd edək ki, 2013-cü il dekabrın 11-də Sumqayıtda xəvariclərlə sələfilər arasında dini zəmində baş vermiş silahlı münaqişə nəticəsində şəhər sakinlərindən Anar Rəhimov və Elmar Məmmədli bıçaq xəsarətləri, Təzə Corat qəsəbəsinin sakinləri Elşən Musayev və Elnur Nəzərəliyev isə qəlpə yaraları alıblar.

Polis və prokurorluq orqanları əməkdaşlarının həyata keçirdikləri istintaq hərəkətləri və əməliyyat-axtarış tədbirləri nəticəsində hadisədə təqsirli bilinən Murad Məhərrəmov, Kənan Mehrəliyev, Elçin Əkbərov, Amil Tağıyev, Əhməd Salmanov, Anar Mirzəyev, Zaur Paşayev, Elman Məmmədli, Anar Rəhimov, Firudin Musayev, Vüqar Abdullayev, Elçin Mirzəyev, Cəlal Mikayılov və digər 3 nəfər həbs edilib. Adları qeyd olunan 13 nəfərin cinayət işi ayrıca icraya verilib.

Keçirilmiş baxış zamanı Əhməd Salmanovun evindən 110 qram həşiş, 5 kiloqram civəyə oxşar maddə, qanunla qadağan olunmuş 44 ədəd müxtəlif məzmunlu dini ədəbiyyat və 30 disk, Kənan Mehrəliyevin evindən isə 1 ədəd "F-1" qumbarası, 1 qumbara alışqanı, 123 ədəd avtomat patronu, qanunla qadağan olunmuş 30 ədəd müxtəlif məzmunlu dini ədəbiyyat və 30 disk aşkar edilərək götürülüb.

R.Musayevin baş və bədəninin müxtəlif nahiyələrində bıçaq xəsarətlərinin olması aşkar edilib.

Yeni MÜSAVAT
N 31 (6059) 11 fevral 2015

# "Azərenerji" ASC-nin əsas səlahiyyətləri "Azərişıq"a verildi

**Torpaq və Xəritəçəkmə Komitəsinin ləğvindən sonra daha bir iri qurumun səlahiyyətləri əlindən alınıb. President.az saytının məlumatına görə, prezident İlham Əliyevin imzaladığı sərəncamda deyilir ki, "Bakıelektrikşəbəkə" Açıq Səhmdar Cəmiyyətinin adı dəyişdirilərək "Azərişıq" Açıq Səhmdar Cəmiyyəti adlandırılsın.**

**Sərəncamın digər bəndində qeyd edilir:** "Müəyyən edilsin ki, "Azərişıq" Açıq Səhmdar Cəmiyyəti Azərbaycan Respublikasının ərazisində elektrik enerjisini satın almaqla istehlakçıların etibarlı, təhlükəsiz və səmərəli şəkildə elektrik enerjisi ilə təchizatını həyata keçirir, bu sahədə yeni texnologiyaların tətbiqini, maddi-texniki bazanın müasirləşdirilməsini və ondan səmərəli istifadəni, habelə bu sahənin inkişafı ilə bağlı digər işləri yerinə yetirir".

Nazirlər Kabinetinə tapşırılıb ki, iki ay müddətində Azərbaycan Respublikasının ərazisində "Azərenerji" Açıq Səhmdar Cəmiyyəti tərəfindən həyata keçirilən elektrik enerjisi ilə istehlakçıların təmin olunması fəaliyyətinin "Azərişıq" Açıq Səhmdar Cəmiyyətinə ötürülməsi, o cümlədən istehlakçıların elektrik enerjisi ilə təchizatı üçün zəruri olan və "Azərenerji" Açıq Səhmdar Cəmiyyətinin balansındakı əmlak və digər avadanlıqların "Azərişıq" Açıq Səhmdar Cəmiyyətinin balansına verilməsi üçün tədbirlər görsün; "Azərenerji" Açıq Səhmdar Cəmiyyətinin və "Azərişıq" Açıq Səhmdar Cəmiyyətinin ümumi yığıncağının səlahiyyətlərini həyata keçirən dövlət orqanları barədə təkliflərini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin; "Azərenerji" Açıq Səhmdar Cəmiyyətinin və "Azərişıq" Açıq Səhmdar Cəmiyyətinin yeni nizamnamələrini və strukturlarının layihələrini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin.

Prezidentin digər sərəncamı ilə indiyədək "Bakıelektrikşəbəkə"yə rəhbərlik etmiş Balababa Hüseynağa oğlu Rzayev "Azərişıq" Açıq Səhmdar Cəmiyyətinin sədri təyin edilib.

***

Bəzi ekspertlər bu məsələni şərh edərkən bildirdilər ki, neftin qiymətinin ucuzlaşması, gəlirlərin azalması şəraitində hakimiyyətin xərcləri azaltmaq üçün bir-birini təkrarlayan və paralel qurumların birləşdirməsi, eyni səlahiyyətlərin bir quruma tabe etdirilməsi siyasəti məqsədəmüvafiqdir. Hətta belə təkliflər də edilir ki, Vergilər və Maliyyə nazirlikləri və Əmlak Komitəsi də birləşdirilə bilər. Bundan başqa, struktur islahatları çərçivəsində bir neçə baş idarənin ləğv olunaraq daha böyük paralel quruma birləşdiriləcəyi haqda da informasiyalar var.


Etibar Pirverdiyev


Baba Rzayev

# Etibar Pirverdiyevin işığı söndü

## Baba Rzayev yeni yaradılan qurumun sədri təyin olundu; iqtidar elitasının ən zəngin simalarından sayılan Pirverdiyevin taleyi qeyri-müəyyənlik içində; zaman-zaman adı korrupsiyada hallanan "Azərenerji" bossunun istintaqa cəlb ediləcəyi də istisna deyil

Prezidentin sərəncamı ilə "Azərenerji" ASC-nin və "Bakıelektrikşəbəkə"nin paralel səlahiyyətlərinin bir ələ yığılması, daha dəqiq desək, ölkə boyunca elektrik enerjisi üzrə əsas səlahiyyətlərin vahid quruma - "Azərişıq" ASC-yə verilməsi də müsbət addım kimi qiymətləndirilir. Burada diqqətçəkən məqam odur ki, "Azərişıq" faktiki olaraq "Bakıelektrikşəbəkə"nin bazasında yaradılıb və "Azərenerji"nin əsas səlahiyyətləri, müvafiq strukturları, maddi-texniki bazası ondan alınaraq yeni quruma ötürülüb. Burada bir məqamı qeyd edək ki, "Azərenerji" indiyədək Bakı şəhəri istisna olmaqla, bütün ölkənin enerji təminatını həyata keçirirdi. Bundan sonra isə Azərbaycanda enerji təchizatı işini "Azərişıq" həyata keçirəcək. "Azərenerji" isə yalnız elektrik enerjisinin istehsalı ilə məşğul ola biləcək. Bu səlahiyyətin də bir müddət sonra ondan alınaraq "Azərişıq"a veriləcəyi iddia olunur.

O da qeyd olunur ki, ölkə boyunca enerji təminatının "Azərenerji"dən alınması, yeni yaradılan quruma Baba Rzayevin rəhbər təyin olunması Etibar Pirverdiyevin korrupsioner imici ilə bağlı olan məsələdir. Mütəxəssislər bildirir ki, adətən belə hallarda ya daha kiçik olan qurumu böyük quruma birləşdirirlər, ya da balaca müəssisələrin səlahiyyətlərini iri müəssisəyə verirlər. İndiki halda "Azərenerji" "Bakıelektrikşəbəkə"dən qat-qat böyük struktur idi. Ancaq Etibar Pirverdiyevin nüfuzdan düşməsi, onun zaman-zaman böyük maxinasiyalar etməsi, yarıtmaz fəaliyyətinin nəticəsidir ki, enerji sektorunda onun əsas səlahiyyətlərini əlindən alaraq, ölkənin elektrik enerjisi sektoruna nəzarəti faktiki olaraq Baba Rzayevə həvalə ediblər. Burada söhbət E. Pirverdiyevin vurulmasından gedir. Əks təqdirdə, paralel səlahiyyətlərin vahid quruma verilməsi anlamında yalnız Bakının enerji təchizatını həyata keçirən "Bakıelektrikşəbəkə"nin səlahiyyətlərini "Azərenerji"yə verməklə məsələni daha asan həll etmək mümkün idi...

***

Nəzərə çatdıraq ki, Etibar Pirvediyevin enerji sektorunda həyata keçirdiyi maxinasiyalar, onun dövlət vəsaitlərini talaması hesabına oliqarxa çevrilməsi haqda "Yeni Müsavat" zaman-zaman yazıb. Onun son 5-6 ildə təkcə enerji sektoruna qoyulan 3 milyard dollardan *(1,5 milyard dollar dövlət büdcəsi hesabına, 1,5 milyard xarici təşkilatların krediti hesabına)* çox investisiyanı "havaya sovurması" da faktlarla yazılıb. Daha dəqiqi, E. Pirvediyev bu vəsaitləri öz biznes strukturları vasitəsilə "əridib". Buna dair "Yeni Müsavat"ın ötənlərdə dərc etdiyi araşdırma yazısında qeyd olunur: "Azərenerji"nin səhmlərinin 100 faizi dövlətə məxsus olduğundan, ASC-nin rəhbəri dövlət məmuru hesab olunur və onun bizneslə məşğul olması yasaqdır. Ancaq Etibar Pirverdiyev geniş bizneslə məşğul olub və dövlət büdcəsini talamaq hesabına imkanlarını genişləndirib. 3 milyon dollara sıfır variantından Avropa standartlarına uyğun elektrik enerjisi ilə təchizat sistemi qurmaq mümkün olduğu halda, Azərbaycanda sovet dövründən qalma sistem də iflic vəziyyətinə düşüb...

2009-cu ildə Əmlak Məsələləri üzrə Dövlət Komitəsi "İnter Enerji" MMC-ni "Azenco" ASC-nin 97,5 faiz səhmlərinin satışı üzrə investisiya müsabiqəsinin qalibi elan edib. Komitənin məlumatında o da qeyd edilirdi ki, "İnter Enerji" silinmək üçün 100 min ədəd dövlət özəlləşdirmə çekinin təqdim edilməsini və dövlət büdcəsinə 6,4 milyon manat ödəməyi öhdəsinə götürüb.

**Zəruri arayış:** "Azenco" ASC 2008-ci ilə qədər "Azerenerji" ASC-nin tərkibində "Azerenerjitikinti" MMC adıyla fəaliyyət göstərib. Əmlak Məsələləri üzrə Dövlət Komitəsinin 9 oktyabr 2008-ci il tarixli əmrinə uyğun olaraq MMC "Azenco" Açıq Səhmdar Cəmiyyətinə çevrilib və investisiya müsabiqəsinə çıxarılıb. Müsabiqəni isə "İnter Enerji" udur (23 dekabr 2009-cu il).

"İnter Enerji" MMC "Azərenerji" ASC-nin İdarə Heyətinin sədri Etibar Pirverdiyevə məxsusdur. Gerçək idarəetməni o özü, formal idarəetməni isə qaynı həyata keçirir. 7 min nəfərin çalışdığı nəhəng müəssisənin real bazar dəyəri ən azı 500 milyon manatdır. Yəni Etibar Pirverdiyev 500 milyon manatlıq "Azenco"nu cəmi 6,4 milyon manata - real qiymətindən 78 dəfə ucuz qiymətə əldə edib. Bu, korrupsiyanın hələ hamısı deyil. "İnter Enerji" Sumqayıtdakı Texnologiya Parkını da ələ keçirib. E.Pirverdiyev orada müxtəlif istehsal və xidmət sahələri *(polikarbonat şüşələrin istehsalı, paylayıcı transformatorlar, sinkləmə, hidrogenerator, texniki qazların, sayğacların, yüksək gərginlikli avadanlıqların, 110-55 kV-lik kabellərin istehsalı sahələri, habelə dəmir məhsulları, hidroturbinlər və misəritmə istehsalat sahələri və s.)* yaradır ki, "Azərenerji" təchizatını tam inhisarda saxlasın. Yəni "Azərenerji"yə qoyulan investisiyaların əhəmiyyətli kəsimi öz cibinə axsın. Buna nail də olub. Formal keçirilən tenderlərin qalibi istisnasız olaraq "İnter Enerji" MMC olur. Burada qiymət və xidmət tarifləri fantastik həddə şişirdilir. "İnter Enerji" MMC investisiya müsabiqəsində daha bir müəssisəni - Balakən kiçik su elektrik stansiyasını özəlləşdirib"...

Beləliklə, Pirverdiyev nəhəng investisiya və büdcə pullarını "İnter-Enerji" MMC vasitəsilə "silib", nəticədə ölkənin elektrik enerjisi sektorunda heç inkişaf baş verməyib. Nəticədə, hər il qış aylarında "Şimal" DRES-də tez-tez qəza baş verib, hava soyuyan kimi enerji təminatında problemlər yaranıb.

***

Etibar Pirverdiyevin dəvə fermaları, Xudatdakı bazarı, Şabran, Xaçmaz rayonlarındakı iri təsərrüfatları haqda da dəfələrlə yazılıb. Onun ən ciddi maxinasiyalarından biri də Dövlət Bayrağı Meydanının tikintisi zamanı üzə çıxmışdı. Bayraq meydanının tikintisi Etibar Pirverdiyevin nəzarətində olan tikinti şirkəti tərəfindən inşa edilib. Tikinti başa çatmamış meydanın çökməsi, bayraq qülləsinin əyilməsi ölkə rəhbərini qəzəbləndirmişdi...

Bütün bu faktlar təbii ki, ölkə rəhbərliyinə, aidiyyəti hüquq-mühafizə orqanlarına da bəllidir. İndiki krizis dönəmində vurulmuş iri bir məmurun dövlətdən oğurladığı milyardların onda saxlanılacağı da inandırıcı deyil. Bu baxımdan Etibar Pirverdiyevin mənimsədiyi fantastik vəsaitlərin dövlətə qaytarılması üçün onun istintaqa cəlb edilməsi də tamamilə mümkün görünən məsələdir. Ya o, oğurladıqlarını könüllü şəkildə qaytarmalıdır, ya da bunu ondan başqa yollarla alacaqlar...

❑ T.ƏHMƏDLİ



# Milli Şura bəyanat yaydı

## Qurum 2015 seçkilərini boykot edə bilər

**Milli Şura qarşıdan gələn parlament seçkilərinə qatılmaq və qalib gəlmək əzmində olsa da və tərəfdarlarını indiki mərhələdə buna hazırlaşmağa çağırsa da seçki islahatları həyata keçirilməyəcəyi təqdirdə prosesin istənilən mərhələsində orada iştirakdan imtina hüququnu da özündə saxlayacaq. Bu barədə Demokratik Qüvvələrin Milli Şurasının 2015-ci il parlament seçkiləri ilə bağlı dünən yaydığı bəyanatında deyilir.**

Sənəddə deyilir ki, təxminən 9 aydan sonra Milli Məclisə növbəti seçkilər keçirilməlidir. "Lakin ölkədə seçki mühiti hiss olunmur. Azərbaycan hakimiyyəti siyasi rəqiblərinə və vətəndaş cəmiyyətinə divan tutmaqda davam edir. Ötən illərdə güclənən repressiya siyasəti bir az da idbar xarakter alıb. Ölkədə normal seçkilərin keçirilməsinə şərait yaradacaq islahatların həyata keçirilməsi istiqamətində daxildən və beynəlxalq birlikdən səslənən çağırışları hakimiyyət qulaqardına vurmaqdadır" deyə, Milli Şura qeyd edir.

Bəyanatda bildirilir ki, Milli Şura 2015-ci il parlament seçkilərində iştiraka meyllidir. "Milli Şura ölkədə həqiqi seçki mühitinin olmadığını diqqətdən kənarda qoymadan, Milli Məclisə seçkilərdə iştirak etmək və qalib gəlmək əzmində olduğunu bəyan edir. Milli Şura iştirak edəcəyi təqdirdə, seçkilərə ayrıca seçki bloku kimi qatılacağını və həqiqi müxalifət mövqeyində duran ictimai-siyasi qrup və şəxslərlə əməkdaşlıq edəcəyini bildirir", - sənəddə vurğulanır.

Milli Şura bəyan edir ki, seçkilərdə müxalifət bloku olaraq iştirak etməsinin mümkünlüyünə görə məsuliyyət daha çox hakimiyyətin üzərinə düşür. "Ölkədə normal seçki mühitinin yaradılması üçün islahatlara başlamaq - Seçki Məcəlləsində zəruri dəyişikliklər etmək, eləcə də seçki komissiyalarını yenidən formalaşdırmaq istiqamətində Milli Məclisdə təcili müzakirələr başlamalıdır. Hələ 2012-ci ilin yanvarında ölkənin tanınmış hüquqşünasları və seçki mütəxəssisləri "Seçki islahatları memorandumu" hazırlamış və cari siyasi maraqlarından asılı olmayaraq, əksər təşkilatlar və ictimai-siyasi xadimlər bu sənəd ətrafında birləşmişdi. Milli Şura hesab edir ki, Milli Məclis məhz bu sənəd əsasında ölkədə seçki islahatları ilə bağlı müzakirələr keçirməlidir" deyə, sənəddə qeyd edilir.

❑ "Turan"

YENİ MÜSAVAT
N 31 (6059) 11 fevral 2015

# Qərbin əlindəki "böyük silah" - İsveçrə bankları

## İqtisadçı ekspert "bu, Avropa ilə ayrı-ayrı ölkələr arasında siyasi təsir mexanizmidir" deyir

**"Yeni Müsavat"ın ötən sayında xəbər vermişdik ki, İsveçrədə dünyanın ən böyük ikinci bankındakı gizli hesablar internetə sızıb. Aralarında azərbaycanlı müştərilərin də olduğu bir çox ölkənin İsveçrədəki HSBC bankına aid gizli məlumatlar "Swissleaks" adlı internet saytından yayılıb.**



Söhbət dünyanın 203 ölkəsindən olan 106,000 müştərinin 100 milyard dollarlıq sərvətindən gedir. Bu "sızıntı" beynəlxalq maliyyə tarixinin ən qalmaqallı hadisəsi hesab edilir. Mümkündür ki, bu gizli hesabların yayılması məşhur "WikiLeaks" saytının yaratdığı qalmaqalı təkrarlasın...

Gizli məlumatların gün işığına çıxması ilə HSBC bankının fırıldaqçılara, terrorçular və quldurlara yardım etdiyi və ümumi dəyəri 120 milyard dollarla ölçülən çirkli pulların yuyulması əməliyyatı həyata keçirdiyi ortaya çıxıb. Bankın vergi və qaçaqmalçılıq işlərinə yardım etdiyi şəxslər arasında dünya miqyasında tanınan cinayətkarlar, korrupsiyada ittiham olunan siyasətçilər və iş adamları, eyni zamanda dünya siyasətçiləri, aktrisalar, idmançılar da yer alır.

Azərbaycan bu ölkələr arasında 167-ci yerdə sıralanıb və 21 nəfər müştərinin ümumi bank hesabı təxminən 3,8 milyon dollar təşkil edib. Həmin şəxslər arasında ən çox pul hesabı isə 1,6 milyon dollara sahib müştəridir. 1994-2006-cı illər ərzində Azərbaycandan olan 16 müştəri bankda 17 hesab açıb. Bu hesablarda cəmi 3,8 milyon dollar pul var.

Müştərilərdən birinin hesabında 1,6 milyon dollar pul yerləşdirilib və o, Azərbaycandan banka ən yüksək məbləğdə pul qoyan müştəridir.

Ümumilikdə isə İsveçrə banklarında vəsaiti olan Azərbaycan varlıları mövzusu hər zaman maraq mövzusu olub. Xüsusən də bunun siyasi çalarları olduğunu düşünənlər məsələyə fərqli yanaşma sərgiləyir. Bu faktı Qərbin Azərbaycana, xüsusən də Azərbaycan iqtidarının öndə gedən simalarına qarşı silah kimi dəyərləndirmə xətti qabarıq görünür. "WikiLeaks"dən sonra bu qalmaqalın yaranması da sözügedən ehtimalları gücləndirir. Bəs bu, təcrübi baxımdan necə mümkündür? Bank hesabları ilə hansısa formada "oynamaq", onlara həbs qoymaq və ya bundan təzyiq vasitəsi kimi istifadə etmək mümkündürmü?

**İqtisadçı ekspert Ramil Osmanlı "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, bu məlumat siyasi mənada təsdiqini tapmayıb. Onun sözlərinə görə, nə İsveçrə bankları, nə də hökumət bu xəbəri təsdiqləyib:** "İstisna etmirəm ki, elə bir şey var. Bu, daha çox Avropa ilə ayrı-ayrı ölkələr arasındakı siyasi təsir mexanizmidir. Zaman-zaman bundan istifadə edilir və dövriyyəyə buraxılır. Bunun Azərbaycana nə dərəcədə aidiyyəti var, onu bilmək olmaz. Məlumat rəsmi təsdiqini tapmış olsaydı, buna şərh vermək olardı. Hətta ad da çəkmək olardı".

**Müsahibimiz dedi ki, Azərbaycandan xaricə və xaricdən Azərbaycana leqal və qeyri-leqal pul axını olub, bu gün də var. İqtisadçının fikrincə, onun həcmi, məbləği, Azərbaycan iqtisadiyyatına təsirləri indiki halda konkret müsbət nəticə verməyəcək:** "Azərbaycandan İsveçrəyə, digər offşor zonalara investisiya yatırılması barədə məlumatlar mətbuatda yer alır. Amma bu rəqəmlər təsdiqini tapmadığı üçün onun ətrafında danışmağın özü faydasızdır".

❑ **Sevinc TELMANQIZI**

# ABŞ-ın Azərbaycana yeni təyin olunmuş səfiri videomüraciət yaydı

**"Azərbaycanın layiq olduğu daha perspektivli gələcəyi qurmaq üçün sizinlə işləməyi səbirsizliklə gözləyirəm". APA-nın məlumatına görə, Amerika Birləşmiş Ştatlarının Azərbaycana yeni təyin olunmuş səfiri Robert Sekuta azərbaycanlılara ünvanladığı videomüraciətində belə deyib.**

R.Sekuta ABŞ prezidenti Barak Obamanın Azərbaycanda xidmət göstərmək üçün onun namizədliyini irəli sürməsindən şərəf duyduğunu bildirib: "Azərbaycana gedəcəyim günü səbirsizliklə gözləyirəm. Çox şadam ki, sizi beynəlxalq münasibətlər fakültəsində təhsil almağa başladığım Corctaun Universitetinin "Riggs" kitabxanasından salamlayıram. Mən 36 ildən çoxdur ki, ABŞ diplomatıyam və müxtəlif yerlərdə çalışmışam. 1991-ci ildə Azərbaycan müstəqillik qazandıqdan sonra iki ölkə güclü əməkdaşlıq qurub və bir sıra eyni məqsədləri bölüşür. Regional təhlükəsizlik və iqtisadi inkişaf, xüsusilə gənclərin işlə təmin olunması bizim münasibətlərin iki əsas prioritetidir. Üçüncüsü demokratik inkişafdır. Hər üçü Azərbaycanın sabitliyi üçün labüddür və bizim ikitərəfli münasibətlərimiz üçün mühümdür. Səfir olaraq bütün azərbaycanlılarla bu prioritetlər üzərində işləməyi, xalqlararası əlaqələrimizi dərinləşdirməyi və genişləndirməyi səbirsizliklə gözləyirəm. Qarşılıqlı anlaşmaya əsasən biz ölkələrimizi daha da yaxınlaşdıra bilərik. Həyat yoldaşım Ann mənimlə birlikdə Azərbaycana gələcək. "Şahplov"un dadına baxmağı, sizin zəngin tarix və mədəniyyətinizlə tanış olmağı səbirsizliklə gözləyirik. Sizcə, biz ilk olaraq hara səfər edək - Beşbarmaq, Yanardağ, yoxsa Qobustana? Səfirliyimizin facebook səhifəsində öz fikirlərinizi bölüşün. Orada həmçinin ABŞ-Azərbaycan əlaqələrinin zənginləşdirilməsi yolları barədə də fikir mübadiləsi apara bilərik".



Robert Sekuta

Qeyd edək ki, səfir müraciətində Azərbaycan dilində də cümlələr işlədib.

**Diplomat fevralın 12-də Azərbaycana gələcək.**

# Suriyada döyüşmüş bir azərbaycanlı tutuldu, biri öldürüldü

**Suriyada döyüşlərdə iştirak etməkdə şübhəli bilinən daha bir Azərbaycan vətəndaşı həbs edilib. APA-nın məlumatına görə, Milli Təhlükəsizlik Nazirliyinin əməkdaşlarının həyata keçirdikləri əməliyyat tədbirləri nəticəsində Zərdab rayon sakini, 1995-ci il təvəllüdlü Mikayılov Rövşən Baba oğlu saxlanılıb.**

Onun barəsində Cinayət Məcəlləsinin 279-cu (qanunvericilikdə nəzərdə tutulmayan silahlı birləşmə və ya dəstə yaratma) maddəsi ilə cinayət işi başlanılıb. Hazırda iş üzrə istintaq hərəkətləri davam etdirilir.

Qeyd edək ki, bundan əvvəl Suriyada döyüşlərdə iştirak etməkdə şübhəli bilinən 26 nəfər Milli Təhlükəsizlik Nazirliyinin (MTN) əməkdaşları tərəfindən tutulub.

Suriyada döyüşlərdə iştirak edən daha bir azərbaycanlı isə öldürülüb.

Öldürülən şəxs Xaçmaz rayon sakini, 1987-ci il təvəllüdlü İsmayılov İsmayıl Rafiq oğludur. AzNews.az xəbər verir ki, bu barədə APA-ya onun qardaşı Rüstəm İsmayılov məlumat verib.

Onun sözlərinə görə, sosial şəbəkədə qardaşına məxsus profilindən ona İ. İsmayılovun Suriyada öldüyü barədə mesaj göndərilib: **"Daha sonra həmin ünvana yenidən məktub göndərib, suallar versəm də, cavab yazan olmadı. Az sonra isə həmin profil silindi".**

Qeyd edək ki, Suriyada vəziyyət gərginləşəndən sonra bir qrup Azərbaycan vətəndaşı bu ölkəyə gedərək müxtəlif qruplaşmaların tərkibində vuruşmağa başlayıb. Ötən müddət ərzində həmin döyüşlərdə yüzlərlə azərbaycanlı öldürülüb. Onların bir çoxunun fotosu mücahidlər tərəfindən sosial şəbəkələrdə yayılıb.

# Yeni dünya savaşı başlayacaqmı?



**Azər RƏŞİDOĞLU**

**Dünyanın hər yerində qanlı savaşlar gedir. ABŞ və Rusiyanın dünyanı yenidən bölüşdürmə cəhdləri münaqişə zonalarının sayını durmadan artırır.**

Rusiyanın Ukraynanın bir hissəsini işğal etməsi, onun işğalçılığına qarşı çıxan dövlətləri nüvə silahı ilə hədələməsi gərginliyin hər an daha təhlükəli fazaya keçə biləcəyini deməyə əsas verir. Digər tərəfdən, artıq Ukrayna torpağı olan və zorla Rusiyaya birləşdirilən Krımda, habelə Şərqi Ukraynada hər gün qan tökülür.

Rusiyanın Ukrayna ilə hərbi müdaxiləyə getməsi dəhşətli hadisələrə gətirib çıxarır. Münaqişələr 3-cü dünya savaşına səbəb ola bilər. Lakin birqütblü dünyada Rusiyanın ABŞ ilə müharibə etmək imkanı zəifdir. Əgər Rusiya birbaşa ABŞ-a qarşı müharibə elan etsə, bu ölkə çökə bilər. ABŞ iqtisadiyyatı ilə Rusiya iqtisadiyyatı arasında fərq olduqca böyükdür. Bunu ruslar özləri də anlayırlar. Ukraynaya hərbi müdaxilə Kremlin nüfuzunun bərpası üçün gərəkli idi, lakin savaş Moskvanın vəziyyətini daha da ağırlaşdırdı.

Digər tərəfdən, Avropanın Rusiya qarşısında geri çəkilməsi 2008-ci ildə Gürcüstanda müşahidə edilmişdi. İndi bu proseslər Ukraynada davam etdirilir.

Rusların Ukraynaya hərbi müdaxiləsi göstərir ki, MDB məkanı ölkələri bu cür təhlükələrdən sığortalanmayıb. Azərbaycan, Gürcüstan, Orta Asiya ruslar tərəfindən ilhaqla hədələnir.

Proseslərin təhlili onu göstərir ki, Rusiyanın Ukraynaya hərbi müdaxiləsi ABŞ tərəfindən ortaya atılan ssenariyə uyğun həyata keçirilib. Rusiyanı tələyə salmaq üçün düşünülən bu model Kremlə baha başa gələ bilər. Bu prosesi hərbi müstəvidə davam etdirmək üçün güclü iqtisadiyyat lazımdır, Rusiya isə bu imkanlara malik deyil.

Rusiya üçün Cənubi Qafqaz regionunda savaşın başlaması artıq şərtə çevrilir. Kreml çalışır ki, Kiyevi Krım itkisi ilə barışdıra bilməsi üçün əlavə anklav əraziləri əldə etsin. Yəni Şərqi Ukraynanın işğalı əslində Krıma nəzarəti möhkəmləndirmək üçün ortaya atıla bilər.

Vaxtilə Qarabağ ətrafı 7 rayon Rusiyanın dəstəyi ilə Ermənistan tərəfindən işğal edilmişdi. Eyni ssenari Ukraynada oynadılır. Rusiya Krımı əlində saxlaması üçün Ukraynanın Şərqini daha çox qarışdırmaqda maraqlıdır.

Lakin Kreml üçün uzunmüddətli savaş sərf etmir. Qərbin Ukraynada Rusiyaya qarşı savaşmaması naminə Kreml Cənubi Qafqaz regionunda həm Gürcüstan-Osetiya, Gürcüstan-Abxaziyə cəbhələrində, həm də Qarabağ cəbhəsində savaşın bərpasına çalışa bilər. Əgər Qərb bütün regionun qarışmaması naminə Ukraynadakı savaş müstəvisindən geri çəkilməzsə, o zaman Rusiya özü ilə bərabər bütöv regionu müharibə meydanına çevirməkdə israrlıdır.

Rusiyanın bu planında Bakının iştirakı istisna edilmir. Kreml bu halda Azərbaycana Qarabağın qaytarılmasını vəd edə bilər. Yəni Ukraynada savaş daha da şiddətlənərsə, Azərbaycan qoşunları da Qarabağa girə bilər. Eyni zamanda digər qeyd olunan istiqamətlərdə də müharibə başlaya bilər. Bu Rusiyanın qazından imtina edən Qərbi daha da böyük böhrana sürükləyə bilər.

Son zamanlar rəsmi Bakının hərbi ritorikaya üstünlük verməsi də deyilənlərə sübutdur.

Kreml eyni zamanda Şərqi Avropa ölkələrini də savaşa cəlb etmək üçün çalışır. Kremlin Rumıniyanı hədələməsi, Polşanı təhdid etməsi və digər Şərqi Avropa ölkələrinə meydan oxuması təsadüfi deyil. Rusiya Kosovodakı məğlubiyyətinin acısını hələ unutmayıb. Odur ki, Ukraynada başlayan savaşın 3-cü Dünya savaşına çevrilmə ehtimalı hələ də mövcuddur...



# İşıq sürətiylə islahatlar

Zamin HACI
zaminhaci@gmail.com

**Sağ olsunlar, başda oturanlarımız elə yüksək sürətlə islahatlara başlayıblar ki, adam yazıb çatdıra bilmir. Gərək Braziliyadan futbol şərhçiləri gətizdirək.**

Bir gün səhər durursan yuxudan, görürsən Bakı Şəhər Vergilər Departamentinin adı dəyişilib olub Bakı Vergi İdarəsi. "Bakıelektrikşəbədə" idarəsi isə "Azərişıq"a çevrilib. Adamın gözünə işıq gəlir. Günorta deyirlər torpaq komitəsi ümumiyyətlə ləğv edilib, xəritəçəkənlər də içində olmaqla. Axşama yaxın maşın yolu idarəsinin rəisi dəyişdirilir. Gecə yarısı dəmir yoluna təzə müdir qoyurlar. Gəl indi bundan sonra yat görüm necə yatırsan. Bəlkə sən yatdığın yerdə hökumət götürər səni də dəyişər, yerinə İsveçrədən təzə xalq gətirib qoyar, çünki xeyli vaxtdır "bizim millət düzələn deyil" söhbəti vardır.

Hələ arada Göyçayın icra başçısının Ucara, Ucarınkının da Göyçaya dəyişdirilməsi, Maral Tahirqızına cinayət işi açılması, ANS-in müxbiri Həzrət Sabirin tutulması kimi xırda-para, necə deyərlər, lokal (qoy desinlər sizin yazar da savadlıdır) islahatlar da aparılır. Bəh-bəh. Vallah, insanın vəfalı dostuna daş atırsan, islahata dəyir. İslahat əlindən hökumətdə sağ-islahat qalmayıb. Nazirlər AzTV-nin axşam buraxılışına əllərində volokardin baxırlar. Hökumət binalarına yaxın ərazilərdəki dükanlarda pampers qıtlığı yaranıbmış.

İslahatların mahiyyətinə fikir verdikdə burada çox dərin, məzmunlu, düşünülmüş, uzaqgörən, hasarhörən (qafiyə üçün yazdım, mənası yoxdur) planların olduğu görünür. Nəinki görünür, hətta gözümüzə girir!

Örnək üçün, nədən elektrik idarəsi "Azərişıq" adlandırıldı, "Azərenerji"nin işıq pulu yığma xidməti də bunun tərkibinə qatıldı? Çünki enerji təkcə işıqdan ibarət deyil. Onun çoxlu növləri var, burda yazıb başınızı ağrıtmayım. İşıq istehsal edənlə işıq satan ayrı olanda ölkə daha işıqlı olur. Həm də indi Etibar müəllimin daha çox asudə vaxtı olacaq, Bayraq Direyi, dəvə qutabı istehsalı kimi işlərə əzmlə can yandıracaq.

Başqa misal çəkək, hazırda misal bolluğudur, bu da islahatların nəticəsidir. Asfalt yollara baxan adamı dəmir yoluna şef qoymaq kimin ağlına gələrdi? Ancaq uzaqgörən siyasətin! Çünki bunlar ikisi də yoldur! Halbuki, naşı dövlət siyasəti olsa Ucarın icra başçısını dəmiryoluna şef təyin edərdilər, gəmiçiliyin müdiri isə asfaltyeyən qoyulardı. Qəti əlaqəsi olmayan sahələrdir.

O cümlədən, son sərəncamlarla dəmir yolunun müdirinin nəqliyyat nazirinə müavin qoyulmasını götürək. Necə uğurludur! İlk növbədə, adamın İngiltərədə körpə uşağı oxuyur, onun təhsilini nəzərə alıblar. İkincisi, Ziya müəllimin müavinləri az idi, cəmi-cümü bir nəfər. Nəticədə nəqliyyat müfəttişləri hamını döyə bilmirdilər. Bəzi taksi sürücüləri maşından düşüb qaçır, uzaqdan dil çıxardıb yanıq verirdilər. Ümidvarıq daha belə mənfi, respublikamızın inkişafına yaraşmayan hallara yol verilməyəcəkdir. Yol mədəniyyət deməkdir!

Əlbəttə, mümkündür neftin qiyməti qəfildən qalxsın. O zaman bu islahatları dayandırmaq lazımdırmı? Qətiyyən. Mən bu fikri bölüşmürəm. Hesab edirəm ki, (Arif Hacılı demişkən) islahatlar elə temp, sürət yığıbdır onları heç dayandırmaq da mümkün deyildir. Sadəcə, neftin qiyməti qalxsa Torpaq Komitəsini təzədən bərpa eləmək olar, 170 yaşlı Qərib müəllim də heyfdir, ortalıqda qalmaz. Ucarın icra başçısını təzədən Göyçaya, dəmir yolunun şefini asfalt yol idarəsinə, işıq pulunu Etibar müəllimə qaytarmaq olar. Adını da "İslahatların ikinci mərhələsi" qoyarıq. Vəssalam. Hər şey bu qədər sadədir. Dahilik kimi.

Mən də bu yazını axırdan başlayıb qabağa tərəf yenidən yazaram.



# Prezident Administrasiyasından müxalifət liderlərinə görüş dəvəti

## Dəvətlilər sırasında Müsavat da var; partiya sədrləri prosesin prezidentin tapşırığı ilə başladığını deyirlər

**Növbəti iqtidar-müxalifət görüşünün yaxın günlərdə keçiriləcəyi barədə "Yeni Müsavat"ın xəbəri rəsmi təsdiqini tapdı. Xəbər "Yeni Müsavat" tərəfindən yayıldıqdan sonra siyasi partiyalardan təsdiq cavabları verilməyə başladı. Partiya sədrləri onlara Prezident Administrasiyasından görüş dəvəti gəldiyini bildirdilər.**

**Müsavat Partiyasının başqanı Arif Hacılı** "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, ona Prezident Administrasiyasından zəng ediblər və siyasi partiyalarla hakimiyyət təmsilçisinin görüşünün keçiriləcəyini deyiblər: "Bizim də bu görüşdə iştirak etməyimizi arzu etdiklərini bildiriblər. Bu görüşdə ölkədəki ictimai-siyasi vəziyyətin müzakirə olunacağı barədə məlumat verilib".

**Arif Hacılı qeyd etdi ki, Müsavat ümummilli məsələlərdə iqtidar-müxalifət dialoqunun tərəfdarı olduğunu daim bəyan edib və bu mövqeyində qalır:** "Hər halda, indi belə bir təşəbbüsün iqtidar tərəfindən gəlməsini müsbət hal kimi dəyərləndirirəm. Lakin biz indi həmin görüşdə iştirak edəcək siyasi qüvvələrin formatını araşdırırıq. Format və gündəlikdə müzakirə olunacaq məsələlər dəqiqləşdikdən sonra Müsavatın belə görüşün əhəmiyyəti barədə mövqeyini açıqlayacağıq".

AXP sədri Pənah Hüseyn və KXCP sədri Mirmahmud Mirəlioğlu da bildirdilər ki, onlara Prezident Administrasiyasından dəvət gəlib.

**Ümid Partiyasının sədri İqbal Ağazadə dedi ki, sözügedən görüşə dəvət olunub. İqbal Ağazadə dedi ki, belə bir prosesin başlaması müsbət hadisədir:** "Partiyamızın uzun müddətdir cəmiyyətə təqdim etdiyi rəy və ritorika var: barış və dialoq mühitinin yaradılması, problemlərin masa arxasında çözülməsi. Biz neçə vaxtdır bunu cəmiyyətə təqdim edirik. Görüşdə iştirak edib təkliflərimizi verəcəyik. Deyəcəklərimiz çoxdur. İqtidarla siyasi partiyaların görüşünün əhəmiyyəti həm də odur ki, təkliflərimizi səsləndiririk, mövqeyimizi bildiririk. Bir az da müxalifət tərəfi başlanan bu prosesin davamlı olması üçün prosesin üstünə israrla getməlidir, əlini daşın altına qoymalıdır ki, proses dayanmasın. Çünki ölkəmizin nicatı, qazancı bundadır. O şeyi ki, masa arxasında müzakirə edə, həll eləyə bilərik ki, onu başqa yerdə müzakirə etməyə ehtiyac qalmır. Ola bilər ki, konkret bir məsələ ilk mərhələlərdə həll olunmasın, amma masa arxasında müzakirə etmək niyyəti varsa, o məsələ mütləq həll olunacaq".

**İ.Ağazadə hesab edir ki, başlanan proses prezidentin razılığı ilə gerçəkləşdirilir:** "Bu, prezidentin razılığı olmadan gerçəkləşə bilən görüş deyil. Hökmən prezidentin burada bir siyasi xətti ortaya qoyması amili var. Ona görə də proses baş verir".

**ADP sədri Sərdar Cəlaloğlu bildirdi ki, Prezident Administrasiyası tərəfindən ona dəvət gəlib:** "Görüşün əvvəlki formatda keçirilməsi və ötən dəfə iştirak etməyən digər siyasi partiya rəhbərlərinin də iştirakı nəzərdə tutulub. İqtidar-müxalifət dialoqu çərçivəsində budəfəki görüş Prezident Administrasiyasının təşkilatçılığı ilə baş tutacaq. Ona görə də görüşün formatı və müzakirə olunacaq məsələlərin gündəliyi barədə dəqiq məlumatım yoxdur. Hakimiyyət təmsilçisi olaraq Əli Həsənov iştirak edəcək. Bizə də Əli Həsənovun adından görüşün olacağı haqqında məlumat verilib. Mən baxacağam, müzakirəyə çıxarılan məsələ şəxsən məni maraqlandırsa, çıxış edib mövqeyimi bildirəcəyəm".

**S.Cəlaloğlu iqtidarla siyasi partiyaların görüşünün əhəmiyyətindən danışarkən öncə bildirdi ki, ölkənin birinci şəxsinin razılığı, istəyi olmadan belə bir görüşün həyata keçirilməsi mümkün deyil. Belə bir görüş ikinci dəfədir keçirilirsə, deməli, birbaşa İlham Əliyevin istəyi ilə reallaşdırılır:** "Hələlik bizim görüşləri siyasi dialoq kimi qəbul etmək olmaz, bu, siyasi diskussiyalardır. Əgər həqiqətən də siyasi dialoq reallaşacaqsa, onda hər məsələni müzakirəyə çıxarmaq olar. Məsələn, biz hakimiyyətdəki qüvvələrin getməsi ilə bağlı siyasi dialoq təklif edə bilmərik. İqtidar da bizə siyasi müxalifətçilikdən imtina etməyi təklif edə bilməz. Amma hər iki tərəfin ikinci dərəcəli maraqları ilə bağlı olan istənilən məsələ müzakirə edilə bilər. Buna görə ölkədə demokratik seçkilərin keçirilməsi, demokratik islahatlar, Qarabağ məsələsinin həllində ümummilli mövqeyin müəyyənləşməsi, antiböhran proqramlarının hazırlanması və s. məsələlərlə bağlı hər iki tərəfin marağı eyni olduğuna görə müzakirə edilə bilər. Tərəflərin birinci maraqları ilə bağlı təkliflər siyasi dialoqun fəlsəfəsinə zidd olar".

**Hakim Yeni Azərbaycan Partiyasının icra katibinin müavini Siyavuş Novruzov da iqtidar-müxalifət dialoqunun əhəmiyyətli olduğunu bildirib:** "Əhəmiyyəti ondadır ki, Azərbaycanda siyasi partiyalar artıq ATƏT və bu kimi qurumların, beynəlxalq təşkilatların vasitəçiliyi ilə yox, birbaşa öz təşəbbüsləri ilə yığışıb fikir mübadiləsi aparırlar. Ölkənin taleyüklü məsələləri, perspektivləri, ictimai-siyasi sistemdə islahatlarla bağlı sivil formada dialoq qururlar. Azərbaycanda qeydiyyatdan keçmiş bütün siyasi partiya rəhbərləri dialoq üçün görüşə dəvət olunub, onlar iştirak edib öz təkliflərini verə bilər. İqtidar-müxalifət dialoqu çərçivəsində görüşlərin təşkili ilə Yeni Azərbaycan Partiyasının Dialoq və Siyasi Partiyalararası Əlaqələr Komissiyası məşğul olur. Həmin komissiyaya da Prezident Administrasiyasının İctimai-siyasi şöbəsinin müdiri, partiyanın İdarə Heyətinin üzvü Əli Həsənov rəhbərlik edir".

Xatırladaq ki, ilk dialoq Prezident Administrasiyasının İctimai-siyasi məsələlər şöbəsinin müdiri Əli Həsənovun iştirakı ilə 2014-cü il dekabrın 13-də baş tutub. Dialoqa ADP sədri Sərdar Cəlaloğlu, Liberal Demokrat Partiyasının sədri Fuad Əliyev, Klassik Xalq Cəbhəsi Partiyasının sədri Mirmahmud Mirəlioğlu, Böyük Quruluş Partiyasının sədri Fazil Mustafa, BAXCP sədrinin müavini Zöhrab Abdullayev, Azərbaycan Demokratik İslahatlar Partiyasının sədri Asim Mollazadə, Vətəndaş və İnkişaf Partiyasının sədri Əli Əliyev, Böyük Azərbaycan Partiyasının sədri Elşad Musayev, Ümid Partiyasının sədri İqbal Ağazadə, Vəhdət Partiyasının sədri Tahir Kərimli, Azadlıq Partiyasının sədri Əhməd Oruc, Milli İstiqlal Partiyasının sədri Yusif Bağırzadə, Vətəndaş Həmrəyliyi Partiyasının sədri Sabir Rüstəmxanlı və Milli Dirçəliş Hərəkatı Partiyasının sədri Fərəc Quliyev qatılmışdı.

❑ **Etibar SEYİDAĞA**

YENİ MÜSAVAT
N 31 (6059) 11 fevral 2015



# ABŞ Konqresindəki Azərbaycan dinləmələrinə YAP-dan etiraz

**Siyavuş Novruzov:** "Bu dinləmələr Azərbaycanla razılaşdırılmadan keçirilən tədbirdir..."

**Elxan Şahinoğlu:** "İnanmıram ki, Sekuta Morninqstarın dediyi "Azərbaycanda da "Maydan" baş verə bilər" kimi oxşar ifadələr səsləndirsin..."

**ABŞ-Azərbaycan münasibətlərindəki gərginliyin arxada qalması barədə fikirlərin tez-tez səsləndiyi bir ərəfədə Vaşinqtonda Azərbaycanla bağlı dinləmələrin keçirilməsinə qərar verilməsi gözlənilməz oldu. Məlum oldu ki, fevralın 12-də ABŞ-ın Azərbaycana yeni təyin olunmuş səfiri Robert Sekutanın Bakıda diplomatik missiyasına başlaması ilə eyni vaxtda ABŞ Konqresinin Nümayəndələr Palatasının xarici əlaqələr komitəsinin xarici siyasət altkomitəsində Azərbaycanda insan haqlarına dair dinləmələr keçiriləcək.**

Bundan əvvəl də ABŞ-da Azərbaycan dinləmələri olmuş, hətta Bakıya qarşı sanksiya çağırışları səslənmişdi. Lakin o zaman Azərbaycan hakimiyyəti dinləmələri QHT-lərin keçirdiyini əsas gətirib buna ciddi əhəmiyyət vermədiyini bəyan etmişdi. Lakin budəfəki situasiya fərqlidir, yəni söhbət Konqresin alt komitəsinin rəsmi tədbirindən gedir.

ABŞ-Azərbaycan parlamentlərarası əlaqələr üzrə işçi qrupunun üzvü Asim Mollazadə deyib ki, dinləmələrdə iştirak etmək üçün Azərbaycandan heç kim getməyəcək. (modern.az) Deputat konqresdə iştirak etmək üçün xüsusi nümayəndə heyətinin ora yollanmasının planlaşdırılmadığını da bildirib.

**"Atlas" Araşdırmalar Mərkəzinin rəhbəri Elxan Şahinoğlu hesab edir ki, Azərbaycan hakimiyyətinin ABŞ-a yönəlik siyasətində maraqlı situasiya yaranıb:** "Bəzi rəsmilər ABŞ-ı kəskin tənqid edir, Liviya, Suriya, İraq və Ukraynada baş verənlərə görə Vaşinqtonu günahkar sayırlar. Ancaq bu tənqidlərlə yanaşı, rəsmi Bakı Vaşinqtonla münasibətləri normallaşdırmağa da çalışır, ABŞ-da lobbi fəaliyyətlərini genişləndirir. Götürək, deputat Səməd Seyidovun söylədiklərini. Bu deputat AŞ PA-nın son sessiyasında Rusiyanı müdafiə edərək, bu ölkənin səsvermə hüququndan məhrum edilməsini pislədi. Üstündən iki gün keçəndən sonra isə Vaşinqtona gedərək Azərbaycanın ABŞ-ın dəstəyinə ehtiyacı olduğunu dedi. Başqa sözlə, ABŞ Azərbaycanı Rusiyanın təzyiqlərindən qorumalıdır. Səməd Seyidov keçən il də ABŞ-da olarkən belə ifadə söyləmişdi: "Azərbaycan sendviçə bənzəyir, bizi hər iki tərəfdən sıxırlar". Beləliklə, rəsmi Bakı Kremllə münasibətləri strateji tərəfdaşlıq kimi qiymətləndirir, digər tərəfdən, həmin "strateji tərəfdaşından" ehtiyat edir və ABŞ-dan kömək gözləyir".

**E.Şahinoğlu deyir ki, Vaşinqtondan Bakının istəyinə müsbət reaksiyalar hiss olunur:** "Məsələn, iki həftə əvvəl ABŞ-ın məşhur - "Foregn Polisy" dərgisində də Azərbaycanın strateji əhəmiyyətini yüksək qiymətləndirən məqalə dərc olundu. Halbuki bir neçə həftə öncə elə bu dərgi Azərbaycanda insan haqlarının və demokratiyanın durumunu kəskin tənqid edən məqalə yayımlamışdı. Bundan sonra "Waşington Times" qəzetində azərbaycanlı deputatların iştirakı ilə Azərbaycanın regional əhəmiyyətini vurğulayan dəyirmi masa keçirildi. Və ya ATƏT-in Minsk Qrupunun amerikalı həmsədri Ceyms Uorlik keçən həftə Azərbaycan üçün çox vacib açıqlama verərək dedi ki, Vaşinqton Dağlıq Qarabağda saxlanılan iki Azərbaycan vətəndaşının geri qaytarılmasını istəyir. Uorlik keçən il Dağlıq Qarabağ ətrafındakı rayonların da Azərbaycana qaytarılması vacibliyini dilə gətirmişdi. Bu cür açıqlamalar hakimiyyətdə və cəmiyyətdə müsbət reaksiyalar doğurur. Sadəcə, Azərbaycan Vaşinqtonun bu istiqamətdə addımlar atmasını gözləyir. Vaşinqton İrəvana təsir imkanlarından istifadə edərək Azərbaycanın iki vətəndaşının geri qaytarılmasına nail olarsa, bu, ABŞ-Azərbaycan münasibətlərinə müsbət təsir edəcək, digər tərəfdən, cəbhə bölgəsində gərginliyi azaldacaq. Əks halda, Uorlikin açıqlaması unudulacaq, ABŞ-Azərbaycan münasibətlərində inkişaf olmayacaq, cəbhə bölgəsindəki gərginlik isə əvvəlki tək davam edəcək".

**Politoloqun fikrincə, ətrafda baş verən hadisələr fonunda Vaşinqton üçün önəmli olan Azərbaycanın regional əhəmiyyətidir:** "ABŞ-ın yeni səfiri Sekuta da əməkdaşlığı əvvəlki axarına qaytarmaq üçün çalışacaq. İnanmıram ki, o, Morninqstarın dediyi "Azərbaycanda da "Maydan" baş verə bilər" kimi oxşar ifadələr səsləndirsin. Əksinə, Sekuta əlindən gələni etməlidir ki, münasibətlərdəki gərginlik azalsın. Bu baxımdan Vaşinqtonda Azərbaycanda insan haqları və demokratiya mövzuları ilə bağlı dəyirmi masaların Vaşinqtonun Azərbaycan siyasətinə ciddi təsir edəcəyini düşünmürəm".

**Azərbaycanın hakim partiyası isə dinləmələrlə bağlı hazırlığa açıq etiraz edir. YAP-ın icra katibinin müavini, deputat Siyavuş Novruzov "Yeni Müsavat"a bildirdi ki, Azərbaycan və ABŞ arasında hər hansı ciddi problem yoxdur:** "Sadəcə, bəzi qüvvələr bu münasibətlərin yaxşılaşdırılmasının qarşısını almağa, həmçinin münasibətlərin korlanmasına cəhd göstərir. Təbiidir ki, ABŞ Konqresində rəsmi lobbiçilik fəaliyyəti mövcuddur. Bu lobbiçilik fəaliyyətinə Azərbaycanı istəyən, Azərbaycanın dostluq qrupunun üzvü olan qüvvələrlə yanaşı, Azərbaycanı istəməyən qüvvələr də daxildir və orda 100 ildən artıqdır erməni lobbisi fəaliyyət göstərir. Erməni lobbisinin isə həm ABŞ Senatına, həm Konqresinə təsiri çox böyükdür. Hətta biz dəfələrlə "907-ci düzəlişi" aradan qaldırmağa cəhd göstərmişik, onlar imkan verməyib. Yaxud Azərbaycana kimisə səfir göndərmək istəyiblər, erməni lobbisi bunun qarşısını alıb və beynəlxalq komitədən keçməyib. Yəni bu səpkili halları, o cümlədən Azərbaycan əleyhinə müxtəlif bəyanatların verilməsini biz çox görmüşük". S.Novruzov ermənilərin Amerikada daha da fəallaşmasını, həmçinin ABŞ Konqresindəki Azərbaycan dinləmələrinin bu ərəfəyə salınmasını səbəbsiz saymır: "Nəzərə alaq ki, bu il saxta "genosid"in 100 illiyidir, o cümlədən Azərbaycanda Avropa Yay Olimpiya Oyunları keçiriləcək. Ona görə də bu dinləmələrin niyə indi keçirilməsinin səbəbini asanlıqla anlamaq olur. Azərbaycanda gedən proseslər, ölkəmizin iqtisadi inkişafı, aparılan islahatlar, Azərbaycanda keçirilən beynəlxalq tədbirlər təbii ki, Ermənistanı narahat edir. Təbii ki, erməni lobbisi vasitəsilə ayrı-ayrı dövlətlər, yaxud həmin dövlətlərdə fəaliyyət göstərən QHT-lərin vasitəsilə müxtəlif bəyanatlar verir, Azərbaycanın ümumi işinə kölgə salmağa çalışır".

**YAP-çı deputat da Bakıdan Konqresdəki dinləmələrdə iştirak etmək üçün kiminsə getməyəcəyini bildirdi:** "Bu dinləmələr Azərbaycanla razılaşdırılmadan keçirilən tədbirdir. Ola bilsin ki, Azərbaycanın hansısa müxalifət partiyası, QHT-si, yaxud Amerikada yaşayan, "siyasi sığınacaq" adı altında azərbaycanlılar iştirak etsinlər. Amma ümumilikdə Azərbaycan dövlətinin bu tədbirlə bağlı fikri təbii ki, iştirak etməməkdir. Təbii ki, biz etirazımızı bəyanatlarımızla da bildirəcəyik".

**S.Novruzov ABŞ səfirinin fəaliyyətə başlamasından sonrakı situasiya ilə bağlı gözləntilərini də bölüşdü:** "Təbii ki, səfirin kimliyindən asılı olmayaraq dövlətin siyasəti dəyişmir. Amma səfir çalışmalıdır ki, dövlətlərarası və xalqlararası münasibətlər yaxşı olsun. Əgər yeni səfir buna nail ola biləcəksə, kifayət qədər iş görmüş hesab olunacaq".

❑ **E.PAŞASOY**

# Prezidentin Münhendəki Qarabağ çağırışlarına Qərbdən tərs reaksiya

Avropa Birliyi Dağlıq Qarabağ separatçıları ilə birbaşa təmasa keçdi; Donbas, Krım, Abxaziya separatçılarına gün verib-işıq verməyən Qərbin rəsmi təmsilçisi İrəvanda "DQR"-in "xarici işlər naziri" ilə görüşdü; Azərbaycana qarşı ikili standart siyasəti davam edir...



**Xəbər verdiyimiz kimi, 51-ci Münhen Beynəlxalq Təhlükəsizlik Konfransında Qarabağ problemi də bu və ya digər dərəcədə diqqət mərkəzində oldu. Konfransın işinə qatılan Azərbaycan prezidenti İlham Əliyevin tədbir çərçivəsində keçirdiyi görüşlərdə aparıcı mövzulardan biri kimi erməni işğalına xüsusi diqqət yönəltdi.**

Ölkə başçısı qeyd etdi ki, ATƏT-in bu münaqişənin həlli ilə məşğul olan, BMT Təhlükəsizlik Şurasının üç daimi üzvünün - Rusiya, Fransa və ABŞ-ın həmsədrlik etdiyi Minsk Qrupu 20 ildən artıq fəaliyyət göstərsə də nəticə hasil olunmayıb. Azərbaycan prezidenti nəticəsizliyin səbəblərinə də toxundu. Ən əsas millərdən biri kimi, işğalçı Ermənistana kifayət qədər beynəlxalq təzyiqin olmadığını önə çəkdi.

Sitat: "Biz bəzən görürük ki, BMT Təhlükəsizlik Şurasının qətnamələri bir neçə saat olmasa da, bir neçə gün ərzində yerinə yetirilir. Bizə gəldikdə isə 1990-cı illərin əvvəllərində BMT TŞ tərəfindən qəbul edilmiş dörd qətnamə var və onların heç biri yerinə yetirilməyib. Fikrimcə, təcavüzkara adekvat təzyiq göstərmək üçün vasitəçilərdə siyasi iradənin olmaması bizim bu gün üzləşdiyimiz real vəziyyətə gətirib çıxarıb... Ermənistana xarici dəstək göstərilmədən bu ölkə yaşaya bilməz. Onlara dəstək əsasən Minsk Qrupuna həmsədrlik edən ölkələr tərəfindən göstərilir. Bu da paradoksdur. Biz burada ikili standartları görür və məyus oluruq. Azərbaycanın ərazi bütövlüyü indi hər kəsin haqqında danışdığı Ukraynanın ərazi bütövlüyü kimi eyni dəyərə malikdir. Əgər Azərbaycanla Ermənistan arasında konflikt həllini tapsaydı, yəqin ki, Ukrayna böhranı da olmazdı. Çünki Qarabağ və Krım ssenariləri, ərazi bütövlüyünün pozulması, nəticələr eynidir - işğal və separatçılıq. Bunlar güzgüdəki kimi oxşardılar..."

Maraqlıdır ki, Münhendən dünyaya car çəkilən Qarabağ həqiqətləri haqda bəyanatlardan cəmi bir gün sonra - fevralın 10-da Avropa Birliyinin (AB) Güney Qafqaz və Gürcüstandakı böhran üzrə xüsusi nümayəndəsi Herbert Zalber İrəvana səfəri çərçivəsində burada Dağlıq Qarabağdakı separatçı rejimin "xarici işlər naziri" Karen Mirzoyanla görüşüb və danışıqlar aparıb.

**Zalber görüşdə AB ilə saxta qurum arasında əməkdaşlığın bundan sonrakı inkişaf perspektivləri məsələsinə toxunulduğunu söyləyib. Sitat:** "Biz bu qəbildən olan dialoqu, aramızdakı bu cür təmasları mütləq davam etdirəcəyik. Bu, mənim Dağlıq Qarabağ nümayəndələri ilə ilk görüşüm idi. Biz dialoqu davam etdirəcəyik. Ondan sonra isə təmasları davamlı eləmək üçün daha hansı yollar tapmaq mümkün olduğunu öyrənə biləcəyik".

Erməni saytının yazdığına görə, öz növbəsində Mirzoyan AB rəsmilərinin separatçı bölgəyə maneəsiz daxil olmasının vacibliyini vurğulayıb. Elə faktın bir özəlliyi də ondadır ki, İrəvan görüşü növbəti təmasların Xankəndində ola biləcəyinin bir anonsu sayıla bilər.

Doğrudur, ATƏT-in Minsk Qrupunun həmsədrləri Dağlıq Qarabağda vaxtaşırı separatçılarla görüşür. Ancaq bu, əvvəla, BMT-nin mandatı əsasında baş verir. Çünki həmin mandata görə Dağlıq Qarabağın erməni və azərbaycanlı əhalisi münaqişədə maraqlı tərəflərdir. Vasitəçilər azərbaycanlı icmanın rəhbəri ilə də görüşürlər. Ən əsası, onların Xankəndinə səfərləri rəsmi Bakı ilə razılaşdırılır.

AB təmsilçisinin timsalında isə bu, daha çox özfəaliyyətə, separat danışıqlara oxşayır. Çox qəribdir ki, Donbas, Krım, Abxaziya, Dnestryanı separatçılara gün verib-işıq verməyən, onların Qərbdəki hesablarına donduran və Avropa ölkələrinə, ABŞ-a girişini yasaqlayan Qərbin rəsmi təmsilçisi İrəvanda Dağlıq Qarabağın "xarici işlər naziri" ilə həvəslə bir araya gəlir. İlham Əliyevin Münhen konfransında dönə-dönə toxunduğu ikili standartlar da elə budur.

Yəqin ki, Azərbaycan Xarici İşlər Nazirliyinin son xoşagəlməz insidentə reaksiyası özünü çox gözlətməyəcək.

❑ **Siyasət şöbəsi**

YENİ MÜSAVAT
N 31 (6059) 11 fevral 2015

**Fevralın 11-də müdafiə nazirinin sabiq müavini, Hərbi-Hava Qüvvələri və Hava Hücumundan Müdafiə Qoşunlarının keçmiş komandanı, general-leytenant Rail Rzayevin öldürülməsinin 6-cı ili tamam olur. Rzayev öldürüldü, ancaq qatil və sifarişçi bu gün də məlum deyil...**




# Generalın qətlinin sirr qalan 6-cı ili...

## Rail Rzayevi güdən kapuşonlu kim olub?

### Adi günlərdən biri...

R.Rzayev üçün həmin gün adi günlərdən biri idi. O, günlərlə, aylarla, illərlə hərəkət etdiyi marşrut üzrə iş yerinə getməli idi. Qətldən sonra belə aydın oldu ki, bunu onu sifariş verən, sifarişi icra edən də bilməmiş olmayıb. Generalı güdüblər. Hərəkət trayektoriyasını müəyyən ediblər. Bəs necə olub ki, xüsusi xidmət orqanları bundan xəbərsiz olub? Sual bu gün də açıqdır...

### Sürücü generalı hospitala çatdırsa da...

Həmin gün general adəti üzrə evdən çıxıb Müdafiə Nazirliyindəki iş yerinə getmək üçün xidməti maşına əyləşib. Generalın olduğu xidməti maşın evinin təxminən 200-300 metrliyində - İ.Qutqaşınlı küçəsi, 125 ünvanının qarşısında, S.S.Axundov adına 172 saylı orta məktəbin yaxınlığındakı zibil qutularının yanında dayanıb. Sürücü evdən götürdüyü zibil dolu torbanı yanında saxladığı zibil qutularına atmaq üçün maşından düşüb. Geri dönəndə isə generalın ağzından qan axdığını, maşının arxa şüşəsində güllə dəliklərinin olduğunu görüb. Sürücü generalı hospitala çatdırsa da, artıq gec olub...

### Generalı öldürmək üçün ideal yer seçilib!!!

Hadisə yerində olan istintaqçılar gördüklərindən belə qənaətə gəliblər ki, hadisə yeri qətl törətmək üçün ideal hesab oluna bilər. Bu yer təsadüfi seçilməyib! Generalın öldürüldüyü yerdəki zibil qutularının yanından üzü aşağı pilləkənlər var. Həmin pilləkənlər ötən əsrin 50-60-cı illərində tikilən həyət evlərinin arasına gedən yola düşür. Oradan isə Bakının dörd bir tərəfinə, ən əsası kameraların "göz"ündən yayınmaq imkanları yaradır. Qatil generala açdığı atəşlərdən sonra sakitcə həmin pilləkənlər vasitəsilə ərazidən uzaqlaşa bilər.

### Generalı kapuşonlu qatil öldürüb

Bu versiya sonradan təsdiqini tapıb. İstintaqçılar zibil qutuların qoyulduğu yolun əks tərəfində quraşdırılan, Azərbaycan Beynəlxalq Bankın İnşaatçılar prospektində yerləşən əsas binasının izləmə kameralarına düşüb. Həmin kameraların yaddaşındakı kadrlara baxan istintaqçılar kapuşonlu (yağmurluqlu) idman geyimində olan, kapuşonu üzünü örtmüş bir şəxsin ərazidə o tərəf-bu tərəfə qaçdığını müşahidə ediblər.

### Sürücü maşından düşüb zibil qutularına yaxınlaşarkən - atəş, atəş, atəş...





Görüblər ki, Rzayevin sürücüsü maşından düşüb zibil qutularına yaxınlaşarkən həmin idman geyimində olan şəxs maşına generalın oturduğu tərəfdən, qaçış tempini dəyişmədən yaxınlaşır və geri dönərək sola burulmaqla pilləkənlərdən üzü aşağı düşməklə kameraların əhatə dairəsindən itir. Həmin videoyaddaşda kapuşonlu şəxsin generalın olduğu maşınına atəş açarkən sürücünün buna reaksiya verməməsi də diqqəti çəkib. Axı necə ola bilər ki, yaxınlıqda atəş açılır, güllənin tapançanın lüləsindən çıxarkən yaranan səsi 3 addımlıqda dayanan sürücü eşitmir, atəşə reaksiya vermir? Bu məqam araşdırılıb. Belə qənaətə gəlinib ki, qatil generala səsboğucusu olan silahdan atəş açıb. Həmin gün havanın yağmurlu olmasını, 5 addım o tərəfdə, İnşaatçılar prospektində şütüyən maşınların uğultusunu nəzərə alanda sürücünün atəş səslərini eşitməməsi mümkündür.

### Kapuşonlu qatil 10-15 gün Rzayevi güdüb!

Həmçinin məlum olub ki, qatil ərazidə 10-15 gün əvvəldən peyda olub. Hər gün səhər general işə getməzdən 10-15 dəqiqə əvvəl əraziyə gələn kapuşonlu qatil, generalın maşını ərazidən keçəndən 10-15 dəqiqə sonra oranı tərk edib. Əgər kənardan qatili həmin günlərdə kimsə müşahidə etsəydi, onun ərazidə o tərəf - bu tərəfə qaçaraq sadəcə idman etdiyi qənaətinə gələrdi. Odur ki, ona xüsusi olaraq heç kim diqqət verməyib. Bakı küçələrində səhərlər qaçaraq idman edən çox adam var. İstintaqçılar belə qənaətə gəliblər ki, qatil həmin günlər ərzində ərazini, oradan generaldan savayı hərəkət edənləri də müşahidə etməklə vəziyyəti qiymətləndirib. Maraqlı məqamlardan biri də videokameraların qatilin üzünü fiksə etməməsidir. Qətl günü və ondan əvvəlki günlərin videoyaddaşında həmin şəxsin ərazidə idman etdiyi açıq-aydın görünür. Lakin onun üzü kapüşonu burnunun üstünə qədər çəkdiyindən görünmür. Qatil qətldən sonra onu ələ verə biləcək məqamları xırdalığına qədər nəzərə alıb və qətldən sonra əraziyə gəldiyi pilləkənlər vasitəsilə oradan uzaqlaşıb...

### Ötən 6 ildə nə dəyişdi?

Ötən 6 il qətl baş verəndən sonrakı günlərdə səslənən fikirləri də təsdiqləmiş oldu. Bilindi ki, R.Rzayevin qətlinin istintaqı da akademik Ziya Bünyadovun, "Monitor" jurnalının baş redaktoru Elmar Hüseynovun qətllərinin istintaqı kimi imitasiyadan o yana keçmir.

Əsas cinayət işinin ətrafında "var-gəl" edən istintaqçılar ili-ilə calamaqla, günahsız insanları istintaqa cəlb etməklə hərəkətlilik görüntüsü yaradırlar. Beləcə 6 il ötdü.

### Səfər Əbiyev Rzayevin yasına niyə gəlmədi?

6 il əvvəl R.Rzayev qətlə yetiriləndə onun birbaşa tabe olduğu şəxsin - nazir Səfər Əbiyevin Bakıda olmadığı haqda rəsmi məlumat yayıldı. Həmin məlumatlarda S.Əbiyevin vacib xarici səfərdə olduğu deyilirdi. Amma sabiq naziri öz müavininin 3 mərasimində də görən olmadı. Sonradan R.Rzayevin 7 mərasimi və 40 mərasimi də beləcə keçdi. Səfər Əbiyev müavininin yasına getmədi, heç onun qətlinin üstünün açılması üçün də hansısa addımlar atmadı. Hər halda, Səfər Əbiyevin belə bir təşəbbüslə çıxış etməsini eşidən olmayıb. Maraqlı məqamlardan biri də general Rzayevin ölümündən 1 həftə əvvəl S.Əbiyevə raport yazaraq izlənilməsi haqda məlumat verməsi ilə bağlıdır. Bu xəbər bu günə qədər təkzib və ya təsdiq olunmayıb. Əbiyev istefaya göndəriləndən sonra da bu mövzuda danışmamağa üstünlük verir.

### Özünə ölümündən az əvvəl qəbir yeri sifariş verən general

Əvvəlki illərdə yazmışdıq, bir də yada salaq. Generalı həmin gün tələm-tələsik, demək olar ki, ildırım sürəti ilə dəfn etdilər. Bunun ardınca da xəbər yayıldı ki, R.Rzayevin qəbri hələ o öldürülməzdən əvvəl qazılıb. Onun dəfn mərasiminə nazirlərdən heç kim qatılmadı. Dəfndən sonra xəbər yayıldı ki, R.Rzayev ölümündən az müddət əvvəl II Fəxri Xiyabana gedib. Orada özünə qəbir yeri sifariş verib.

### General öz qəbir yerini təsadüfən seçib?

R.Rzayevin özü üçün, həm də ölümündən az əvvəl seçdiyi yer 2005-ci ildə sifarişlə qətlə yetirilən "Monitor" jurnalının baş redaktoru Elmar Hüseynovun məzarı yaxınlığında yerləşir.

### Versiyaları araşdırmaq istintaqın işidir

Qətl baş verən gün prezident yanında hüquq-mühafizə orqanları rəhbərlərinin iştirakı ilə müşavirə keçirildi. Müşavirədə cinayətin tezliklə açılması üçün xüsusi əməliyyat-istintaq qrupunun yaradılması, ən peşəkar əməliyyatçı və istintaqçıların ora daxil edilməsi tapşırığı verildi. Lakin yaradılan istintaq qrupu bu günə kimi yerində sayır. İndiyə qədər generalın qətli ilə bağlı ən müxtəlif versiyalar səslənib. Versiyaları araşdırmaq istintaqın işidir. Amma görünür, istintaqçıların öz işini görmək üçün kifayət qədər vaxtları olsa da, generalın qətlini açmaqda nədənsə aciz qalıblar. Belə xəbərlər də vardı ki, bu acizlik heç də istintaqçıların qeyri-professionallığı ilə bağlı deyil. İstintaq davam edir. Nəticə isə sadəcə yoxdur!!!

❑ E.MƏMMƏDƏLİYEV



# Müsavat başqanının müavini qarət edilib

**Müsavat Partiyası başqanının müavini Elman Fəttahın avtomobilindən oğurluq edilib. APA-nın xəbərinə görə, bu barədə o, özünün facebook səhifəsində məlumat verib.**



Elman Fəttah

E.Fəttah bildirib ki, avtomobilinə oğru girib və bir neçə qutu siqaret, ətir və 150 avro məbləğində pulu götürüb: "Monitoru çıxarmaq istəsə də, sonra imtina edib. Hələlik bunları müəyyən edə bildim. Sənədləri götürməyib".

E.Fəttah bu haqda polisə məlumat verdiyini söyləyib.

# Tanınmış iş adamı "Hilton"da 1,8 milyona ev aldı




**"Hilton Baku" hotelində 1,8 milyon manata satışa çıxarılan mənzil alınıb. Azvision.az-ın əldə etdiyi məlumata görə, mənzilin yeni sahibi tanınmış iş adamıdır. Onun kimliyi isə hələlik açıqlanmır.**

Hazırda hoteldə daha bir yeni mənzil satışa çıxarılıb. 20 mərtəbəli "Hilton Baku"nun 13-cü mərtəbəsində yerləşən mənzilin ümumi sahəsi 220 m2 təşkil edir. 3 otaqlı mənzil 2,5 milyon manata təklif olunur . Mənzilin dəniz mənzərəli olduğu bildirilir.

"Hilton Baku" hələlik mənzil təklif edən yeganə paytaxt mehmanxanasıdır. Belə apartamentlər "Flame Tower" hotelində var, amma bu binada mənzillər hələ satışa çıxarılmayıb.

YENİ MÜSAVAT
N 31 (6059) 11 fevral 2015

**Nəqliyyat sektorunda yerdəyişmələr müxtəlif mülahizələrə yol açıb. "Azəryolservis" ASC sədri Cavid Qurbanovun "Azərbaycan Dəmir Yolları" QSC-yə sədr təyinatı, bu qurumun rəhbəri Arif Əsgərovun isə nəqliyyat nazirinin müavini gətirilməsi ilə bağlı fərqli rəylər var.**



# Nəqliyyat Nazirliyində kadr dəyişikliklərinin ilginc səbəbləri

## Ekspertlər "Azəryolservis" ASC-nin ləğv olunacağını proqnozlaşdırır; qurumun saxlanması əlavə izafi xərcdir və hökumət struktur islahatlarını genişləndirir

Bu təyinatları siyasi aspektdən dəyərləndirənlər hesab edirlər ki, hökumət nəqliyyat naziri Ziya Məmmədovun çevrəsində dəyişikliklər etməkdədir. Nazirin kurasiyasında olan icra başçılarının da yerlərinin dəyişdirilməsi belə düşünməyə rəvac verib.

Eyni zamanda isə neftin ucuzlaşması ilə əlaqədar yarana biləcək böhranı qabaqlamaq üçün addımlar atıldığı bildirilir. Vergilər Departamentinin, ardınca Torpaq və Xəritəçəkmə Komitəsinin, daha sonra "Azərenerji" ASC-nin ləğvi struktur islahatları kimi qiymətləndirilir. Ehtimal olunur ki, "Azəryolservis" ASC də eyni taleyi yaşaya bilər.

**İqtisadçı-ekspert Natiq Cəfərli** "Yeni Müsavat"a açıqlamasında bu versiyanın gündəmdə və real olduğunu qeyd etdi. Onun sözlərinə görə, bu qurumun saxlanması əlavə izafi xərcdir. N.Cəfərlinin fikrincə, qurumu ləğv edib nazirliyin nəzdində şöbə yaxud departament yaradılması mümkündür.

**N.Cəfərli deyir ki, dünya praktikasında təyinatı olanlar ictimaiyyətə görüləcək işlər haqda məlumat verir:** "Azərbaycanda bu praktika yoxdur. Əslində müəyyən məlumatlar dolaşırdı ki, struktur islahatı olacaq. Çünki "Azəryolservis" ASC-nin saxlanması izafi xərcdir.

Ümumiyyətlə, nazirlik iqtisadi fəaliyyətlə məşğul olmamalıdır. Amma bizdə iqtisadiyyata müdaxilələr edilir. ASC və QSC yaratmaqla məşğuldurlar. Görünən budur ki, idarəəmədə optimallaşdırmaya meyllənmə gedir. "Azəryolservis" nazirliyin tərkibinə qaytarıla bilər. Bu ehtimal böyükdür".

**Bununla belə, ekspert güman etmir ki, kadrların dəyişikliyi idarəetmədə ciddi nəticələrə gətirib çıxaracaq:** "Buna yeni kadr dəyişikliyi demək olmaz. Çünki təyinatlar eyni sektorda oldu. Sadəcə, keçmiş rəis daha yüksək vəzifəyə çəkildi. Təyinatların idarəetmədə müsbət irəliləyişə yol açacağı fikrini söyləmək çətindir. Amma dəmir yollarının rekonstruksiyası haqda hökumətin planı var.

Eyni zamanda Bakı-Axalkalaki-Qars dəmir yolunun çəkilişində problemlər meydana gəlib. Bu layihənin işə düşməsi üçün problemlər həll olunmalıdır. Əgər bu istiqamətlərdə dönüş olacaqsa, o zaman dəyişikliklərin uğurlu olduğunu söyləmək mümkündür. Amma köklü dəyişiklik olacağı inandırıcı deyil".

**"Azəryolservis" ASC-ni ləğv edib, Nəqliyyat Nazirliyinin tərkibində həmin sahəni idarə edə biləcək şöbə yaratmaq mümkündür". Bunu isə axar.az-a açıqlamasında yol hərəkəti üzrə ekspert Ərşad Hüseynov deyib. O, sözügedən qurumun Nəqliyyat Nazirliyinə birləşdirilməsinin mümkün olduğunu, lakin əsas məsələnin idarəetmənin effektivliyinə söykəndiyini bildirib:** "Azəryolservis" ASC-ni ləğv etmək elə də böyük iş deyil. Məsələ ondadır ki, cəmiyyət şəbəkələşmiş geniş strukturdur və regionlar üzrə yol tikinti idarələri var. O idarələri və ştatları ləğv etmək olmaz. Çünki daima yollara nəzarət etmək lazımdır. Strukturlaşmada əsas məsələ maliyyələşdirilmə yox, həmçinin idarəetmənin effektivliyidir.

"Azəryolservis" ASC-ni ləğv edib, Nəqliyyat Nazirliyinin tərkibində həmin sahəni idarə edə biləcək şöbə yaratmaq olar. Lakin bu da büdcəyə çox gəlir gətirməyəcək. Bu məsələdə əsas hədəf yolların standartlara uyğun olmasıdır, lakin bunu hələlik görmürük".

**Deputat Zahid Oruc isə azvision.az-a açıqlamasında bildirib ki, belə strukturlar təyinatlı olsa da, həmin qurum dövlətin səhm paketi əsasında formalaşıb. Bu baxımdan C.Qurbanovun deputat fəaliyyətinə xitam verilməyəcək:**

"Azəryolservis" Açıq Səhmdar Cəmiyyəti və "Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyəti təsərrüfat hesablı qurumlar kimi fəaliyyət aparırlar. Belə ki, öz gəlirləri hesabına çalışırlar. Belə olduğu üçün millət vəkili Cavid Qurbanovun mandatına xitam verilməyəcək".

Milli Məclisin üzvü bildirib ki, C.Qurbanov yol infrastrukturunun quruculuğunda böyük zəhməti olan şəxsdir. Z.Oruc qeyd edib ki, artıq Azərbaycanın dəmir yol sistemi beynəlxalq yükdaşımaların qovşağına və mərkəzinə çevrilmək ərəfəsindədir. Onu da deyək ki, fevralın 10-da Z.Məmmədov iclas keçirib və yeni təyinatları təqdim edib.

❑ **Emil SALAMOĞLU**

# Hakimiyyətin düşmənləri - harın məmur övladları...

## Prezidentin onların qudurğan hərəkətlərinə son qoyması barədə xəbərdarlığından sonra da əməllərini davam etdirirlər; onlarla ailənin faciəsinə səbəb olan qəzaların qorxunc statistikası...



**Məmur balalarının qudurğanlığı bütün əndazələri aşmaqdadır. Azərbaycan prezidentinin müşavirələrin birində sərt çıxışı da, deyəsən, ibrət dərsi olmayıb. Vəzifəli şəxslərin övladları hələ də bu əməllərini davam etdirməkdədir. Əslində onlar qorxunc bir statistikaya nəzər yetirəndə nəticə çıxarmalı idi. Çünki onlarla ailənin faciəsinə səbəb olublar. Amma belə görünür ki, məmur balalarının özbaşına hərəkətləri davamlı olacaq.**

Bu günədək xırda istisnalarla heç bir vəzifəli şəxsin övladı qudurğan hərəkətinə görə cəzalandırılmayıb. Xüsusilə də onlar bahalı maşınlarda törətdiyi qəzalarla ad çıxarıblar. Son olaraq isə deputat Ayaz Orucovun oğlunun adı avtoxuliqanlıqda hallandı.

Deputat isə yayılan xəbəri təkzib edərək bu informasiyanı dərc edən medianı məhkəmə ilə hədələdi: "Bu, yalan məlumatdır. Oğlumu yol polisi nəyə görə saxlamalıdır? Əslində polisin qanun pozan hər bir şəxsi saxlamaq hüququ var, amma mənim oğlumla bağlı deyilənlər tamamilə yanlış məlumatdır". O qeyd edib ki, oğlu İsmayıl Orucov ümumiyyətlə içki qəbul etmir.

Yada salaq ki, bir müddət əvvəl "Nissan Juke" markalı avtomobildə olan Aynurə Cəfərova "Yeni Müsavat" qəzetinə açıqlamasında deputat Ayaz Orucovun oğlu İsmayıl Orucovun rəfiqəsi Ramilə Süleymanovanın avtomobilinə atəş açdığını bildirib. Onun atası Novruz Cəfərov da eyni iddia ilə çıxış edib. Amma məmur övladlarının qudurğanlığı təkcə bununla məhdudlaşırmı? - Əsla.

Arxivə baxmaq kifayətdir ki, bu siyahıda kimlərin olduğunu xatırlayasan. Belə ki, Quba bələdiyyəsinin sədri Elxan Əliyevin oğlu, 26 yaşlı Bəhram Əliyev "Mercedes Galandewagen" markalı avtomobillə 45 yaşlı kişini vurub. Zərərçəkən hadisə yerində ölüb.

"Qaçqınkom"un Ağdam şöbəsinin müdiri Qabil İbadovun oğlu "Mercedes Galandewagen" markalı avtomobillə avtoşluq edərkən "KamAZ"la toqquşub. Zərərçəkən yüngül xəsarət alıb.

Kürdəmir Rayon Polis İdarəsinin cinayət-axtarış bölməsinin baş əməliyyat müvəkkili, polis mayoru İbrahim Sadıqzadənin oğlu, 16 yaşlı Sadıqzadə Rahim "Hyundai Santafe" markalı avtomobillə 65 yaşlı qadını vurub öldürüb.

Quba oliqarxlarından biri, UPF təşkilatının sülhməramlı səfiri Abbas Zeynalovun oğlu, 19 yaşlı Əbil Zeynalov "Mercedes Galandewagen" markalı avtomobillə 13 yaşlı qızı vurub öldürüb.

Tərtər rayonu icra başçısının müavini Vidadi Bəylərovun 15 yaşlı oğlu Elxan Bəylərli bir gənclə avtoxuliqanlıq edərkən gəncin maşını aşıb və həlak olub. Atası vəzifəsindən çıxarılıb. Bərdə şəhərinin icra nümayəndəsi Əli Fərzəliyevin avtoxuliqan kimi tanınan oğlu "Mercedes Galandewagen" markalı avtomobillə aftoşluq edərkən qəza törədib və nəticədə sürücülər xəsarət alıblar.

"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin sədr müavini Mübariz Mədətovun oğlu, 38 yaşlı Xalid Mədətov "Mercedes Galandewagen" markalı avtomobillə tarzən Ağasəlim Abdullayevin ailə faciəsinə *(həyat yoldaşı və nəvəsinin ölümü)* səbəb olub. Atası vəzifədən kənarlaşdırılıb, oğul həbs olunub.

Deputat Elton Məmmədovun oğlu Aynar Zığ yolunda avtoxuliqanlıqda ad çıxarıb. Səbayel rayon icra başçısı Asif Əsgərlinin oğlu İlhamın sentyabrın 27-də Türkan qəsəbəsində törətdiyi qəzada 16 yaşlı Sənan Mirzəyev dünyasını dəyişib. Sənan "McDonalds"ın Bakı nümayəndəliyinin rəhbəri Maqsud Mirzəyevin oğludur. Həmçinin deputat Hüseynbala Mirələmovun qardaşı oğlunun "Min bir gecə" restoranında törətdiyi qətli də qeyd etmək olar.

❑ **E.SALAMOĞLU**

# Müxalifət zəif olanda...



**Hüseynbala SƏLİMOV**

**Bəli, qəribədir. Hamı öz itkilərini hesablamaqla məşğuldur. Hakimiyyətin itkiləri milyardlarla dollarla, müxalifətinki isə nəfərlərlə ölçülür. Əslində belə olmamalı idi, hakimiyyət itirəndə müxalifət qazanmalı, sayını və sıralarını artırmalı idi...**

Amma nə etmək olar? Bura qeyri-standart məntiq ölkəsidir, burada ilk baxışda çox şey adi təsəvvürlərlə uyuşmur...

Müsavatın qurultayı ərəfəsində hörmət etdiyim bir müsavatçı məndən soruşdu ki, niyə bir şey yazmırsan? Doğrusu, o vaxt nə cavab verəcəyimi bilmirdim...

Elə indi də bilmirəm. Amma partiyadaxili müxalifətin təmsilçilərinin bir-bir partiyadan kənar edilməsini də sakit seyr etmək olmur...

Onların da səhvi oldu. Bu adamlar partiyada seçkinin düz keçmədiyini sübut edən ciddi bir dəlil qoya bilmədilər ortaya. Belə halda nə edirlər? Sakitcə seçkinin nəticələrini qəbul edir və növbəti qurultaya hazırlaşırlar...

Amma Müsavatdakı narazı qrup belə etmədi. Onlar vəziyyəti gərginləşdirmək yolunu tutdular. Bununla heç də demək istəmirəm ki, bu adamları partiyadan xaric etmək lazım idi. Əsla...

Əvvəldən demişdik ki, əvvəlki başqanın seçkilərə təsiri olacaq. O mənada yox ki, bu, hansısa qeyri-standart bir hərəkət və ya seçki pozuntusu olacaqdı...

O mənada ki, İ.Qəmbərin kimi müdafiə etməsi partiya üzvlərinin seçiminə təsir edəcəkdi. Bəli, İsa bəy seçimini etdi və A.Hacılının üstündə dayandı. Elə bu səbəbdən də A.Hacılının az səs fərqi ilə olsa da qalib gəlməsi təəccüb doğurmamalıdır...

Bəs onda niyə belə oldu? Görünür, qalib gəlmələrinə baxmayaraq partiyadakı qalib qrup da özünə bir o qədər də əmin deyil...

Hiss olunur ki, onlar qarşılarında çox ciddi bir rəqib görürlər. Elə bu səbəbdən də narazı qrupu potensial liderindən məhrum etmək yolunu tutdular...

Olsun. Bu, siyasi mübarizədir. Tərəflər bir çox hallarda taktikalarını kənarda necə qarşılanması baxımından deyil, öz siyasi maraqları baxımından seçirlər...

Bu baxımdan Müsavat rəhbərliyinin taktikası aydındır - kim gedirsə getsin, biz burada qalacaq və pensiya yaşımıza qədər bu partiyanın sükanını əlimizdə saxlayacağıq...

Ola bilsin, bir qədər şişirtməyə yol verdim. Amma primitiv şəkildə siyasət budur...

İşin tərsliyindən adamların böyük əksəriyyətinin getməyə yeri də yoxdur. Ola bilsin, tək-tük adamları hakimiyyət tərəfdə gözləyirlər. Amma orada da status və rollar baxımından çox tünlükdür, böyük rəqabət var...

İndi hakimiyyətin müxalifət tərəfdən transfer edənlərə ən böyük hədiyyəsi bir deputat mandatıdır...

Onlar da bundan artıq heç nə edə bilməzlər. Üstəlik, bu da hamı üçün nəzərdə tutulmayıb. Ona görə ki, burada da əks-rabitə vardır - müxalifət zəif olanda onun sıralarından transfer edənlərin də dəyəri bir o qədər də böyük olmur...

Müxalifət güclü olsaydı, bax, onda hakimiyyət daha səxavətli ola bilərdi. Bəzi hallarda isə hakimiyyət özünə meyl edən adamların elə müxalifətdə qalmasını istəyir - bu halda onların "məzənnə"si daha aşağı olur...

Bunları niyə deyirik? Sadəcə, göstərmək istəyirik ki, müxalifətin zəif olması bir çox proseslərə mənfi təsir göstərir - bundan ilk növbədə cəmiyyət itirir, amma bu, hələ hamısı deyil. Müxalifət zəif olanda siyasət bazarında da qiymətlər düşür... Bir növ özünəməxsus "inflyasiya" gedir-siyasətçilər də "dəyər"dən düşürlər...

Transfer etmək istəyənlər bunu nəzərə almalıdırlar. "Siyasi marketinq"in də mövsümləri olur - elə vaxt olur ki, "qiymətlər" qalxır, elə də olur ki, əksinə, bir az düşür...

Ona görə də düşünürük ki, Müsavatdan total qopmalar olmayacaq. Ola bilsin ki, daha bir neçə nəfər gedəcək. Amma bu, həlledici olmayacaq... Çünki artıq bu, 2000-ci ilin Müsavatı deyil...

İşin tərsliyindən indi bir proqram, fəaliyyət konsepsiyası da tələb etmək olmur. Deyirlər ki, bu il parlament seçkisi ilidir, bizim də əsas işimiz parlament seçkisinə hazırlaşmaqdır. Nə deməkdir olar? Qoy, hazırlaşsınlar. Buna elə bir etiraz yoxdur...

Etiraz daha çox onunla bağlıdır ki, bir az insanlara tərəf dönmək, onları başa düşmək lazımdır. Getməyə yerləri yoxdur deyə onları tamam saymamaq da düzgün deyil. İnsanlar sözün əsl mənasında fədakarlıq göstərirlər. Və təbii ki, bunun nəzərə alınmasını, hətta mükafatlandırılmasını arzulayırlar...

Zəifləyəndə insanlar kövrək olur. Müxalifət də "Axırıncı aşırım" filmində deyildiyi kimi, bir möhürdən, ştampeldən ibarət deyil, insanlardan ibarətdir...

YENİ MÜSAVAT
N 31 (6059) 11 fevral 2015



# Trillerlər, detektivlər, komediyalar ölkəsi

**Samir SARI**

**Rusiyada bir film çəkilib, adını özüm bilə-bilə çəkmirəm, çünki bu saat o film barədə yazı yazmayan bir mən qalmışdım, mən də yazdım. O film bir neçə beynəlxalq mükafat alıb, "Oskar"a da iddia edir.**

Film müasir Rusiyada baş verən haqsızlıqdan, ədalətsizlikdən, sovet təbliğatçıları demişkən, neqativ hallardan, antipod ünsürlərdən bəhs edir. Artıq o barədə o qədər danışıblar, yazıblar ki, çox adam baxmışa, görmüşə dönüb.

İndi deyirlər ki, Rusiyada və guya bizim ölkəmizdə o filmin nümayişini qadağan ediblər ki, millətin başını xarab edə, onları hökumətə qarşı körükləyə bilər.

Rusiyanı bilmirəm, amma yüz o cür film ola, biri də bizim halımızı pozan, ovqatımıza təsir edən, düşüncələrimizə təsir göstərən deyil.

Ümumiyyətlə, bizim ölkəmizin özü elə Hollivud kimi bir yerdir. İntəhası, aradakı fərq odur ki, Hollivudda uydurma ssenarilər əsasında maraqlı filmlər çəkirlər, bizdə isə maraqlı olaylar yaşanılır, amma bu barədə film çəkən, çəkə bilən yoxdur.

Baş verən hadisələri ssenariyə alan, Spilberq, Tarantino, Koppola kimi bir rejissorlara təqdim edən olsa, nə detektivlər, trillerlər, komediyalar ərsəyə gətirmək olar.

Məsələn, onlar təkcə Hacı Məmmədovla bağlı prosesi əsas götürərək, heç bir uydurmaya yol vermədən, sırf sənədlər əsasında ən azı beş seriyalı film çəkərlər, "Sprut" və "Xaç atası" yalan olar, bütün dünya "Qarabulaqlı qatil" filminin tamaşasına durar.

38 yaşında qətlə yetirilmiş jurnalist Elmar Hüseynovun həyatı ilə bağlı film ingilis kinematoqrafçılarının çəkdiyi və 38 yaşlı qadın jurnalistin qətlindən bəhs edən filmi kölgədə qoya bilər.

13 yaşından bəri başına gəlməyən məşəqqət, pəstəha, ağrı-acı qalmayan Lamiyənin həyatı bir neçə seriyalıq filmə sığışmaz. Bunun üçün Osman Sınav və Mustafa Şevki Doğan kimi rejissorlar lazımdır, qızın həyatından bəhs edən ssenarini götürüb "Kurtlar vadisi" kimi bir serial çəkələr. O işdə azı 50 bölümlük serial materialı var. Ta nə olmaz ki, o filmdə? Məmur fironluğu, harın züryət qudurğanlığı, azyaşlı qıza qarşı cinsi zorakılıq, məhbəs işgəncəsi, Femida rəzilliyi, rəis-prokuror-hakim köləliyi və sair və ilaxır.

Lamiyənin filmini gerçək, həyati səpkidə çəkən, dünyaya çıxaran olsa, "Oskar"ı götürər. Onun yanında Zvyagintsevin dildən düşməyən filminə qoz da verməzlər.

Triller, siyasi detektiv həvəskarları da ruhdan düşməsinlər. Onların menyusuna da maraqlı filmlərimiz ola bilər. Məsələn, belə bir film adı düşünün: "Yağmurluqlu killer generalı necə güllələdi".

Bu günlərdə "Balaxanski" kod adıyla tanınan əməkdaşımız Elşən general Rail Rzayevin 6 il öncə bu gün baş vermiş qətli barədə ssenarifason bir yazı yazıb, onu oxuyanda adam elə bilir, oturub filmə baxır.

Budur, əyninə geyindiyi gödəkçənin yağmurluğunu (öz dilimizdə desək, kapyuşonunu) üzünə saldığı üçün üzü görünməyən naməlum şəxs küçədə idmançılar dəstiri aşağı-yuxarı qaçır, müşahidə kameraları onu izləyir, amma adamın üzü görünmür. Birdən o, zibil qutularının yanında dayanmış avtomobilə yaxınlaşır, gödəkçəsinin altından səsboğuculu tapançasını çıxarıb maşında oturmuş, çiynində iri ulduzlu general poqonu olan şəxsə atəş açır və cəld şəkildə geriyə dönərək aradan çıxır, türkün sözü, kayıblara qarışır.

Film belə başlasa, çox effektiv, maraqlı alına bilər, tamaşaçıları ekran qarşısına kilidləyər. Ancaq bir çatışmazlıq var: bəs filmin sonrası necə olacaq? Naməlum qatil, naməlum sifarişçi tapılacaqmı? Filmin bundan beləsini davam etdirmək üçün fantaziyası geniş ssenarist və rejissor lazımdır ki, kriminalistlərin əvəzindən naməlum sifarişçi və killeri tapıb filmi tamamlasın. Yoxsa bu işə görə bir neçə yetim-yesirin həbsə alınmasını göstərməklə filmi yekunlaşdırmaq olmaz. Tamaşaçı baxıb deyər, heyf zənnimizə, o cür gözəl başlayan filmə bu cür sönük final yaraşmaz. Heç bu film mükafat da ala bilməz.

Erotika həvəskarlarının isə şikayətlənməyə əsasları yoxdur. Son illər hökumət adamları bu janrda xeyli film çəkiblər, hamı da baxıb. Düzdür, bu filmlər keyfiyyətsizdir, rejissor, operator və aktyor işi palaz səviyyəsindədir, amma heç olmasa, ortada iş var. İş olan yerdə nöqsan da olar.

Qaldı kinokomediyalar... Çəkən olsa, çox adam özünü tanıyar.

**"Lamiyə işi"nin əsas fiqurantı Aslan Aslanovun ölkədən çıxışına qeyri-rəsmi qadağa qoyulub. Hüquq-mühafizə orqanlarına yaxın mənbədən verilən məlumata görə, sabiq nazir müavini ölkədən kənara çıxa bilməz.**

# Aslan Aslanovun ölkədən çıxmasına qeyri-rəsmi qadağa

## Sabiq nazir müavininin Azərbaycan-Gürcüstan sərhədindən geri qaytarılması xəbəri var; "Lamiyə işi" daha kimləri bitirə bilər?




Xatırladaq ki, fevralın 9-da Baş Prokurorluq L.Quliyevanın qanunsuz olaraq təqsirləndirilməsinə və məhkum olunmasına dair araşdırmalara başladığını açıqlayıb. Açıqlamada işdə adı keçən vəzifəli şəxslərin həbs ediləcəyi anons edilib. Belə görünür ki, hüquq-mühafizə orqanları "Lamiyə işi" üzrə əsas dindirilməli şəxs A.Aslanovun ölkədən çıxması ehtimalını nəzərə alıblar və onun sərhədləri aşmasına qadağa qoyublar.

Eks-nazir müavininin Baş Prokurorluğun Ağır Cinayətlərə Dair İşlər üzrə İstintaq İdarəsinə çağırıldığı xəbəri də var. Qeyd edilir ki, A.Aslanovu iş üzrə qeyri-rəsmi sorğu-sual edərək sərbəst buraxıblar. Ona ölkədən çıxmamaq da tapşırılıb.

Digər bir məlumata görə isə A.Aslanovu Gürcüstan-Azərbaycan sərhəd keçid məntəqəsində saxlayaraq geri qaytarıblar.

### Aslanovu çətin suallar gözləyir

L.Quliyevanın anası K.Quliyeva, onun nişanlısı olmuş, hazırda ömürlük həbsdə olan Vüqar Əliyevin atası İbrahim İsmayılov övladlarına qanunsuz olaraq cəza və işgəncə verilməsində A.Aslanovu ittiham edirlər. Deyirlər ki, A.Aslanov oğlunun öldürülməsinə görə onların övladları ilə bərabər özlərinə qarşı da qanunsuzluqlara nail olub. Vəzifəsindən sui-istifadə edərək onların qanunsuz həbslərinə və uzunmüddətli azadlıqdan məhrum edilmələri ilə nəticələnən sifarişlər verib. Həmin sifarişlərin icrası üçün əlindən gələni edib. Vüqar Əliyevin yeməyinə saxlandığı Qobustan Qapalı Həbsxanasında zəhər qatılıb, 4 saylı cəzaçəkmə müəssisəsində saxlanan Lamiyə Quliyeva isə özünü öldürmə həddinə çatdırılıb. Məhkum qadın dəfələrlə özünü öldürmək istəyib.

Araşdırmaların nəticəsi olaraq başlanacaq istintaqda A.Aslanovu çətin suallar gözləyir. O, icra başçısı, sonradan isə nazir müavini olaraq faktiki dövlətin qanunlarına qarşı çıxıb, dövlətin adından çıxarılan məhkəmə hökmlərini saya salmayaraq özünün istəyinə uyğun qərarlar verilməsinə nail olub. Bu əməllərinə görə dövlətin qarşısında cavab verməlidir.

### Baş Prokurorluğun təlaşa saldığı vəzifəlilərdən biri danışdı

**Lamiyə Quliyevanın işi üzrə Baş Prokurorluğun protest verməsi, ardınca işdə əli olan vəzifəlilərin həbs ediləcəyini anons etməsi işə bu və ya digər şəkildə aidiyyəti olan vəzifəlilərin təlaşına səbəb olub. A.Aslanovun oğlu Ruslan Aslanov öldürülən vaxt Şəmkirin polis rəisi olmuş Akif Göyüşov aznews.az-a müsahibə verib. Deyib ki, hələlik onu istintaqa dəvət etməyiblər:**

- Mən heç yerə çağırılmamışam. Əvvəla, mən hadisə baş verən vaxtda məzuniyyətdə olmuşam. Ona görə də heç nədən xəbərim olmayıb.

*- Bəs məzuniyyətdən qayıdandan sonradamı araşdırmanın gedişatından xəbər tutmadınız?*

- Mən məzuniyyətdən qayıdanda iş artıq istintaqa təhvil verilmişdi. Biz də istintaqın işinə müdaxilə edə bilməzdik.

*- Lamiyənin anası mətbuata müsahibəsində deyib ki, qətldən sonra Ruslanın münasibətdə olduğu 100-ə yaxın qadın polisə çağırılıb və ifadəsi alınıb. Bu doğrudurmu?*

- Bu dedikləriniz hamısı istintaqın işinə daxildir. Yaxşı olar ki, suallarınızı istintaqda çalışmış adamlara ünvanlayasınız. Biz istintaqın başının üstündən sorğuya adam gətirə bilməzdik. Onların işinə müdaxilə etməyə səlahiyyətimiz çatmır.

*- İddialar var ki, Aslan Aslanov qanunsuz həbslər etdirirmiş, özü də polisin əli ilə. Həmin dövrdə də Şəmkirin polis rəisi siz olmusunuz...*

- Polisin kimisə həbs etməyə ixtiyarı yoxdur. Həbsi prokurorluq edir, tutmaq üçün icazəni də məhkəmə verir. Polisin 3 saatdan artıq adam saxlamağa icazəsi yoxdur.

*- Amma məlumatlardan görünür ki, rayonda həmin vaxt siz dediyiniz qanun yox, Aslanovun öz qanunları işləyirmiş...*

- Mən həmişə qanunlara riayət etmişəm.

*- Belə bir məlumat da var ki, Ruslan Aslanovun qətlinin araşdırılması işinə hərbi polis də cəlb olunub. Meyitin də məhz hərbi polis tərəfindən tapıldığı bildirilir...*

- Bu haqda mənim heç bir məlumatım yoxdur. Hərbi polisin bu işə necə cəlb olunması barədə heç nə bilmirəm. Deyiyim kimi, mən həmin vaxt məzuniyyətdə olmuşam.

### Aslanovun polis rəisi nə demək istəyir?

Polis rəisi müsahibəsində "Biz istintaqın başının üstündən sorğuya adam gətirə bilməzdik" fikrini vurğulayır. Demək istəyir ki, qətl işini prokurorluq araşdırırdı, rayonun rəhbərliyi var, bizə kimi deyirdilərsə, gedib tutub prokurorluğa təqdim edirdik. Məzuniyyətdə ikən adam gətirilməsində necə iştirak etdiyini isə açıqlamır. Qeyd edək ki, Baş Prokurorluq L.Quliyevanın 2010-cu ildə Cinayət Məcəlləsinin 317.2-ci (cəzaçəkmə müəssisələrinin və ya istintaq təcridxanalarının normal fəaliyyətini pozma) maddəsi ilə təqsirləndirilməsinə dair məhkəmə hökmünün ağırlığı ilə bağlı apelyasiya protesti verib. Protest təmin edilərək baxılmaq üçün Bakı Apelyasiya Məhkəməsinə göndərilib. İşə fevralın 13-də baxılacaq.

### Deputatlar Lamiyənin anasına zəng edir

**"Fevralın 13-də Bakıda olacağam və məhkəmə prosesində iştirak edəcəyəm. Ümid edirəm ki, qızımı azadlığa buraxacaqlar". Bu sözləri axar.az-a açıqlamasında Lamiyə Quliyevanın anası Kifayət Quliyeva deyib. K.Quliyeva bildirib ki, bu məsələ ictimailəşəndən sonra ona çoxlu zənglər gəlib, onların arasında deputatlar da var:** "Zəng edən çoxdur. İnanın o qədər maraqlanan adam var ki! Ancaq həmin deputatların adlarını açıqlamaq istəmirəm. Ümid edirəm ki, bir nəticəsi olacaq".

### Vüqar Əliyevə vəkili ilə görüşməyə icazə verildi

"Lamiyə işi" gündəmə gələndən sonra onun nişanlısı olaraq həbs edilən, hazırda ömürlük həbsdə olan Vüqar Əliyevin də taleyi müzakirə mövzusuna çevrilib. 1 nəfərin ölümünə görə 2 nəfərin ən ağır cəzalara, üstəlik, birinin ömürlük həbsə göndərilməsindən doğan sual da cavabsızdır. V.Əliyevin vəkili Adəm Məmmədov deyir ki, aparılan araşdırmalar üzrə bütün suallar cavabını tapacaq: "Mən buna inanıram. Vüqar da, Lamiyə də baş verənlərə görə artıqlaması ilə cəza çəkiblər. Zatən hər kəs bunun fərqindədir. Aparılan araşdırmaların nəticəsində hər 2 şəxsin azad edilməsi mümkün olacaq".

**Vəkil bildirib ki, artıq müvəkkili ilə görüşməsi üçün tələb olunan icazə məktubu ünvana çatıb:** "Penitensiar Xidmətdən Qobustan Qapalı Həbsxanasına Vüqarla görüşməyim üçün tələb olunan məktub çatıb. Mənə bu haqda məlumat verilib. Sabah (fevralın 11-də) Vüqarla görüşəcəyəm".

Qeyd edək ki, Lamiyə və keçmiş nişanlısı Şəmkirin sabiq icra başçısı Aslan Aslanovun oğlu Ruslanı qətlə yetirməkdə təqsirləndirilib. Vüqar ömürlük, Lamiyə 10 il həbs cəzası alıb. 2013-cü ildə Quliyevanın cəzası bitsə də, nəzarətçini döyməsi ittihamı ilə cəza müddəti 5 il 6 ay artırılıb. 2014-cü ildə onu hədə-qorxu ilə tələb etmədə ittiham edərək növbəti dəfə məhkəmə qarşısına çıxarıblar. Bakı Apelyasiya Məhkəməsində L.Quliyevanın cəza müddəti növbəti dəfə 6 il 6 ay artırılıb. Həmin məhkəmə qərarı Ali Məhkəmə tərəfindən ləğv olunub.

**❑ E.MƏMMƏDƏLİYEV**

YENİ MÜSAVAT
N 31 (6059) 11 fevral 2015



"Koroğlu Rəhimov küçəsinin Həsən Əliyev küçəsinə qədər olan hissəsi yanvarın 27-də təmirdən sonra açılmışdı. Cəmi 10 gün keçdi, yolu yenə təmir edirlər. Normal ölkələrdə bu əməl cinayət sayılır. Buna görə mütləq kimsə tutulmalıydı. Çünki söhbət dövlət vəsaitini dağıtmaqdan gedir". Bu sözləri jurnalist Mahir Məmmədli sosial şəbəkədəki statusunda paylaşıb.

# Yollarda talanan büdcə pulları

## **Müzəffər Baxış:** "Obyektiv istintaq aparılsa, bu cinayətləri törədən bir çox vəzifəli şəxsləri məsuliyyətə cəlb etmək olar"

## **Məzahir Rüstəmov:** "Dövlət qurumları arasında birgə fəaliyyət və ardıcıllıq prinsipi olmadığından yollar bir neçə dəfə yenilənməli olur"

Hazırda cəmiyyəti ən çox narahat edən problemlərdən biri də milyonlarla manat vəsait hesabına salınan yolların bir neçə gündən sonra yenidən qazılması və dövlət büdcəsindən xərclənən pulların havaya sovrulmasıdır. Ancaq bu günə qədər ölkədə korrupsiyanın ən çox yayıldığı sahələrdən biri olan yol tikintisi ilə məşğul olan qurumlardan, vəzifəli şəxslərdən kimsə məsuliyyətə cəlb edilməyib. Neftin qiymətinin ucuzlaşması səbəbindən dövlət gəlirlərinin azaldığı və hökumətin bu səbəbdən ciddi struktur islahatlarının apardığı bir zamanda milyonlarla manat vəsaitin yollara səpilməsinin qarşısını almaq üçün niyə əməli tədbirlər görülmür?

"Yeni Müsavat" bu suallar ətrafında bir neçə ekspertdən rəy alıb.

**Hüquqşünas Müzəffər Baxışın fikrincə, dövlət büdcəsindən ayrılan vəsaitin mənimsənilməsi və bu zaman yol verilən saxtakarlıq halları Cinayət Məcəlləsinin müvafiq maddələri ilə məsuliyyətə səbəb olur:** "Azərbaycanda bu problem həddindən artıq aktualdır. Çünki yeni çəkiləcək yolların layihəsi tərtib olunarkən, məsələn, Bakı-Quba yolu, Bakı-Sumqayıt yolu kimi beton yol çəkilərkən layihəni icra edən şirkətlər KİV-də məlumat verirlər ki, bu yollar ən azı 30 il istismar olunmalıdır. Təkcə bu yollar deyil, digərlərində də oxşar problemlər var. Yəni yolun nə qədər müddətdə istismar ediləcəyi göstərilir. Ancaq Azərbaycan reallığında bu bir faktdır ki, yol tikintisi ilə bağlı çox ciddi mənimsəmə halları var. Bu cəmiyyətə bəlli olan bir məsələdir. Çünki 30 il müddətində istismarı nəzərdə tutulan yollar bir ilə dağılır. Bu zaman bir məsələ ortaya çıxır ki, yol tikintisi ilə məşğul olan şirkətlər ayrılan vəsaiti mənimsəyiblər və keyfiyyətli yol çəkməyiblər. Bu vəsaitin mənimsənilməsi AR Cinayət Məcəlləsində konkret cinayət məsuliyyəti nəzərdə tutur. CM-in 179-cu maddəsinə görə, mənimsəmə



və israfetmə, yəni təqsirkara etibar edilmiş özgə əmlakını talama cinayətinin tərkib əlamətləri var. Əgər mənimsənilən əmlak 7 min manatdan yuxarıdırsa, bu zaman o şəxslərin əməlləri CM-in 179.3.2-ci maddəsi ilə "külli miqrdarda törədilməklə" ifadəsi ilə tövsif olunur və həmin şəxslər 7 ildən 12 ilədək müddətə azadlıqdan məhrumetmə cəzasına məhkum edilə bilərlər. Təkcə həmin şəxslərin əməllərində digər cinayətin də tərkib əlamətləri mövcuddur. Həmin şəxslər vəzifə səlahiyyətlərindən sui-istifadə etməklə ağır nəticələrə səbəb olan əməl törədirlər. Buna görə də Cinayət Məcəlləsinin 308.2-ci maddəsində 3 ilədək müddətə müəyyən vəzifə tutmaq, müəyyən fəaliyyətlə məşğul olmaq hüququndan məhrum edilməklə 3 ildən 8 ilədək müddətə azadlıqdan məhrumetmə cəzası nəzərdə tutulub. Onlar həmin mənimsəməni həyata keçirmək üçün vəzifə saxtakarlığı həyata keçiriblər. Yəni vəzifəli şəxs tərəfindən rəsmi sənədlərə, informasiya resurslarına yalan məlumatların daxil edilməsi, sənədlərin həqiqi məzmununu təhrif edən düzəlişlərin edilməsi, şəxsi məqsədlər və tamah niyyəti ilə törədildikdə vəzifə saxtakarlığı hesab olunur. Vəzifə saxtakarlığı cinayətinə görə 2 ilədək müddətə azadlıqdan məhrumetmə cəzası nəzərdə tutulur.

Bundan əlavə, əgər onlar taladıqları əmlakdan yüksək vəzifəli şəxslərə rüşvət verirlərsə, onların əməlində rüşvətvermə cinayətinin tərkib əlamətləri var. AR CM-in 312-ci maddəsində nəzərdə tutulan vəzifəli şəxs tərəfindən bilə-bilə qanunsuz hərəkəti etməyə görə, rüşvətverməyə görə cinayət məsuliyyətinə cəlb edilə bilər. Burada da 4 ildən 8 ilədək azadlıqdan məhrumetmə cəzası nəzərdə tutulub. Çünki o tenderi həmin şirkətə verən qurum yaxşı bilir ki, burada dövlət əmlakını mənimsəmə faktı var. Əgər həmin vəsaitdən onlara da pay çatmasa, buna göz yummazlar. Azərbaycanda bu məsələlərlə bağlı obyektiv istintaq aparılsa, bu cinayətləri törədən bir çox vəzifəli şəxsləri məsuliyyətə cəlb etmək olar. Ancaq bu çox çətin məsələdir. Çünki yüksək vəzifəli şəxslər bu cinayət əməllərində bilavasitə iştirak edirlər. Bu səbəbdən bu cinayətin iştirakçısı olan şəxslərin cəzalandırılması real deyil".

**Nəqliyyat məsələləri üzrə ekspert Məzahir Rüstəmov isə bildirdi ki, bunun səbəbi ayrı-ayrı dövlət qurumları arasında əlaqələrin zəif olması və hər hansı yol-infrastruktur layihələri həyata keçirilərkən bu qurumlar arasında müzakirələrin aparılmamasıdır:** "Yol çəkilərkən yaxşı olar ki, həmin istiqamət üzrə keçəcək digər kommunikasiya xətləri, su, qaz, kanalizasiya və sair çəkilsin, daha sonra asfalt örtüyü ilə əhatə olunsun. Ancaq Azərbaycanda demək olar ki, bu qurumlar bir-birindən xəbərsiz işləyir, yol istifadəyə verildikdən sonra gecikmiş kommunikasiya xətlərinin çəkilməsi üçün asfalt örtüyü qazılır, yamanır və istifadəyə yararsız hala gəlir. Bu yolla dövlət büdcəsinə külli miqdarda ziyan vurulur və hər dəfə yeni vəsait ayrılarkən yeyinti baş verir. Bakı şəhərinin nəqliyyat sisteminin təkmilləşdirilməsi ilə bağlı dövlət başçısının dəfələrlə sərəncamı olub ki, bunlardan bir də 2006-cı ildə verilib. Sərəncamda aydın şəkildə qeyd olunub ki, yol infrastrukturunun yenilənməsində bir neçə qurum birgə iştirak etməlidir. "Azərsu" ASC, Rabitə Nazirliyi, "Azəriqaz" ASC və digər qurumlar da öz vəzifələrini vaxtında həyata keçirməlidirlər. Bu birgə fəaliyyət və ardıcıllıq olmadığına görə yollar bir neçə dəfə yenilənməli olur. Bir yolun yenidən çəkilməsi üçün əvvəlki xərclərin ən azı yarısı qədər vəsait xərclənməlidir. Bu isə milyonlarla manat deməkdir".

**İqtisadçı ekspert Natiq Cəfərli isə bildirdi ki, Azərbaycanda yollara xərclənən vəsaitin həcmini dəqiq hesablamaq təəssüf ki, mümkün deyil:** "Əlaqədar qurumlar vaxtaşırı olaraq hər bir layihə üzrə xərclənən vəsaitlərin həcmi ilə bağlı açıqlama vermirlər. Ancaq dolayı yollarla bəzi hesabatlara baxdıqda belə nəticəyə gəlmək olur ki, yeni çəkilmiş yolların saxlanılması üçün vəsaitlər ilbeil artırılır, ancaq bunun nəyə xərclənməsi açıqlanmır. Yeni istifadəyə verilən yolların saxlanılması üçün də ciddi məbləğdə vəsait ayrılır. Bütün kommunal xidmət mərkəzləri bir mərkəzdən idarə olunsaydı, bu yolların təkrar qazılmasının qarşısını ala bilərdi".

Səslənən ittihamlara cavab verən "Azəryolservis" ASC-nin mətbuat xidmətinin rəhbər Pünhan Mürsəliyevlə əlaqə saxlamağa çalışsaq da, cəhdlərimiz baş tutmadı. Məsələ ilə bağlı maraqlı tərəflərin mövqeyini dərc etməyə hazırıq.

❑ Nərgiz LİFTİYEVA

---

## Lamiyə və Vüqar üçün xilas kəməri



Zahid SƏFƏROĞLU
zsafaroglu@gmail.com

# Bəs digərləri....

**Azərbaycanda azad mətbuatın nəfəsi hələ ki gəlir. Və nə yaxşı ki, gəlir. Ölkəni dünya çapında üzüağ edən, ona çağdaşlıq xassəsi verən azsaylı atributlardan biri də elə budur - məhdud imkanlarda, fövqəladə şərtlər altında da olsa, "dördüncü hakimiyyət"in mövcudluğu, onun tam sıradan çıxmaması, ayaqda durmağı bacarması. Buna indi həm də başqa bir rakursdan sevinmək lazım gəlir.**

Doğru, ölkədə de-fakto hakimiyyətin konstitusiya ilə nəzərdə tutulan üç müstəqil qanadından əslində yalnız biri qalıb - məhkəmə hakimiyyəti də, qanunverici hakimiyyət də bizdə çoxdan Ali icra hakimiyyətinə tabe durumdadır. Amma etiraf edək ki, azad medianın balaca bir qalası da öz nominal müstəqilliyini qoruyub saxlamaqdadır.

Hansı qüvvənin və amillərin hesabına - bu, artıq ayrı yazının mövzusudur, amma bu qala var olmaqda, xalqın, toplumun mənafeyinə işləməkdədir. Deməli, hələ hər şey itirilməyib. Deməli, "köz" hələ qalır. Bu da olmasaydı, Azərbaycan sözsüz ki, totalitar rejimli dövlətlərin sırasına yuvarlanar, Şimali Koreyadan, Türkmənistandan heç nə ilə fərqlənməzdi. Amma şükür ki, fərqlənirik.

Bunun bir təzahürü də "Lamiyə və Vüqar işi"ndə özünü göstərdi. Məhz bu iki talesiz gəncin, onların yaxınlarının çöldə və türmədə başına gələnlərin azad media sayəsində ictimailəşməsi nəticəsində problem öz kulminasiyasına sürətlə yaxınlaşır və mümkündür ki, hətta bu həftə ədalətin hüquqi formada təntənəsini görək. Hər halda, Baş Prokurorluğunun yaydığı son açıqlama buna böyük inam yaradır.

Azərbaycandakı idarəetmənin özəlliklərini ciddiyə alsaq, belə də yazmaq olar ki, artıq ən yüksək instansiyalarda da problemin fərqindədirlər və "düyməyə" kifayət qədər yüksək səviyyədə basılıb - yaxşı mənada əlbəttə ki. Bu xüsusda günahkarların həbsi anonsunun verilməsi də diqqət çəkir. Yəni işdə adı hallanan dustaqlarla azadlıqdakıların yerləri dəyişə də bilər...

Şübhəsiz ki, konkret halda hüquqi ədalətin gec də olsa bərqərar edilməsi, Azərbaycanda özünü orta əsrlərin müstəbidləri kimi aparıb insanlara layiq olmadığı ağır cəzalar verdirənlərin, linç etdirənlərin gec də olsa istintaqa cəlb edilməsi hakimiyyətin imicinə işləyəcək. Ancaq bir iş var ki, azad media bu məsələnin üstünə getməsəydi, onu ictimailəşdirməsəydi, kim bilir, Lamiyə və keçmiş nişanlısı hələ neçə il zindanda çürüməli olacaqdılar - bu, onlar üçün əsl "xilas kəməri" oldu.

İstənilən halda, baş verənlərdən hasil olan mühüm sonuclardan biri odur ki, cəmiyyətdəki, siyasi sistemdəki ən qorxunc və qapalı problemlərə tərtəmiz güzgü tutan, onların üstünə getməyi bacaran "dördüncü hakimiyyət"in varlığında ən birinci elə hakimiyyətin özü maraqlı olmalıdır. "Dördüncü hakimiyyət" daha çox "birinci hakimiyyət"ə, prezidentə lazımdır ki, ölkədəki real durumdan vaxtında hali ola bilsin, tərif və mədhiyyə selində haqq səsləri və tələbləri onunçün eşidilməz qalmasın və bununla da daha böyük faciələrə zəmin yaranmasın. Axı haqsızlıq, harınlıq zamanında adekvat hüquqi qiymətini almayanda həndəsi silsilə üzrə növbəti haqsızlıqlara yol açır, bədbəxtliklər gətirir.

Azərbaycanda isə onların sayı-hesabı itib. Lamiyə Quliyeva, Vüqar Əliyev bu mənada özlərini gec də olsa, bəxti gətirmiş saya bilərlər. Gör indi içəridə mətbuatın bixəbər qaldığı nə qədər başqa binəva, günahsız var. Eləcə də əsassız yerə zindana salınmış siyasi-vicdan, hicab məhbusları. Keşkə, onların məsələsində də azad medianın, "dördüncü hakimiyyət"in səsi eşidiləydi.

Bu mənada Lamiyə və Vüqar həm də sistemin qurbanlarıdır. Əgər ölkədə hökumətlər, hakimiyyətlər vaxtlı-vaxtında, seçki yolu ilə dəyişsəydi, hakimiyyət qolları, o sırada məhkəmələr müstəqil olsaydı, Aslan Aslanov kimilər və onların himayədarlarının cinayətləri, quduğanlıqları, habelə bu işə qol qoymuş müstəntiq-hakimlərin cinayətləri də vaxtında üzə çıxar, indi içəridə iki günahsız gənc yox, onların özləri olardı. Namusu tapdalanmış Lamiyə isə uzaqbaşı, bir neçə illik şərti iş alardı, çünki artıq hamı bildi ki, günah öləndə olub...

YENİ MÜSAVAT
N 31 (6059) 11 fevral 2015

# "Çudo-peçka"ların bahalı və keyfiyyətsiz "çudo" məhsulları

Müşahidələrə görə, şəbəkəni istehsala daha az vəsait sərf edib daha çox gəlir götürmək düşündürür, nəinki keyfiyyət; **Eyyub Hüseynov:** "Bizə Çudo-peçka"lardan hər ay 2-3 şikayət zəngi gəlir..."





**"Çudo-peçka"larla bağlı redaksiyamıza şikayətlər daxil olub. Şikayətlərdə həm satılan məhsulların bahalığından, həm də keyfiyyətindən bəhs edilir. Həmçinin peraşkilərin içindən tük çıxdığı, dönərin ətinin damarlarla dolu olduğunu deyən şikayətçilərin söylədiklərinin nə qədər həqiqəti əks etdirdiyini öyrənmək üçün bir neçə "Çud-peçka"ya baş çəkdik.**



Apardığımız müşahidədən də deyilənlərin gerçəyi əks etdirdiyinin şahidi olduq. Qiymətlər həqiqətən yüksək idi. Kremli məhsulların, xüsusilə də tortların istehsal tarixi, yararlılıq müddəti, tərkibi üzərilərində göstərilməmişdi.

**Satıcılardan biri vitrindəki tortların yenicə bişirildiyini və təzə olduğunu söylədi:** "Bizim mağazadakı məhsulların hamısı təzədir. Xüsusən də tortlar və şirniyyatlar. Onlar bir həftədən çox saxlanılmır. Həm də müştəri çox olduğu üçün tortların vitrində qalması mümkün deyil".

**"Bəs biz bu tortların təzə olduğunu necə bilək, əgər üzərində tarixi yazılmayıbsa" şəklində iradımıza satıcının cavabı bu cür oldu:** "Ətrafa baxın, nə qədər adam bura gəlir, bu adamlar hər şeyin təzə olduğuna sübutdur. Köhnə mallar satsaq heç kim gəlməz və almaz".

Burada peraşkilərin qiyməti içliyindən asılı olaraq 25-35 qəpik arasında dəyişirdi. Ancaq bir balaca peraşkiyə görə 25 qəpiyin çox olduğu qənaətindəyik. Peraşkinin qiymətinin bu cür olmasını onun ərsəyə gəlməsi üçün istifadə olunan ərzaqların qiyməti ilə hesablasaq belə nəticəyə gələ bilərik ki, 1 kiloqram kartofdan cəmi 3-4 peraşki hazırlanır. Bu isə mümkünsüzdür.

Dönərlərə gəlincə, qiymət hər yerlə bərabər eyni olsa da, keyfiyyəti haqda bunu demək mümkün deyil. Dönər haqdakı şikayətin nə dərəcədə gerçəyi əks etdirdiyini öyrənmək üçün "Çudo-peçka"dan bir dönər alıb oturduq. Dönərin içərisində damarlara rast gəlinirdi. Dadında isə qəribə bir tam sezilirdi. Dönərin ətinə o qədər damar vurulmuşdu ki, sanki bu, ət yox, damar dönəri idi. Apardığımız müşahidələrdən şirniyyatlardan və tortların çəkisinin azlığından şikayətlənən alıcıların da haqsız olmadığını gördük. Çünki burada satılan tortların heç birinin üzərində nə tərkibi, nə də ki istifadə müddəti yazılmamışdı. Buradan da görünür ki, şəbəkəni istehsala daha az vəsait sərf edib daha çox gəlir götürmək düşündürür, nəinki keyfiyyət. Çünki adətən qənnadı biznesində istehsalçının gəliri 20-30 faizə hesablanır. "Çudo peçka"nın "hədəfləri" 80 faizə kökləndiyindən keyfiyyət, müştəriyə yüksək xidmət kimi məsələlər arxa plana keçib. İstehlakçının sağlamlığı üçün vacib məqamlardan sayılan yararlılıq müddəti isə şəbəkədə sirr kimi qorunur və göstərilmir. Belə ki, "Çudo peçka"nın reyd apardığımız mağaza-kafelərinin hər hansı birində məhsulların üzərində yararlılıq müddətinə rast gəlmədik.

***

**Azad İstehlakçılar Birliyinin sədri Eyyub Hüseynov "Çudo-peçka"lardan hər ay 2-3 şikayət zənginin gəldiyini dedi:** "Əhali bizə zəng edib Çudo-peçka"lardan narazılıqlarını bildirir. Telefon zənglərində sifariş verdikləri şirniyyat məmulatlarının, tortların onların istəklərinə uyğun hazırlanmaması, çəkisinin az olması, malların üzərinə yararlılıq müddətinin olmaması haqda şikayətlər var. İki il öncə Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi dönərlərin standartını hazırladı. Dönərləri şişə taxıb "skoçlayıb" soyuducu avtomobillərdə dönərxanalara verən müəssisələr ayrıldı. Bu işi öz üzərinə götürən üç şirkətdən biri də "Çudo-peçka"lar oldu. Azad İstehlakçılar Birliyinin tədqiqatı göstərdi ki, "Çudo-peçka"ların heç birinin fermer təsərrüfatı yoxdur. Haradan necə gəldi ət alır və onu qablaşdırıb satırlar. "Azbanvit" şirkəti də bu işi görür. Ancaq "Çudo-peçka"dan fərqli olaraq "Azbanvit" şirkətinin çəkim sexi var. Onlar Rusiyadan gətirilmiş təzə heyvanları kəsir və dönər hazırlayırlar. Bizim orada monitorinqlərimiz olub. "Çudo -peçka"ya dönər satmaq üçün standartın nəyə görə verilməsi bizə hələ də təəccüblü qalır. Düşünürəm ki, bu sahədə ciddi problemlər var. Onu da qeyd edim ki, bizim monitorinqlər göstərir ki, dönərxanaların 80 faizi heç də standartlara uyğun dönər hazırlayan yerdən mal almır".

❑ **Günel MANAFLI**
**Fotolar müəllifindir**

## Yanacaqdoldurma məntəqəsinə basqın

**Lənkəranda yanacaqdoldurma məntəqələrinə silahlı basqın edən şəxslər zərərsizləşdirilib. Bu barədə APA-nın cənub bürosuna Lənkəran Şəhər-Rayon Polis Şöbəsinin (ŞRPŞ) müstəntiqi Nizami Məhərrəmov məlumat verib.**



Onun sözlərinə görə, rayonun Yuxarı Nüvədi kənd sakini Elvin Sakit oğlu Mürşidov tanışı Seymur Xeyrulla oğlu Əkbərovla birlikdə qabaqcadan əlbir olaraq gecə saatlarında rayonun Parakənd qəsəbəsi ərazisində yerləşən "Teymur Petrol" yanacaqdoldurma məntəqəsinə silahlı basqın edib. Üzlərinə maska taxan hər iki şəxs məntəqənin gözətçisi Ağamoğlan Həsən oğlu Həsənovu tüfənglə hədələyərək zor tətbiq etməklə kassada olan 40 manat pulu götürüblər.

Elvin Mürşüdov və Seymur Əkbərov daha sonra rayonun Kosalar kəndi ərazisində yerləşən "LEN Petrol" yanacaqdoldurma məntəqəsinə eyni üsulla basqın edərək, məntəqənin operatoru Ramin Şəmsəddin oğlu Əhmədovun üstünə tüfənglə hücum çəkməklə kassada olan 860 manat pulu ələ keçiriblər.

Lənkəran ŞRPŞ əməkdaşlarının həyata keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində quldurluqda təqsirli bilinən Elvin Mürşüdov və Seymur Əkbərov yaxalanaraq istintaq orqanlarına təhvil verilib. Onların istifadə etdikləri tüfəng, maska və mənimsədikləri pulun müəyyən hissəsi maddi sübut kimi götürülüb. Daha sonra onların üzərlərinə baxış keçirilərkən narkotik vasitə olan qurudulmuş marixuana aşkarlanaraq müsadirə olunub.

Dindirilmə zamanı hər iki şəxs törətdiyi əməli etiraf edərək bundan peşman olduqlarını bildirib.

Faktla bağlı Lənkəran ŞRPŞ-də Cinayət Məcəlləsinin 181.2.1., 181.2.2., 181.2.3 və 181.2.5-ci maddələri ilə cinayət işi açılıb, araşdırma aparılır.

## "Acı loxma"nın cəza evinə ötürülməsinin qarşısı alındı



**Ədliyyə Nazirliyinin Penitensiar Xidməti (PX) əməkdaşları axtarış-baxış tədbiri nəticəsində 15 saylı cəzaçəkmə müəssisəsinə narkotik vasitə keçirilməsinin qarşısını alıblar. PX-nin yaydığı məlumatda qeyd edilir ki, Cinayət Məcəlləsinin 120.1,29; 120.2.7 və 66.3 maddələrinə əsasən 11 il 9 ay müddətinə azadlıqdan məhrum edilmiş məhkum Rafiq Məşədi oğlu Mövsümova Tovuz rayon sakini Əsəd Məsim oğlu Fərzəliyev tərəfindən gətirilmiş sovqata baxış keçirilən zaman çörəyin içərisində xüsusi üsulla gizlədilmiş 30 ədəd "Tramadol" həbi aşkar edilərək götürülüb. Fakt üzrə araşdırma aparılır.**

❑ **E.MƏMMƏDƏLİYEV**


**Kişilər!!!**

Xəstəliklərdən əzab çəkən adamlar üçün! Diqqət!
**İsrail təbabəti** tətbiq edilir! **Axırıncı şans!!!**
Əgər Sizə nə **Azərbaycanda,** nə də **xaricdə heç kim kömək edə bilməsə və** Siz aşağıda **göstərilən xəstəliklərdən** həmişəlik qurtarmaq istəyirsinizsə, onda **yaxşı insanlara,** keyfiyyətli, qısa müddətdə və tam müalicəsini **d-r Vaiz Səmədov apara bilər:**

---

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi (*enurez*)**
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Qadınlarda uşaqlıq boruların keçməməzliyi**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi** və **sızanaqlar**
* **Gərginlik, yuxusuzluq, yaddaşın azalması**

---

Həkim qəbulu və həkimə zəng etmək saat 11.00-dan sonra
**Tel: (012) 437-88-05; (050) 213 88-05.**
**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com "doktor Vaiz Səmədov".**






**Babasil xəstəliyinin ən müasir metodla MÜALİCƏSİ**

*Almaniyanın məşhur "Karl Etorts" firmasının aparatı ilə Moskva şəhəri proktologiya ETM-də xüsusi hazırlıq keçmiş həkim tərəfindən qansız, ağrısız, yataq rejimi gıozləmədən - lateks həlqə qoyulması.*

**SƏLİMOV FƏRMAN**

Tel: (055) 776-70-34

# Neft sektorunda yeni ixtisar dalğası: daha 500 nəfərə bildiriş gəldi

## Ekspertlər baş verənlərdən narahatdır və bunu əmək qanunvericiliyinin pozulması hesab edirlər

**Neftin qiymətində olan enmələr Azərbaycanda ixtisarlara səbəb olub. Bununla bağlı artıq yanvar ayında böyük bir proses başlanıb və ilin sonunadək davam edəcəyi gözlənilir. Son olaraq “Karasu Development Company”də ixtisarlar başlanıb. Şirkətin hüquq departamentinin rəhbəri Anar Qurbanov bildirib ki, aparılan ixtisarlar dünya bazarlarında neftin kəskin ucuzlaşması ilə əlaqədardır:**

“Bildiyiniz kimi, dünya bazarlarında neftin qiyməti kəskin ucuzlaşıb. Bununla əlaqədar, şirkət optimallaşdırma siyasəti aparır. Müvafiq ştat strukturlarında dəyişikliklər aparılır”. Bununla yanaşı, şirkət rəsmisi ixtisarların neçə işçiyə şamil olunduğunu deməyib. (APA). Ancaq işçilər bildiriş verilən işçilərin sayının 500 nəfər olduğunu bildirirlər.

**Qeyd edək ki, Neftçilərin Hüquqlarını Müdafiəsi Komitəsi qeyri-hökumət təşkilatının sədri Mirvari Qəhrəmanlı musavat.com-a bildirib ki, artıq fevralın əvvəlindən işçilərə xəbərdarlıq edilib:** “Əsasən 50-59 yaşlı işçiləri ixtisar edirlər. İxtisar olunanların əksəriyyəti yaxşı mütəxəssislərdir. Amma bu yaşdan sonra onlara iş tapmaq çox çətin olacaq. Şirkət rəhbərliyi ixtisarları neftin kəskin ucuzlaşması ilə əlaqələndirir”.

Hüquq müdafiəçisi qeyd edib ki, ixtisarlar “Karasu Development Company”nin daxil olduğu “Global Energy Azerbaijan Group”un digər strukturlarında da aparılır. M.Qəhrəmanlı həmçinin deyib ki, müxtəlif əməliyyat şirkətlərində təxminən yüz nəfər işçi məcburi məzuniyyətə göndərilir və bu proses hər ay davam edəcək.

Qeyd edək ki, yanvarın 15-dən “Qarasu” Əməliyyat Şirkətinin Şirvanda yerləşən neft mədənlərində işləyən işçilərin 15 faizinin öz hesablarına məzuniyyətə buraxıldığı bildirilir. Bu prosesin hər ayın 15-də eyni səviyyədə aparılacağı vurğulanır. Növbəti ayda daha 15 faiz işçinin məzuniyyət adı ilə işdən çıxarılacağı ehtimalı var. Baş verənlər böhranla, inflyasiya ilə əlaqələndirir. Ekspertlər isə bildirirlər ki, bu, neft şirkətindəki ixtisarlarla bağlı ilk xəbər deyil. Neftin qiymətinin kəskin düşməsi fonunda bu ixtisarların daha da artacağı proqnozlaşdırılır. Bildirilir ki, hökumət baş verənlərin ixtisar kimi gündəmə gəlməməsi üçün prosesi başqa adlar altında həyata keçirir. Bu isə əmək qanunvericiliyinin pozulmasıdır.



Həmçinin ekspertlər qeyd edirlər ki, ölkədə aparılan bu cür ixtisarların fonunda əhalinin banklara borcu yığılıb qalır və ödənməyən, ödənilməsi mümkün olmayan kreditlərin həcmi artır. Belə ki, ölkədə fəaliyyət göstərən maliyyə-kredit təşkilatları tərəfindən 2014-cü ildə ölkə iqtisadiyyatına məcmu kredit qoyuluşunun strukturunda problemli kreditlərin xüsusi çəkisi artıb. Həmçinin istehlak kreditlərinin də çəkisi artıb. Mərkəzi Bankın rəsmi məlumatı göstərir ki, 2015-ci il yanvarın 1-nə olan məlumat ürəkaçan deyil. Belə ki, ölkədə istehlak kreditləşməsi ötən il ərzində 24,41 faiz, xüsusi çəkisi isə 1,4 faiz bəndi artıb. Lakin 2014-cü ildə istehlak kreditləşməsinin artım dinamikası 2013-cü ilə nisbətən 19,56 faiz bəndi zəifləyib.

Ölkədə fəaliyyət göstərən maliyyə-kredit təşkilatları tərəfindən 2014-cü ildə ölkə iqtisadiyyatına məcmu kredit qoyuluşunun strukturunda isə problemli kreditlərin xüsusi çəkisi artıb. 2015-ci il yanvarın 1-nə ölkə iqtisadiyyatına qoyulan cəmi kreditlərin 976,3 milyon manatının və ya 5,3 faizinin ödəniş vaxtı keçib. Ötən ilin əvvəlinə bu göstərici 792,8 milyon manat və ya 5,1 faiz olub. Əvvəlki ayla müqayisədə isə problemli kreditlərin həcmində azalma müşahidə edilib. Belə ki, 2014-cü il dekabrın 1-nə məcmu kreditlərin 5,4 faizinin və ya 981,5 milyon manatının vaxtı keçib.

Qeyd edək ki, ölkə iqtisadiyyatına kredit qoyuluşu 2014-cü ildə 20,23 faiz artaraq bu ilin yanvarın 1-nə 18,543 milyard manat təşkil edib. Məcmu kreditlərin 41,7 faizi və ya 7,732 milyard manatı istehlak kreditləşməsinin payına düşüb.

Dövlət Statistika Komitəsinin məlumatına görə isə 2014-cü ilin yanvar-noyabr aylarında maliyyə-kredit təşkilatları tərəfindən ölkənin hüquqi və fiziki şəxslərinə verilmiş kreditlərin məbləği artıb. Bu məbləğ 19,1 faiz artaraq, əvvəlki illərdə verilmiş kreditlər də nəzərə alınmaqla, 18,2 milyard manata çatıb. Kreditlərin 79,5 faizi uzun müddətə verilib, 5,4 faizinin isə ödəmə vaxtı keçib. Ekspertlərə görə, ölkə əhalisinin banklara olan borcu narahatedici səviyyədədir. Ölkədə hələ ixtisarların başlanmadığı, neftdən milyardlarla vəsait gəldiyi dövrdə əhalinin banklara borcu kifayət qədər böyük məbləğdir. Bu prosesin dünyada gedən neftlə bağlı proseslərin fonunda daha da sürətlənəcəyi gözlənilir. Yeni bir müddət sonra işsizliyin kəskin artması həm də vətəndaşların kəskin borcla yüklənməsinə səbəb olacaq. Nəticədə isə banklarla müştərilər arasında problemlərin yaranacağı və məhkəmə çəkişmələrinin ortaya çıxacağı istisna deyil.

❑ **RÖYA**

# Mənzil bazarında vergi şoku

## Ev alqı-satqısı ilə məşğul olan firmalar “bu, varlıların başında çatlayacaq” deyir, ekspertlər isə fərqli fikirdədir

**Bir neçə gün öncə mənzil alqı-satqısı prosesinə bir sıra dəyişiklik olub. Belə ki, artıq mənzilini 3 ildən tez satanlardan vergi tutulacaq. Vergilər naziri Fazil Məmmədov daşınmaz əmlakın alqı-satqısından əlavə dəyər vergisinin (ƏDV) tutulmasına münasibət bildirərkən deyib: “Daşınmaz əmlakın alqı-satqısından ƏDV-nin tutulması əvvəllər də müvafiq qanunvericilikdə var idi. Sadəcə, bunun uçotu aparılmırdı. Bu gün isə bütün alqı-satqılar notarial qaydada rəsmiləşdirildiyi üçün həmin notarial münasibətlər Vergilər Nazirliyinə təqdim olunur. Artıq Vergilər Nazirliyində məlumat bazası var. Daşınmaz əmlakın alqı-satqısından ƏDV-nin tutulmasına ötən ilin əvvəlindən başlanılıb. Əgər daşınmaz əmlakın alqı-satqısından mənfəət əldə olunacaqsa, ƏDV tətbiq olunacaq, daşınmaz əmlak əvvəlki qiymətə satıldığı halda, yalnız ƏDV arasındakı fərq tutulacaq”.**

Bu isə ev bazarındakı vəziyyəti pisləşdirib. “Neftçilər” metro stansiyası yaxınlığında ev alqı satqı firmasında çalışan **Mehdi Əmirov** deyir ki, bu dəyişiklik əmlak sektoruna ciddi zərbə vuracaq. Onun fikrincə, daha çox da Rusiyada bizneslə məşğul olub, burda ev alıb-satanlar itirəcək: “Bu adamlar evi 50 minə alıb, 60 min manata satacaqlar. Ev alqı-satqı firmaları ümumən çox qazanmırlar. Uzaqbaşı hər evdən 200-300 manat qazanc olsa, böyük şeydir. İndi isə ev bazarı demək olar ki, donub. Dekabrdan bu yana tərpənmir”.

**Müsahibimiz bildirdi ki, daha çox Rusiyada çalışan iş adamları ev alverində maraqlı idi. Onlar pullarını daşınmaz əmlaka köçürməklə qazanc əldə etməyə çalışırdılar:** “Bu vergi məsələsi isə onları vuracaq. Yenə də deyirəm ki, bu söhbət kasıbların başında çatlamayacaq. Çünki evi varlılar alıb, varlılar satır. Bu məsələnin kasıblara heç bir aidiyyəti yoxdur”.

**“Qara Qarayev” metro stansiyası yaxınlığında yerləşən ev alqı-satqısı firmasının sahibi Mərdan bəy isə dedi ki, onsuz da bir neçə aya evlərin qiymətinin kəskin aşağı düşəcəyi gözlənilir. Onun sözlərinə görə, bu halda da ev bazarında ciddi canlanma gözlənilmir:** “Kim ki, pulunu evə çevirib, ona investisiya kimi yanaşır, onlar üçün vəziyyət pis olacaq. Çünki onlar tez-tez mənzil alıb satırlar. Amma kasıb 3 ildən bir mənzil alıb-satmır ki. Kasıb 40 ildə özünə gün ağlayıb, ev alır, ömrünün sonuna qədər də orda yaşayır. Ev alqı-satqı firmalarına da inanmayın ki, xüsusi ziyanı olsun. O dövrlər geridə qalıb ki, biz 40 minə ev alıb, onu 60 minə sataq. 5-6 il əvvələ qədər belə şeylər etmək olurdu və ciddi gəlir də əldə edirdik. İndi ev bazarında durğunluqdur və ancaq evin kirayəsindən, alqı-satqısından xırda gəlir əldə edə bilirik”.




**İqtisadçı ekspert Ramil Osmanlı “Yeni Müsavat”a açıqlamasında bildirdi ki, burada söhbət təkcə ƏDV-dən yox, başqa gəlir vergilərindən də gedir. Onun sözlərinə görə, ən aktualı gəlir vergisidir ki, bu da 14 faizlik bir rəqəmdir:** “3 il müddətində təkrar dövriyyədə olan daşınmaz əmlakdan bu vergi tutulmalıdır. Vergilər Nazirliyindən verilən açıqlama reallığı əks etdirir. Çünki bu vergi 2010-cu ildə də var idi. Sadəcə, buna nəzarət imkanları məhdud idi. Dəfələrlə jurnalistlər bu mövzu ilə bağlı müraciət edəndə bildirmişəm ki, indiki vəziyyətdə bu qanunun tətbiqi qanunvericiliyin həyata keçirilməsi, eləcə də dövlət büdcəsinə daxil olan artım baxımından müsbət rolu olsa da, bazara ciddi mənfi təsiri olacaq. İndiki dövrdə bu vergi ilə ödəmə qabiliyyətinin aşağı düşdüyü bir zamanda vəziyyəti daha da gərginləşdirəcək. Nəticədə daşınmaz əmlak dövriyyəsinin azalması, bu sahəyə investisiya yatıranların- onları bazarda ”perekupşik" adlandırırlar - bu sahədən uzaqlaşması baş verəcək. 14 faiz elə rəqəmdir ki, özünü alqı-satqıda ciddi şəkildə göstərəcək".

**Müsahibimiz bu dəyişikliyin ev bazarına vuracağı zərbədən də danışdı. Dedi ki, bundan sonra satıcı mənzilini satarkən vergi xərclərini nəzərə almaqla əmlakın müvafiq dəyərinin üzərinə gələcək. Onun sözlərinə görə, bu, indiyə qədər yaşanmış proseslərin fonunda analoji haldır:** “Rəsmiləşdirilən bütün icarə müqavilələrinə görə icarədarın üzərinə qoyulmalı vergi icarə alanın üzərinə qoyulur. İndi də alqı-satqıda fiziki şəxslərin 100 min manat dəyərindəki əmlakda 14 min manat vergi ödəməsi ciddi rəqəm deməkdir. Satıcı bu məsələləri kompensasiya etmək üçün ödəyəcəyi vergiləri də satış qiymətinin üzərinə əlavə edəcək. Bu, nə dərəcədə effekt verəcək?”

**R.Osmanlının sözlərinə görə, haqqında danışdığımız son dəyişiklik ev bazarındakı alqı-satqının dinamikasını aşağı salacaq:** “Bu, qaçılmaz şərtdir. Təklif və razılaşma qiymətlərini nəzərə alanda qanuna müvafiq olan 14 faiz fiziki və hüquqi şəxslərin büdcəsinə ciddi təsir göstərəcək”.

❑ **Sevinc TELMANQIZI**

YENİ MÜSAVAT

Son səhifə

N 31 (6059) 11 fevral 2015



# Bir uşaq ölkəni ikiyə ayırdı

2015-ci ilin ilk dəqiqələrində Macarıstanın Mako əyalətində dünyaya gələn Rikardo Racz ilin ilk uşağı seçilib və bir anda ölkənin ən məşhur uşaqlarından birinə çevrilib. Bunun səbəbi isə uşağın rumın bir ailəyə mənsub olmasıdır. Atası Peter və anası Sylvianın oğullarını qucaqlarına alıb çəkdirdiyi şəkil xoşbəxt bir ailə tablosunun isbatı idi. Lakin Jobbik Partiyasının lideri Elod Novakın facebook sosial şəbəkəsində paylaşdığı status, öz ailəsinin şəkli ilə rumın ailənin şəklini yanbayan qoyub müqayisə etməsi bir çoxlarının qəzəbinə səbəb olub. O, statusunda bu sözləri yazıb: “Macarların sayı azalmaqda davam edir. Çox keçmədən öz evimizdə azlıqlara çevriləcəyik. Macarıstanın adının dəyişdiriləcəyi gün nə vaxt gələcək? Ölkəmiz ən böyük problemi ilə nə vaxt üzləşəcək”.

E.Novakın bu statusundan sonra balaca Rikardonun adı irqçilik dedi-qodularının içində hallanmağa başladı. Bir çoxları Novakın üzr istəməsini istəsə də, partiya lideri bunu qəbul etmədi. Rikardonun anası bu məsələlər haqqında açıqlama verib: “Oğlum 18 yaşına çatdığı zaman rumın olub tanınıb-tanınmamağı haqda qərarı özü verəcək. Yeni ilin ilk uşağı olması onun günahı deyil”.

# 1 milyonluq pişik

Macarıstanda təşkil edilən pişik sərgisində hər kəsin diqqətini cəlb edən “Rambo” adlı pişiyə 1 milyon türk lirəsi qiymət qoyulub. Paytaxt Budapeştdə təşkil edilən beynəlxalq pişik sərgisində 10 ölkədən gələn yüzlərlə pişik iştirak edib. Pişik satın almaq istəyən ziyarətçilər cins pişiklər üçün yüksək miqdarda pul ödəməyə hazır olduqlarını deyiblər. Hərrac 5 nəfər tərəfindən idarə edilib. Bütün bədəni və başı tüksüz olan Kanada Sphynxı, Asiya Benqalı və İran pişikləri ən çox diqqət çəkən pişiklər idi. Sərgiyə gətirilən Amerika Maine Coon cinsli 13 kilo ağırlığındakı Rambo adlı pişiyin qiymətinin isə 1 milyon türk lirəsi olduğu deyilib. 4 yaşlı pişiyin sahibi olan Bolvari Laszlo 20 ildir bu cinsdən olan pişikləri saxladığını, onlarla qürur duyduğunu deyib. Dəfələrlə dünya və Avropa çempionu olan Rambo hər kəsin sevimlisinə çevrilib. Pişiyin sahibi isə nə qədər pul verilirsə verilsin onu satmayacağını deyib. O, çəkisini 2 kilo daha artıraraq 15 kilo olacaq.



# Artıq telefonumuz zərər görməyəcək




Gorilla Glass eynəklərinin istehsalçısı olan “Corning” şirkəti telefon və planşetlər üçün ekranı çox güclü olan yeni bir telefon hazırlayıb. Bu günə qədər cızıqlara qarşı ən dözümlü telefon ekranlarının sapfirdən hazırlandığı deyilirdi. Lakin bu ekranlar düşdükləri zaman qırılsa da, telefonun maddi dəyərini xeyli artırır. Məhz bu səbəbdən “İphone” firması telefonların ekranını sapfirdən hazırlamır. Corning firması isə “Project Phire” adlı sapfirdən daha ucuz və daha möhkəm yeni bir ekran hazırlayır. Bu ekranlardan İphone firmasının ən güclü rəqibi olan Gorilla Gassın istifadə edəcəyi deyilir.

# Paltarı həyatını xilas etdi

Braziliyanın Belem şəhərində silahlı hücuma məruz qalan İvete Medeiros adlı qadının həyatını paltarı xilas edib. “İndipendent”in xəbərinə görə, qadın bir mağazanın qarşısından keçərkən səs-küy eşidib və nə olduğunu öyrənmək üçün içəri girib. İçəri girdiyi anda mağazadakı oğru ona atəş açıb. Medeiros əvvəlcə heç nə hiss etməsə də sonra sinəsində ağrılar hiss etməyə başlayıb. Onun sinəsinə dəyən güllə paltarının güllə keçirməz olması səbəbi ilə ürəyinə təsir etməyib. O, həyatda qalmasını “Allahın hökmü” kimi dəyərləndirib.





# Ketçup və mayonezin zərərləri

Ketçup və mayonezin tərkibindəki kimyəvi maddələr insan sağlamlığına ciddi zərər verir. Təəssüf ki, ketçup və mayonez istehlakı bütün dünyada olduğu kimi ölkəmizdə də olduqca məşhurdur. Alimlərin araşdırmaları nəticəsində rəngləndirici maddə daşıyan yemək və içkilərin xüsusilə uşaqların zəka səviyyəsinə, zehni qabiliyyətinə mənfi təsir etdiyi ortaya çıxıb. Rəngləndirici, qoruyucu maddələr insan sağlamlığını təhdid edir və xərçəngə yaxalanma riskini artırır. Ürək xəstələri üçün hədsiz dərəcədə zərərli olan mayonez ürək döyüntüsünün zəifləməsinə yol açır. Mayonezin digər mənfi təsiri ürəklə yanaşı, xolesterolu da yüksəltməsidir.

Uşaqların və gənclərin çox sevdiyi ketçup və mayonez üçün başqa təbii həll yolu varmı? Bunun yeganə yolu evdə ketçup və mayonez hazırlamaqdır. Tərkibindəki əsas qatqı yağ olduğu üçün yüksək kaloriyə malikdir. Bir xörək qaşığı mayonez 102 kaloridir. Mayonezi evdə və zeytun yağı ilə hazırlamağa diqqət etmək lazımdır.




**QOÇ** - Pozulmuş enerjinizi bərpa etmək üçün dini tövsiyələrə riayət edin, müqəddəs insanları və yerləri ziyarət edin. Fəaliyyətdən daha çox mənəvi amillərə yer ayırın. Uzaq səfərlər də mümkündür.

**BUĞA** - Diqqətli olun, çünki ulduzlar ətrafınızda sizləri aldadanların artdığını bəyan edir. Başqa probleminiz olmayacaq. Bu gün ciddi gəliriniz gözlənilməsə də, büdcəniz boş qalmayacaq.

**ƏKİZLƏR** - İlk növbədə əsəblərinizi qoruyun ki, qarşınızda duran problemləri həll etməyə gücünüz çatsın. Həlli çətin görünən məsələlərə girişməyin. Göy qübbəsi büdcənizin artacağını mütləq sayır.

**XƏRÇƏNG** - Qarşınızda xoş bir gün durur. Məqsədlərinizə çatmaqda çətinliyiniz olmayacaq. Amma uzaqda yaşayan qohumlarınızla əlaqələri dərinləşdirin, ələlxüsus da əgər onlardan xəstə olanı varsa.

**ŞİR** - Köhnə mübahisələrə, yarıtmaz tərəfdaşlarla haqq-hesab çürütməyə qayıtmayın. Əks təqdirdə, çoxsaylı uğursuzluqlarla rastlaşacaqsınız. Yalnız böyük ideyalarınız barədə düşünün.

**QIZ** - Ulduzlar təvəqqe edir ki, bu gün heç kimə yalan vədlər verməyəsiniz. Çünki xırda yanlışlıq sonrakı günlərdə sizə zərər yetirə bilər. Qarşılıqlı ünsiyyət zamanı eqoistlik etməyin. Hamıya dəyər verin.

**TƏRƏZİ** - Fevralın sonrakı mərhələsi üçün görəcəyiniz işləri indidən götür-qoy edin. Ən azından gün ərzində zəkanız iti olacaq, başınıza səmərəli ideyalar gələcək. Müqəddəs çağırışlara riayət edin.

**ƏQRƏB** - Aqressiv düşüncələri heç olmasa bu günlük arxa plana atın. Göy qübbəsi nicatınızın mərhəmətli və mülayimlikdən asılı olduğunu bildirir. Saat 17-dən sonra bütün təkliflərə “hə” deyin.

**OXATAN** - Gücünüzü lazımsız sahələrə sərf etməyin. Məhz bu səbəbdən vacib işləriniz öz həllinə gecikir. Yaxşı olar ki, saat 11-dən etibarən özünüzdə təpər tapıb hərəkətə keçəsiniz. Vaxt itirməyin.

**OĞLAQ** - Bu gün heç bir təhlükə yoxdur. Göy qübbəsi aldığınız bütün təkliflərə razılıq verməyinizi təvəqqe edir. Yalnız axşam saatlarında xırda mübahisələriniz mümkündür. Yəqin ki, təmkinli olacaqsınız.

**SUTÖKƏN** - Hiss olunur ki, bu həftə çox yorulmusunuz. Ona görə də bugünkü fəaliyyətinizi başa çatdıran kimi istirahət haqqında düşünün. Maddi durumunuz imkan versə, səfər də mümkündür.

**BALIQLAR** - Başqalarının işinə müdaxilə etməyin, xüsusən də hüquqi müstəvidə və sənədlərlə bağlı məsələlərdə. Bunu bacarsanız, günün ləzzətini yaşaya biləcəksiniz. Nahardan sonra maddi irəliləyiş də gözlənilir.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

# Köpək balığı sörfçünü yedi



Avstraliyanın Qaller əyalətinə bağlı Ballina şəhərinin çimərliyində köpək balığı hücumuna məruz qalan sörfçü (su üzərində idman növü) həyatını itirib. Polis əməkdaşı olan Kameron Lindsey köpək balığı hücumuna məruz qalan sörfçünün səhər saatlarında yaralı olaraq sudan çıxarıldığı, lakin çox qan itirdiyi üçün xilas edilə bilmədiyini deyib. Polis ölən şəxsin kimliyini öyrənmək üçün ətrafda yaşayan sakinlərdən kömək istəyib. Ölüm hadisəsindən sonra Ballina və Lennox bölgəsindəki bütün çimərliklər bağlanıb.

Səhifəni hazırladı: ŞAHNAZ

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Nazim SABİROĞLU

Lisenziya N: B 114
SAYI: 5.300

“Yeni Müsavat”ın kompüter mərkəzində yığılıb, səhifələnib, “Azərbaycan” nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.